Azərbaycan Basketbol Federasiyası

Azərbaycan Basketbol Liqası

**Təsdiq edirəm!**
**Azərbaycan Basketbol Federasiyası baş katibi**
**________________ Vüqar Əzimov**

**23 iyul 2025-ci il**

**BASKETBOL ÜZRƏ KİŞİLƏR ARASINDA AZƏRBAYCAN BASKETBOL LİQASI VƏ ÖLKƏ KUBOKUNUN 2025 – 2026-Cİ İL MÖVSÜMÜ XXXI ÖLKƏ ÇEMPİONATININ**
**(26 sentyabr 2025-ci il – 10 may 2026-cı il)**

# ƏSASNAMƏSİ

BAKI

| | | |
|---|---|---|
| **I** | **MƏQSƏD** | |
| 1 | Azərbaycan Basketbol Liqası (ABL) | 5 |
| **II** | **İDARƏÇİLİK** | |
| 2 | ABL çempionatının təşkilatçısı və icraçısı | 5 |
| **III** | **YARIŞ** | |
| 3 | ABL iştirakçıları | 6 |
| 4 | Rəsmi mövsüm; ABL çempionatının keçirilmə tarixləri; Ölkə kuboku yarışları | 7 |
| 5 | Lisenziyalaşdırma | 7 |
| 6 | Komandaların qeydiyyatı | 8 |
| 7 | Təsdiq edilmiş lisenziyalar, oyunçuların və komanda üzvlərinin təsdiq edilmiş siyahıları | 13 |
| 8 | Azadetmə məktubu (buraxılış) (Letter of clearnce) | 14 |
| 9 | Ədalətli oyun prinsiplərinin qorunması | 15 |
| 10 | ABL çempionatının keçirilmə sistemi | 16 |
| 11 | Turnir cədvəlində komanda yerlərinin müəyyən edilməsi | 17 |
| 12 | Mükafatlandırma | 17 |
| 13 | ABL çempionatında klubların idman, kommersiya prinsipləri | 18 |
| 14 | Çempionat oyunlarının təqvimi, oyunların başlama tarixi və saatı | 18 |
| **IV** | **OYUN (OYUNLAR)** | |
| 15 | Oyun qaydaları | 19 |
| 16 | Rəsmi top | 20 |
| 17 | Oyunçuların geyimi | 20 |
| 18 | Oyun geyiminin nişanlanması | 22 |
| 19 | Məşqçilərin və komandanın digər nümayəndələrinin geyimləri | 23 |
| 20 | Oyunun başlanması | 23 |
| 21 | Himn və rəqslər, əyləncə qrupları | 24 |
| 22 | Oyunlara rəhbərlik və səlahiyyətli şəxslər | 24 |
| 23 | Oyunda fasilələr,birdəqiqəlik fasilələr, televiziya reklam fasilələri | 25 |
| 24 | ABL oyunundan əvvəl rəqib komandaya meydanın təqdim edilməsi; | 26 |
| 25 | Su və buz təminatı | 26 |
| 26 | Oyunların videoçəkilişi | 26 |
| **V** | **YARIŞ MƏKANI** | |
| 27 | Yarış məkanın uyğunluğu | 26 |
| 28 | Yarış məkanına məhsul şəxsin təyinatı | 27 |
| 29 | Basketbol meydançasına tələblər | 27 |
| 30 | Basketbol səbətinə tələblər | 27 |

2025-2026

| | | |
|---|---|---|
| 31 | Basketbol lövhəsinə tələblər | 28 |
| 32 | Səbət və tor | 28 |
| 33 | Elektron və səsgücləndirici vasitələr | 28 |
| 34 | Masa hakimlərinin yeri | 29 |
| 35 | Oyunun inspektorunun iş yeri | 31 |
| 36 | ABL əməkdaşlarının iş yeri | 31 |
| 37 | Komandaların oturacaq yerləri | 31 |
| 38 | İşıqlandırma | 31 |
| 39 | Yarış məkanının hərarəti(temperaturu) | 31 |
| 40 | Paltardəyişmə otaqları | 31 |
| 41 | Tibb otağı, dopinq nəzarəti və həkim personalı | 32 |
| 42 | KİV və KİV fəaliyyəti üçün zonaları | 32 |
| 43 | Təhlükəsizlik tələbləri | 32 |
| 44 | ABL klublarının təşkil etdiyi fan-klublar | 33 |
| **VI** | **ABL İMİCİ** | |
| 45 | Əsas müddəalar | 34 |
| 46 | İctimaiyyətlə əlaqələr; | 36 |
| 47 | Televiziya; televiziya yayımları ilə ABL klublarının öhdəlikləri; | 38 |
| 48 | Reklam; | 38 |
| **VII** | **HAKİMLƏR** | |
| 49 | ABL hakimlər xidmətinin rəhbəri; | 41 |
| 50 | Hakimlərə tələblər; | 41 |
| 51 | Hakimlərin vəzifələri; | 42 |
| 52 | Oyunun inspektoru; | 43 |
| 53 | Masa hakimləri; | 44 |
| 54 | Statistika operatorları; | 45 |
| **VIII** | **ETİRAZ ETMƏ QAYDALARI** | |
| 55 | Etiraz etmə proseduru; | 45 |
| **IX** | **İNTİZAM SİSTEMİ, SANKSİYALAR, NİZAM-İNTİZAM POZUNTULARINA GÖRƏ CƏZALAR** | |
| 56 | Nizam intizam bölməsi; | 46 |
| 57 | Sanksiyalar; | 48 |
| 58 | Cərimələrin ödənilməsi şərtləri; | 49 |
| 59 | Qayda pozuntuları; | 49 |
| 60 | FIBA rəsmi oyun qaydalarının pozulmasına görə cərimələr; | 50 |

2025 - 2026

| | | |
|---|---|---|
| 61 | Oyunçuların və ya məşqçilərin qeydiyyat zamanı prosedur pozuntularına görə cərimələr. | 51 |
| 62 | ABL oyunlarının təşkili və keçirilməsində baş verən pozuntulara görə cərimələr (prosedurlar). | 51 |
| 63 | Mühafizə və təhlükəsizlik qaydalarının pozulması hallarında cərimələr. | 52 |
| 64 | ABL tərəfindən təşkil edilən layihələrdə, tədbirlərdə, görüşlərdə və seminarlarda iştirak etməkdən imtina. | 53 |
| 65 | Nizam - intizam qaydalarının pozulmalarına görə cərimələr. | 53 |
| 66 | Oyunun nəticəsinə təsir edəcək işbirliyi və mərc oyunlarında iştiraka görə cəzalar. | 54 |
| 67 | Oyunun hakimlərinə, inspektoruna və masa hakimlərinə sanksiyalar. | 55 |
| 68 | Dopinq və dopinq nəzarət prosedurlarının pozulmasına görə məsuliyyət. | 56 |

**Əlavə №1** Təkrar baxış sistemindən istifadə qaydaları (SPS) 58

**Əlavə №2** ABL iştirakçısının ədalətli oyun prinsiplərinə riayət etməsi barədə razılıq bəyannaməsi 60

**Əlavə№3** ABL-ın təsvirinin və sponsor reklamlarının nişanlanma və istifadə qaydaları 63


2025 - 2026

**Bu Əsasnamə Beynəlxalq Basketbol Federasiyaları Assosiasiyasının (FIBA) qaydalarına və ölkə ərazisində yarışların keçirilmə qaydaları ilə bağlı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin 21 dekabr 2022-ci il tarixli 33 nömrəli kollegiya qərarı ilə təsdiq edilmiş texniki reqlamentə uyğun tərtib edilmişdir.**

## I FƏSİL. MƏQSƏD: AZƏRBAYCAN BASKETBOL LİQASI (ABL)

### 1. Azərbaycan Basketbol Liqasının məqsədləri

**1.1.** ABL klublarının fəaliyyətini birləşdirmək. ABL Əsasnaməsinə uyğun klubların fəaliyyətini koordinasiya etmək (bundan sonra Əsasnamə).
**1.2.** ABL çempionatlarının keçirilməsi üçün tələblərə uyğun iqtisadi, maliyyə və təşkilati işləri təşkil etmək.
**1.3.** Azərbaycanın kişilərdən ibarət ən güclü peşəkar basketbol komandasını müəyyən etmək (ABL çempionunu və ölkə kubokunun ən güclü komandasını müəyyən etmək).
**1.4.** Geridə qalmış mövsümün yekunlarına əsasən ABL komandalarının reytinqini müəyyən etmək, yerlər üzrə komandaları müəyyənləşdirmək. Güclü komandalara beynəlxalq yarışlarda ölkəni təmsiletmə hüququnu vermək.
**1.5**. Azərbaycanda basketbolu təbliğ və inkişaf etdirmək. Basketbolu fiziki tərbiyə vasitəsi kimi təbliğ və ondan istifadə etmək. Sağlamlığın möhkəmləndirilməsi və asudə vaxtları səmərəli keçirilməsində basketboldan istifadəni vətəndaşlar arasında təbliğ etmək. Daha çox insanın basketbol oyunlarına tamaşaçı qismində cəlb etmək. Əhalinin bütün kateqoriyalarını oyunlara sövq etmək.
**1.6.** Maksimum dərəcədə tamaşaçıları cəlb edəcək səviyyədə keyfiyyətli idman tədbirlərini təşkil etmək.
**1.7.** ABL-in müsbət imicini formalaşdırmaq və çempionatın səviyyəsini hərtərəfli inkişaf etdirmək.
**1.8.** Ölkənin ulduz oyunçularının müsbət imicinin formalaşdırılması və milli basketbolçuları maraq dairəsində saxlamaq.
**1.9.** İctimaiyyətə ABL haqqında daha çox informasiyanın çatdırılması üçün KİV vasitələri ilə keyfiyyətli əməkdaşlıq qurmaq.
**1.10.** Xarici ölkələrin idman təşkilatları ilə əlaqələr qurmaq və bu əlaqələri inkişaf etdirmək.
**1.11.** Həvəskar klubların (azarkeş birliklərinin) yaranmasına və fəaliyyət göstərməsinə dəstək olmaq.

## II FƏSİL. İDARƏÇİLİK

**2. ABL çempionatının və ölkə kubokunun təşkilatçısı və icraçısı**
Azərbaycan Basketbol Liqasının və ölkə kubokunun keçirilməsinə ümumi rəhbərliyi Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Basketbol Federasiyası həyata keçirir.
**2.1.** Çempionat və ölkə kuboku Azərbaycan Basketbol Federasiyası (ABF) tərəfindən təşkil edilir.
**2.2.** ABF idman direktoru ABL çempionatının təşkilinə və keçirilməsinə rəhbərlik edir.
**2.3.** ABL çempionatının və ölkə kubokunun Əsasnaməsi və oyunların təqvimi ABL-in idarə heyəti tərəfindən təsdiqlənir.
**2.4.** Çempionatın və ölkə kubokunun keçirilməsinə məsul şəxslər: ABL direktoru, ABL idman direktoru və ABL katibi.
ABL qərargahı Bakı şəhərində yerləşir. Ünvan: Bakı İdman Sarayı (Neftçilər pr. 26a), imeyl: info@aze.basketball

## III FƏSİL. YARIŞLAR

**3. ABL iştirakçıları**
**3.1.** ABL çempionatında və ölkə kubokunda Azərbaycanın peşəkar basketbol klubları iştirak edirlər. ABL Əsasnaməsinin tələblərini yerinə yetirən klublar ABL çempionatında iştirak edə bilər.
**3.2.** Hüquqi və fiziki şəxslərin klubların idarəçiliyində fəaliyyəti:
**3.2.1.** ABL çempionatında və ölkə kubokunda iştirak edən klublar – hüquqi şəxslər digər klubların səhmdarı ola bilməzlər. Hüquqi şəxslər digər klubların fəaliyyətində və idarəçiliyində fəaliyyət göstərə bilməzlər.
**3.2.2.** Fiziki şəxslər – bir klubda nəzarətçi səhmdar, iştirakçı, idarəetmə orqanının üzvü olan şəxslər və ya hər hansı bir vəzifə daşıyan və fəaliyyət göstərən şəxslər ABL-in və ölkə kubokunun iştirakçısı olan digər bir klubda hər hansı bir vəzifə daşıyıcısı ola bilməzlər.
**3.2.3.** Ən geci 10 sentyabr 2025-ci il (saat 17:00) tarixinədək hər bir klub klubun rəhbər şəxsləri barədə onların adı, soyadı, atasının adı olmaqla tutduğu vəzifə barədə ABL rəhbərliyinə yazılı (FORMA P1) məlumat verməlidir.
**3.3.** Çempionatda və kubok yarışlarında iştirak edəcək klublar ABL çempionatının və ölkə kubokunun keçirilməsi haqqında Əsasnamənin tələblərini yerinə yetirməli və onların fəaliyyəti Əsasnaməyə uyğun olmalıdır. Tələbləri yerinə yetirməyən klublara xəbərdarlıq edilir və onlara çatışmazlıqların aradan qaldırılması üçün ABL idarə heyəti tərəfindən müəyyən vaxt verilir. Verilən vaxt ərzində çatışmazlıqlar aradan qaldırılmasa, ABL idarə heyətinin qərarı ilə klub (komanda) çempionatdan kənarlaşdırılır.
**3.4.** 2025 – 2026-ci il mövsümündə ABL çempionatının və ölkə kubokunun Əsasnaməsinin tələblərini yerinə yetirən, lisenziyalaşdırma prosedurlarını düzgün

2025-2026

yerinə yetirmiş və yarışda iştirak etmək üçün lisenziya almış aşağıdakı klublar çempionata və kubok yarışlarına buraxılır:

**1. "Abşeron" BK**
**2. "Gəncə" BK**
**3. "Quba" BK**
**4. "Lənkəran" BK**
**5. "Naxçıvan" BK**
**6. "Neftçi" İK (Bakı)**
**7. "NTD" BK**
**8. "Ordu" İK**
**9. "Sabah" BK (Bakı)**
**10. "Sərhədçi" BK**
**11. "Sumqayıt" BK**
**12. "Şəki" BK**

**3.5. ABL çempionatının və kubok yarışlarının iştirakçıları:**

ABL çempionatında və kubok yarışlarında iştirak edən klublar, klubların üzvləri, oyunçular, məşqçilər, hakimlər, masajçılar, inzibatçılar, mətbuat katibləri və klubun fəaliyyətinə aidiyyəti olan digər şəxslər ABL çempionatı və kubok yarışlarının iştirakçıları hesab olunurlar.

**3.6.** Eləcə də ABL direktoru, ABL idman direktoru, idarə heyətinin əməkdaşları, hakimlər, oyunları idarə edən katiblər, hakim-inspektorlar çempionat iştirakçıları hesab olunurlar.

**4. Rəsmi mövsüm**

**4.1.** Rəsmi mövsüm 01 sentyabr 2025-ci il tarixində başlayır, 10 may 2026-ci il tarixində başa çatır.

**4.2.** ABL çempionatı 2025 – 2026-ci il mövsümündə 26 sentyabr 2025-cı il tarixində start götürür, ən geci 15 may 2026-ci il tarixində başa çata bilər.

**4.3.** Ölkə kuboku yarışlarına ABL iştirakçısı olan bütün klublar buraxılır. Kubok yarışlarının keçirilmə tarixi ABL idarə heyətinin qərarı ilə təyin edilir.

**4.3.1.** ABF kuboku uğrunda oyunlar ABL çempionatı Əsasnaməsi ilə tənzimlənir və ABL Əsasnaməsinin tələbləri ölkə kuboku yarışlarına da şamil olunur.

**5. Lisenziyalaşdırma**

**5.1.** ABL çempionatında iştirak etmək istəyən hər bir klub ABL tərəfindən tələb kimi qoyulan maliyyə mənbəyinə malik olmalıdır. Hansı ki lisenziyalaşdırma prosesində ABL tərəfindən qeyd olunmuşdur.

**5.2.** Lisenziyalaşdırma prosesi ABL çempionatında iştirak edəcək klubun maliyyə imkanlarını araşdırmaq və klubun ABL çempionatında iştirak etmək üçün, maliyyə imkanlarının tələblərə uyğunluğunu müəyyən etmək üçün təyin edilir.

2025-2026

**5.3.** Klubun büdcəsi çempionat ərzində fəaliyyət göstərmək üçün müəyyən olunur. Büdcə qısa müddət üçün (9 ay) tərtib edilir. Büdcədə nəzərdə tutulmuş gəlirlər, çempionatın sonuna qədər olan öhdəliklər qeyd olunur.
**5.4.** Lisenziya almaq üçün klubun təqdim etməli olduğu sənədlər.
**5.4.1.** Klub mövsüm üçün nəzərdə tutulmuş büdcə barədə məlumat verməlidir və mövsüm ərzində büdcədə hər hansı dəyişiklik barədə məlumat verməlidir.
**5.4.2**. Klublar, oyunçular, məşqçilər və klubun digər əməkdaşları ilə yazılı razılaşmaların – müqavilələrin surətini ABL idman direktoruna təqdim etməlidirlər. (əlavə P2, P2.1., P2.2.)
**5.5.** Lisenziya almaq üçün klub tərəfindən ABF-nin bank hesabına 3000 (üç min) AZN məbləğ köçürülməlidir. Məbləğ cərimələrin vaxtında ödənilməsi üçün nəzərdə tutulur. Köçürmə haqqında sənədlər ABL idarə heyətinə (idman direktoruna) təqdim olunur. Bu məbləğ mövsüm ərzində yarana biləcək cərimələrin ödənilməsinə yönələcəkdir. Mövsümün sonunda qalıq məbləğ kluba geri qaytarılır və ya növbəti mövsüm üçün yönəldilir. Əgər depozit mövsümün gedişində bitərsə, o zaman klub 5 gün ərzində əlavə 1000 (bir min) AZN depozit yatırmalıdır.
**5.6.** Klub tələb olunan sənədləri təyin olunan vaxta qədər (01 sentyabr 2025-ci il) ABL idarə heyətinə təqdim etməlidir. Sənədlərin təqdimetmə növləri bu sənədin VII fəslində qeyd olunmuşdur. Sənədlərin təqdim edilməsi gecikdirilərsə, kluba cərimə tətbiq edilir. Cərimə 1000 (bir min) AZN təşkil edir. Sənədlərin təqdim edilməsi 7 gündən çox müddətə gecikdirilərsə, ABL idarə heyətinin klubu qeydiyyata almamaq hüququ var.
**5.7.** Lisenziya komissiyası sənədlər daxil olandan sonra 7 gün ərzində sənədləri araşdırır və sənədlərində çatışmazlıqlar aşkar olunan klublara məlumat verir. Məlumat verildikdən sonra çatışmazlıqları aradan qaldırmaq üçün klublara əlavə 5 iş günü vaxt verilir. Sənədlərin təqdim edilməsi gecikdirilərsə, ABL idarə heyətinin klubu qeydiyyata almamaq hüququ var.
**5.8.** Təqdim edilmiş sənədlər ABL direktoru tərəfindən siyahısı təsdiq edilmiş idarə heyəti üzvlərindən ibarət komissiya tərəfindən yoxlanılır (ən azı 3 nəfər).
**5.9.** Maliyyə sənədlərində dəqiqləşdirmə aparılması üçün klub rəhbəri ABL ofisinə dəvət oluna bilər.
**5.10.** Sənədlər yoxlanıldıqdan sonra komissiya sənədlərin düzgünlüyünü təsdiq edir və ABL idarə heyətinə kluba çempionatda iştirak etmək üçün lisenziya verilməsi üçün müraciət edir.
**5.11.** Çempionat iştirakçısına lisenziyanın verilməsi ABL idarə heyətinin qərarı ilə təsdiq edilir.

## 6. Komandaların qeydiyyatı

**6.1.** Komandaları ABL idman direktoru qeydiyyatdan keçirir. İştirak etmək istəyən hər bir klub ABL tərəfindən tələb kimi qoyulan maliyyə mənbəyinə malik olmalıdır. Hansı ki lisenziyalaşdırma prosesində ABL tərəfindən qeyd olunmuşdur.

2025-2026

**6.2.** ABL klubları ABL idman direktoruna aşağıdakı sənədləri təqdim etməlidirlər.
**6.2.1.** 01 sentyabr 2025-ci il tarixinədək oyunçular və digər əməkdaşlar haqqında ilkin rəsmi sənədlər təqdim olunmalıdır. Ən azı 10 oyunçu (oyunçulardan Azərbaycan Respublikası vətəndaşı olan ən az 5 oyunçu) və 1 baş məşqçinin sənədləri təqdim edilməlidir (əlavə P1, P2, P2.1., P2.2.).
**6.2.2.** 01 sentyabr – 25 sentyabr 2025-ci il tarixinədək ABL idman direktoru tərəfindən qeydiyyata alınmış və lisenziyası olan oyunçuların, məşqçilərin və digər səlahiyyətli şəxslərin yekun iştirak ərizəsi. (əlavə P3, P 3.1.)
**6.2.3.** Əlavə qeydiyyat.
26 sentyabr 2025-ci il tarixindən yerli oyunçular üçün ABL müntəzəm birinciliyinin X tur oyunları daxil olmaqla, əcnəbi oyunçular üçün A qrupunda ABL müntəzəm birinciliyinin XV tur oyunları daxil olmaqla, B qrupunda ABL müntəzəm birinciliyinin XVI tur oyunları daxil olmaqla hər bir əcnəbi oyunçuya görə 500 (beş yüz) AZN ödəməklə əlavə oyunçular sifariş oluna bilər. Azərbaycan Respublikasının vətəndaşı olan oyunçu bütün mərhələlərdə ödəniş olunmadan sifariş oluna bilər.
**6.3.** Sifarişdə klubun adı, ünvanı, ofisi və məşq yeri qeyd olunur. Oyunçuların adı, soyadı, atasının adı, təvəllüdü, yaşı, çəkisi, boyu, oyun nömrəsi, eləcə də sonuncu klubu və klubun ölkəsi barədə məlumatlar daxil edilir. Mobil telefon, elektron poçt ünvanı, eyni anda 18 oyunçunun (çox olmamaqla) məlumatları daxil edilə bilər. Komandalar oyun formalarının rənglərini (ev, səfər) sifarişdə mütləq qeyd edir. Sifariş klub direktoru və məşqçi tərəfindən imzalanır və möhürlə təsdiq edilir.
**6.4.** ABL klubu 01 sentyabr 2025-ci il tarixinədək 2025 – 2026-ci il mövsümündə iştirak hüququ verən lisenziyalar almaq üçün müraciət etməlidir. Müraciətdə klubun adı, loqotipi qeyd olunmalıdır.
**6.5.** Sifarişlə birlikdə klub təqdim etməlidir:
**6.5.1.** qeydiyyatdan keçmiş bütün oyunçuların cari mövsüm üçün aktiv ABL üzvlük kartları (lisenziyalar);
**6.5.2.** yeni oyunçuların azadetmə məktubu (Letter of clearance);
**6.5.3.** xarici oyunçular və ya xaricdə oynamış yerli oyunçuların lisenziyalaşdırılması yalnız ABF tərəfindən razılıq verildikdən sonra həyata keçirilir;
**6.5.4.** qeydiyyata alınmış oyunçuların, məşqçilərin və digər personalın müqavilələrinin (icarə sənədləri) surəti;
a) FIBA və ABF lisenziyası olan və ya FIBA və ABF agent lisenziyası olan şəxs oyunçunun və ya məşqçinin nümayəndəsi kimi razılaşmada tərəf kimi iştirak edə bilər.
b) Məxfilik məqsədilə klub müqavilənin maliyyə şərtlərini gizli saxlaya bilər. Lakin müqavilənin qalan şərtləri barədə açıq məlumat verilməlidir.
c) Müqavilənin surəti ABF baş katibinə, o olmadıqda ABF-nin idman direktoruna təqdim edilməlidir.

2025-2026

d) Əgər oyunçu, məşqçi və digər personal kluba təmənnasız xidmət göstərirsə və müqavilə bağlamayıbsa, o zaman klub ABF baş katibinə təmənnasız xidmət haqqında tərəflərin imzası ilə təsdiqedici sənəd təqdim etməlidir.

**6.5.5.** Yekun iştirak ərizəsi ilə birlikdə təsdiq olunmuş lisenziyalar və ədalətli idman mübarizəsi aparma barədə ABL üzvünün bəyannaməsi təqdim edilməlidir.

**6.5.6.** Klubun bütün əməkdaşlarının siyahısı, onların vəzifələri və şəxsi əlaqə məlumatları ilə birlikdə klubun direktoru tərəfindən təsdiq edilərək ABL-ə təqdim olunur.

**6.5.7.** Oyunçuların, məşqçilərin, həkimlərin, masajçıların və digər rəsmi əməkdaşların klubun simvolik geyimində rəqəmsal fotoşəkilləri 10 sentyabr 2025-ci il tarixinədək ABL-ə təqdim olunmalıdır. Əgər ABL iştirakçı klubların fotosessiyasını özü həyata keçirərsə, bu maddənin tələbləri qüvvədən düşmüş hesab olunur.

**6.5.8.** Komandaya yeni oyunçu, məşqçi və ya hər hansı yeni əməkdaş cəlb olunarsa, bu haqda elektron formada ABL-ə müqavilə imzalandıqdan 24 saat ərzində məlumat verilməlidir.

Məlumat əməkdaşın fəaliyyəti haqqında, onun fotoşəkli və 6.5. saylı maddədə göstərilən bütün sənədlər əksini tapmalıdır.

**6.5.9.** Əgər komandada 4 oyunçu dəyişərsə, klub bütün komanda üçün təkrar fotosessiya keçirməlidir və bütün xərclər klub tərəfindən ödənilməlidir.

**6.6.** Oyunçu və məşqçilərin qeydiyata alınma qaydaları:

**6.6.1**. Bütün çempionat ərzində klub 20 oyunçudan artıq oyunçu sifariş edə bilməz. Yalnız yaşı 21-ə qədər olan Azərbaycan Respublikasının vətəndaşı istisna hal kimi sifariş oluna bilər.

**6.6.2.** Çempionatın əvvəlindən və çempionat başa çatanadək klub 10 oyunçudan az oyunçuya sahib olmamalıdır və 1 məşqçidən az olmayaraq çempionata davam etməlidir. Klub çempionat ərzində baş məşqçisiz 3 oyundan artıq oyuna çıxa bilməz. Məşqçilər ABF-nin sertifikatlarına sahib olmalıdırlar. Baş məşqçilər A kateqoriyası, köməkçi məşqçilər minimum B kateqoriyası.

**6.6.3.** ABL çempionatında iştirak edən oyunçular milli yığma komandanın heyətinə dəvət olunduqları halda dəvəti mütləq qəbul etməli, milli yığma komandanın toplantılarında və oyunlarında mütləq iştirak etməlidirlər. Milli yığma komandanın dəvətindən imtina edən oyunçular ABL çempionatı oyunlarından 3 aydan 6 aya qədər müddətdə kənarlaşdırılacaqlar. Milli komandaya dəvət olunmuş oyunçulara qadağa qoyan ABL klublarına maliyyə sanksiyaları tətbiq olunacaqdır. ABL çempionatında iştirak edən oyunçular 3x3 basketbol yarışlarında iştirak edə bilərlər.

**6.6.4.** ABL çempionatının hər bir oyununa klub ən azı 10 (on) oyunçu sifariş etməlidir.

**6.6.4.1.** Əgər üzrlü səbəblərdən (xəstəlik və ya milli komanda ilə səfərlər) komanda oyuna 10 oyunçu çıxara bilmirsə, o zaman cəza tətbiq olunmur.

**6.6.4.2.** Bu halda komanda ABL direktoruna təsdiqedici sənədləri təqdim edir və oyuna hazır 8 oyunçunu və ən azı 1 məşqçini sifariş edir. Əgər üzrlü səbəblərdən komanda minimum 8 oyunçunuda meydana çıxara bilmirsə, o zaman oyunun vaxtı dəyişdirilir.

**6.6.4.3.** Əgər üzrlü səbəblər olmadan komanda oyuna 10 (on) oyunçu sifariş edə bilmirsə, çatışmayan birinci oyunçuya görə 200 (iki yüz) AZN, ikinci oyunçuya görə 300 (üç yüz) AZN və üçüncü oyunçuya görə 400 (dörd yüz) AZN, dördüncü oyunçuya görə 500 (beş yüz) və beşinci oyunçuya görə 600 (altı yüz) cərimə ödəməlidir. Cərimələrin ödənişi haqqında qəbz ABL idarə heyətinə təqdim edildikdən sonra komanda minimum 5 (beş) oyunçu ilə oyuna çıxa bilər.

**6.6.4.4.** Oyunda xəstəlik səbəbindən iştirak edə bilməyən oyunçu üçün tibbi arayış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində fəaliyyət göstərən Tibbi Bədən Tərbiyəsi Dispanseri tərəfindən təqdim edilməlidir.

**6.6.5.** Azərbaycan Respublikasının vətəndaşları olmayan oyunçuların qeydiyyatı qaydaları:

a) ABF idarə heyətinin qərarına əsasən ABL çempionatında iştirak edən komandalar mövsüm ərzində Azərbaycan Respublikası vətəndaşı olmayan 10 (on) oyunçunu qeydiyyatdan keçirə bilər. Hər hansı üzrlü səbəbdən komandanın əcnəbi oyunçu sayı Əsasnamənin tələbindən (on oyunçu) az olarsa, o zaman əlavə qeydiyyat müddəti başa çatana qədər klub əlavə 2 (iki) əcnəbi oyunçunu sifariş edə bilər. Bunun üçün klub ABF hesabına əlavə birinci (11) əcnəbi oyunçuya görə 5000 AZN (beş min manat), əlavə ikinci (12) əcnəbi oyunçuya görə 10000 AZN (on min manat) ödəməlidir.

b) Azərbaycan Respublikasının vətandaşının pasportunu daşıyan milliləşdirilmiş xarici oyunçular hal hazırda milli yığma komandanın oyunçusu (3x3 basketbol daxil) ABL çempionatında Azərbaycan Respublikasının vətəndaşı statusunu daşıyır.

c) Xarici ölkədə doğulmuş, sonradan milliləşdirilən və Azərbaycan Respublikasının pasportuna 2 (iki) ildən az müddətdə sahib olan, hazırda milli yığma komandanın heyətinə daxil olmayan oyunçular ABL çempionatında yerli oyunçu statusuna malik olması üçün son qərar ABF-nin səlahiyyətindədir.

d) Çempionat oyunlarında A qrupunda hər bir komandanın tərkibində meydançada ən azı 1. (bir) Azərbaycan vətəndaşı olan oyunçu olmalıdır. Komanda oyuna Azərbaycan vətəndaşı olmayan 7 oyunçunu sifariş edə bilər. Oyun vaxtı Azərbaycan vətəndaşı olmayan oyunçuların sayı eyni anda meydançada 4 (dörd) nəfəri keçməməlidir.

e) Çempionat oyunlarında B qrupunda I – XV tur oyunlarında hər bir komandanın tərkibində meydançada ən azı 2. (iki) Azərbaycan vətəndaşı olan oyunçu olmalıdır. Komanda oyuna Azərbaycan vətəndaşı olmayan 6 oyunçunu sifariş edə bilər. Oyun vaxtı Azərbaycan vətəndaşı olmayan oyunçuların sayı eyni anda meydançada 3 (üç)

2025-2026

nəfəri keçməməlidir. XVI tur daxil və növbəti oyunlarda hər bir komandanın tərkibində meydançada ən azı 1. (bir) Azərbaycan vətəndaşı olan oyunçu olmalıdır. Komanda oyuna Azərbaycan vətəndaşı olmayan 7 oyunçunu sifariş edə bilər. Oyun vaxtı Azərbaycan vətəndaşı olmayan oyunçuların sayı eyni anda meydançada 4 (dörd) nəfəri keçməməlidir.
h) Ölkə kuboku oyunlarında hər bir komandanın tərkibində meydançada ən azı 2. (iki) Azərbaycan vətəndaşı olan oyunçu olmalıdır. Komanda oyuna Azərbaycan vətəndaşı olmayan 7 oyunçunu sifariş edə bilər. Oyun vaxtı Azərbaycan vətəndaşı olmayan oyunçuların sayı eyni anda meydançada 3 (üç) nəfəri keçməməlidir.
**6.6.6.** Çempionat ərzində klub eyni anda digər klublardan icarə əsasında cəlb olunmuş oyunçuları sifariş ərizəsinə daxil edə bilər. Lakin ABL klubu digər ABL klubundan icarəyə götürdüyü oyunçuların sayı 3 (üç) nəfəri keçməməlidir. Yəni ABL klubu mövsüm ərzində istənilən sayda oyunçunu icarəyə götürə bilər. Lakin bir klubdan icarəyə götürülən oyunçuların sayı 3 (üç) oyunçudan artıq olmamalıdır.
a) ABL çempionatının 2004-ci il və aşağı yaş təvəllüdlü Azərbaycan vətəndaşı olan oyunçuları mənsub olduğu klubun razılığı əsasında eyni anda ABL iştirakçısı olan lakin fərqli qruplarda mübarizə aparan komandaların oyunçuları iki klubun iştirak ərizəsinə daxil edilə bilər (A qrupu iştirakçı komandanın oyunçusu B qrupu komandasının tərkibində B qrupu oyunlarında iştirak edə bilər).
b) İkili lisenziya alan oyunçu ikili lisenziya ilə ABF-nin razılığı ilə ikili lisenziya əsasında başqa ABL B qrupu komandasında iştirak edə bilər. Oyunçu ABL müntəzəm sezonunda bu haqqdan bir dəfə yararlana bilər.
**6.6.7**. 2004-ci il və aşağı yaş təvəllüdlü Azərbaycan vətəndaşı olan oyunçular və eləcə də tələbə olan xarici vətəndaşlar 2 liqada ayrı-ayrılıqda lisenziya əldə edə bilərlər.
**6.6.8.** Klublar onunla müqaviləsi olan oyunçuları mövsüm ərzində yalnız 1 dəfə icarəyə verə bilər. İcarə müddəti bitən oyunçu müqaviləsi bitməyibsə, öz klubuna qayıtmalıdır. Bu halda klub onu cari mövsümdə başqa kluba icarəyə verə bilməz. İcarəyə verilən oyunçu icarə müddəti bitməyibsə, klubların qarşılıqlı razılığı əsasında müntəzəm birinciliyin gedişi zamanı istənilən vaxt öz klubuna geri dönə bilər.
**6.6.9.** Aşağı dəstənin hər hansı bir klubu müqaviləli oyunçusunu ABL-in hər hansı bir klubuna icarəyə verə bilər (mövsüm ərzində yalnız 1 dəfə). İcarəyə verilən oyunçu icarədə olduğu klubdan hər hansı bir başqa ABL klubuna yenidən icarəyə verilə bilməz.
**6.6.10.** Əgər ABL klubunun oyunçusu xarici ölkəyə təhsil almaq üçün və ya həmin ölkədə təhsil müəssisəsinin tərkibində yarışa gedərsə və bu keçid FIBA keçid qaydaları ilə tənzimlənirsə, geri qayıdarkən onun əvvəlki müqaviləsi qüvvədə qalmış hesab edilir və xaricdə olduğu müddət nəzərə alınmır.
**6.6.11**. Xarici təhsil müəssisəsini bitirmiş FIBA sistemində oynamayan oyunçu ABL klubunda peşəkar karyera qurmaq istərsə, bu halda o, Azərbaycan Basketbol

2025-2026

Federasiyasına gəldiyi ölkənin milli Federasiyasından FIBA sisteminə daxil olan klublarda oynamaması haqqında təsdiqedici məktub təqdim etməlidir (Letter of clearance). Oyunçunun gəldiyi ölkənin milli federasiyasından azadedici məktub təqdim olunduqdan sonra ABF baş katibi onu qeydiyyata alır və lisenziya verilir.

**6.7.** Məşqçilərin qeydiyyatı qaydaları:

**6.7.1.** Klub mövsüm ərzində istənilən vaxt baş məşqçi, məşqçi köməkçisi və digər rəsmi şəxsləri qeydiyyatdan keçirə bilər. Oyun üçün komandanın oyunçu tərkibi mövsümün son turuna qədər dəyişdirilə bilər.

**6.7.2.** ABL klubu məşqçiləri və komandanın digər rəsmi şəxslərini (xarici vətəndaşları) ABL Əsasnaməsinə, FIBA qaydalarına və bu qaydaların 6.8.3., 6.8.4. maddələrinə uyğun olaraq qeydiyyatdan keçirə bilər.

**6.7.3.** ABL qərarına əsasən basketbol klubunun məşqçilər korpusunda və komandanın ehtiyat oyunçular skamyasında komandanı müşayiət edən digər rəsmi şəxslər FIBA qaydalarına zidd olmayan, bu çempionatın qaydalarına uyğun olaraq Azərbaycan Respublikası vətəndaşı olmayan mütəxəssislər üçün bu Əsasnamənin 6.7.3.a və 6.7.3.b maddələrinə əsasən müəyyən edilmiş məbləği ABF-nin hesabına köçürdükdən sonra mütəxəssislər müvafiq liqa tərəfindən qeydiyyata alınır.

a) Klub Azərbaycan Respublikası vətəndaşı olmayan birinci əcnəbi mütəxəssis (məşqçilər korpusunda tutduğu vəzifədən asılı olmayaraq) üçün ABF hesabına 250 (iki yüz əlli) AZN məbləği köçürdükdən sonra lisenziya əldə edə bilər.

b) Sifariş olunan ikinci və hər növbəti əcnəbi mütəxəssis (məşqçilər korpusunda tutduğu vəzifədən asılı olmayaraq) üçün ABF hesabına 500 (beş yüz) AZN məbləği köçürdükdən sonra lisenziya əldə edə bilər.

**6.7.4.** ABL idman direktoru tərəfindən məşqçinin qeydiyyata alınma qaydaları:

a) Məşqçi rəsmən klubun iştirak ərizəsinə daxil edilib.

b) Məşqçinin ABF məşqçilər şurasının sertifikatını alması barədə ABF məşqçilər şurasının arayışı təqdim olunur.

c) Xarici vətəndaşdırsa, FIBA qaydalarına uyğun 6.8.3. bəndində göstərilən tələblər yerinə yetirildikdə qeydiyyata alınır, lisenziya verilir.

d) Pley-off mərhələsində klub yeni məşqçini qeydiyatdan keçirmək üçün əlavə 5000 (beş min) AZN ödəniş etməlidir.

**6.7.5.** ABL iştirakçısı klub baş məşqçinin istefası zamanı iş birliyinin başa çatması haqqında qarşılıqlı razılıq sənədinin sürətini ABL İdarə heyətinə mütləq təqdim etməlidir. Qarşılıqlı razılıq sənədini təqdim etdikdən sonra yeni baş məşqçinin sənədlərini təqdim edə bilər. Əks halda yeni baş məşqçinin sənədləri qəbul edilməyəcək.

**6.8.** Əlavə oyunçu və məşqçinin qeydə alınma qaydaları:

**6.8.1.** Əlavə oyunçu və məşqçilərin sifariş edilməsi zamanı 6-cı maddənin tələbləri rəhbər götürülür. O cümlədən bu maddənin tələbləri və məhdudiyyətləri tətbiq olunur.

**6.8.2.** Yalnız çempionatda mübarizəni davam etdirən klublar əlavə oyunçu sifariş edə bilər. Oyunları bitmiş komandalar əlavə oyunçu sifariş edə bilməz.
**6.8.3.** Əlavə oyunçu və məşqçiləri sifariş etmək istəyən klublar yeni oyunçu və ya məşqçi ilə müqavilə imzalandıqdan sonra 48 saat ərzində ABL idman direktoruna müqavilənin surəti və klubun yeni üzvünün fotoşəklini və 6.5. maddəsinin tələblərinə uyğun sənədləri elektron formada göndərməlidir. Göstərilən vaxtda məlumat ötürülmədikdə kluba inzibati sanksiyalar tətbiq olunur.
**6.8.4.** Pley-off mərhələsində klublar yeni oyunçu sifariş edə bilməzlər.

**7. Təsdiq edilmiş lisenziyalar, oyunçuların və komanda üzvlərinin təsdiq edilmiş siyahıları**

**7.1.** Lisenziyalar 2 hissəyə bölünür:
1) məşqçi və oyunçu lisenziyası
2) digər nümayəndələrin lisenziyası.
Məşqçi və oyunçu lisenziyası onlara ABL çempionatında iştirak etmək hüququ verir.
**7.2.** Digər nümayəndələrin lisenziyası onlara ehtiyat oyunçular skamyasında olmaq imkanı verir. Onlar oyun zamanı müxtəlif funksiyaları icra edirlər.
**7.3.** Lisenziyalar yalnız 1 mövsümdə etibarlıdır.
**7.4.** Lisenziyalar ABL idman direktoru tərəfindən verilir. Bütün lisenziyalar nömrələnərək qeydiyyata alınır.
**7.5.** Klub ABF və ABL qarşısında maliyyə öhdəliklərini yerinə yetirmədiyi halda, klubun məşqçi və oyunçularına lisenziyalar verilmir.
**7.6.** Oyunçuya lisenziya o halda verilir:
Oyunçu komandanın iştirak ərizəsinə daxil edilib. Oyunçunun klubdan və ya idman məktəbindən icazə məktubu var (müvəqqəti) hansındakı əvvəl oynayıb. Hazırkı klubla müqaviləsi və ya razılaşması var. Klubun razılığı, klubda bu mövsüm üçün üzvlük kartı.
**7.7.** Gənc oyunçuya ilk dəfə lisenziyanın verilməsi üçün klub gənc oyunçuya görə onu hazırlayan kluba və ya idman məktəbinə təzminatın ödənilməsi barədə yazılı sənəd təqdim etməlidir. Sənəd Azərbaycan Basketbol Federasiyasında qeydiyyata alınmalıdır.
**7.8.** Məşqçiyə lisenziya 6.8.4. maddəsinin tələbləri tam yerinə yetirildikdə verilir.
**7.9.** Əlavə oyunçunun sifariş edilməsi və qeydiyyata alınması üçün müəyyən edilmiş vəsait ödənildikdən sonra oyunçuya lisenziya verilir. Vəsait mövsümün əvvəlində klub tərəfindən cərimələr üçün yerləşdirilmiş depozitdən götürülür. Vəsait ABF hesabına köçürüldükdən sonra (təsdiqedici sənədlərlə) lisenziya verilir.
**7.10.** Əlavə sifariş olunan oyunçuların sənədləri klubdan bu Əsasnamənin 6-cı maddəsinin tələblərinə uyğun qəbul edilir. Yaşı 21-ə qədər olan Azərbaycan Respublikası vətəndaşı oyunçular bütün mərhələlərdə sifariş oluna bilərlər.

2025-2026

**7.11.** Komandanı müşayiət edən digər şəxslərə lisenziyalar mövsüm boyu məhdudiyyətsiz verilir. Klub tərəfindən şəxsin adı, soyadı, atasının adı və klubda vəzifəsi göstərilməklə sifariş edilir.
**7.12.** Lisenziyaların verilməsi gecikərsə, qeydiyyatdan keçirilmiş oyunçu, məşqçi və digər rəsmi şəxs üçün kluba qeydiyyatdan keçmiş klub üzvlərinin siyahısı ABL idman direktoru tərəfindən təsdiq edilərək müvəqqəti əvəzləyici sənəd kimi təqdim edilir.
**7.13.** Lisenziya və ya komandanın təsdiq olunmuş adlı siyahısı (oyunçular, məşqçilər və digər əməkdaşlar) əgər bütün sənədlər qaydasındadırsa, cərimələr və üzvlük haqqları ödənilibsə, oyun günü oyunun başlamasına 3 (üç) saat qalmışdan gec olmayaraq kluba verilir.
**7.14.** Hər bir çempionat oyunundan əvvəl oyunun başlanmasına 2 saat qalmış klub nümayəndəsi oyunun katibinə oyun üçün komandanın oyunçularının, məşqçilərinin və rəsmi şəxslərinin, ABL idman direktoru tərəfindən təsdiq edilmiş adlı siyahısını və lisenziyaları təqdim etməlidir. Klub nümayəndəsi həmçinin oyunun katibinə komandanın liderini təqdim etməlidir.
**7.15.** Oyunun başlamasına ən azı 40 dəqiqə qalmış klub nümayəndəsi oyunda iştirak edəcək oyunçular, məşqçilər və komandanın liderini qeyd etməklə heyətinin yazılı siyahısını oyunun katibinə təqdim etməlidir. ABL öz səlahiyyətləri çərçivəsində lisenziyanın verilməsi, geri çağırılması (ləğv edilməsi) və oyunçunun klubdan kluba keçidi üzrə mübahisəli halları həll edə bilmirsə, o zaman mübahisələr ABF-nin Nizam-intizam Komissiyasına həvalə olunur.

## 8. Azadetmə (buraxılış) məktubu (Letter of clearance – LoC)

**8.1.** Azadetmə (buraxılış) məktubu oyunçunun bir klubdan digər kluba keçidini tənzimləyən sənəddir.
**8.2.** Razılıq (müvəqqəti razılıq) münasibətləri tənzimləyən sənəddir.
a) Razılıq (müvəqqəti razılıq) münasibətlərini tənzimləyən sənəd idman təşkilatları arasında, tərkibində olduğu klub ilə oyunçunun müqaviləsi, yarışlarda iştirak etməsi üçün bağlanmış saziş (müqavilə);
b) Basketbolçu və idman məktəbi (klub) ilə basketbol klubu arasında bağlanmış razılaşma (müqavilə);
**8.3.** Yerli və beynəlxalq oyunçularla bağlanmış razılaşma (müqavilə) klubdan kluba keçidlər zamanı razılıq və azadetmə (müvəqqəti icazə) məktublarının verilməsi zamanı keçidləri və kompensasiyaları FIBA və ABF tələbləri çərçivəsində yerinə yetirilir.
Nümunə:
Azadetmə (buraxılış) məktubu (Letter of clearance – LoC)
X təşkilatına
A təşkilatından
Tarix: _____________ _____ il

2025-2026

01 yanvar 2000 təvəllüdlü adı, ata adı, soyadı A təşkilatı bildirir ki, bu oyunçu A təşkilatının / klubunun adı altında oynamışdır. Hal-hazırda təsdiq edirik ki, oyunçu və klub arasında müqavilə (razılaşma) qüvvədən düşmüşdür.
Hörmətlə,
Təşkilatın rəhbəri İmza
Adı, soyadı Möhür
Razılaşma (müvəqqəti icazə) məktubu
A təşkilatına
B təşkilatından
Tarix: __________ ______ il
Bu razılaşmaya əsasən B təşkilatının oyunçusunun adı, ata adı, soyadı __________ __________________təşkilatında oynamasına müvvəqqəti razılıq veririk. A təşkilatı oyunçunun adı, ata adı, soyadı ________________________________ tarixindən _______________tarixinədək – çempionatın sonunadək A təşkilatının tərkibində müvəqqəti oynamasına razıdır.

A təşkilatı rəhbəri B təşkilatı rəhbəri

İmza: ______________ İmza: _______________

Möhür Möhür

**9. Ədalətli oyun prinsiplərinin qorunması**

**9.1.** Ədalətli oyunun ümumi prinsipləri

**9.1.1.** ABL çempionatının iştirakçılarına hər hansı bir fəaliyyətdə oyunun nəticəsinə təsir edəcək hallarda iştirak etmək: pul tələb etmək, hədiyyə qəbul etmək, mükafat almaq, mərc oyunlarında iştirak etmək, rüşvət vermək-almaq qadağandır. ABL iştirakçılarına ədalətli idman prinsiplərinə zidd olan bütün hərəkətlər qadağan olunur.

**9.1.2.** ABL iştirakçılarına öz adından və ya başqa birisinin adından mənfəət əldə etmək üçün digər ABL iştirakçısına təkliflər etmək, ABL etik normalarını pozacaq hər hansı fəaliyyət, ABF rəhbərliyinin təsdiq etdiyi tələblərə, sənədlərə zidd hərəkətlər FIBA-nın FIBA Avropanın və ABF-nin Nizamnaməsinə zidd hərəkətlər qadağan olunur.

**9.1.3.** ABL iştirakçılarına ABL oyunlarında, beynəlxalq oyunlarda (əgər iştirakçılardan biri ABL təmsilçisidirsə) üçüncü şəxslərlə mərc məqsədilə oyunları müzakirə etmək qadağandır.

**9.1.4.** ABL iştirakçılarına ölkə ərazisində və ABF bayrağı altında keçirilən bütün rəsmi, qeyri-rəsmi, yoldaşlıq oyunları üzrə və eləcə də beynəlxalq yarışlarda (əgər ABF-nin komandası iştirak edirsə) mərc oyunlarında iştirak etmək qadağandır.

**9.1.5.** ABL iştirakçılarına bu maddədə göstərilən bütün bəndlər üzrə fəaliyyət və iştirak qadağandır.

**9.1.6.** ABL iştirakçıları (klub rəhbərləri, nümayəndələr, inzibati işçilər, xidməti personal, basketbolçular, hakimlər, masa rəsmiləri, komissarlar və b. ABL üzvlərindən hər kiminsə qanunsuz fəaliyyəti, ədalətli oyun prinsiplərinə zidd hərəkətlərini aşkar edərsə və yaxud bu barədə məlumatı olarsa, dərhal bu barədə ABL direktoruna məlumat verməlidir və yalnız ABL direktorunun razılığı ilə məlumatı ictimailəşdirməlidir.

**9.1.7.** ABL direktoru əgər dövlət orqanlarından hər hansı ədalətli oyun prinsiplərinin pozulması barədə rəsmi məlumat daxil olarsa, oyunun keçirilməsini ləvğ etmək hüququna malikdir.

**9.2.** ABL çempionatı oyunları zamanı ədalətli oyun prinsiplərinə riayət edilməsi

**9.2.1.** ABL iştirakçıları tərəfindən digər oyun iştirakçılarına qarşı (rəqib oyunçular, məşqçilər, xidməti personal, həkimlər, hakimlər, masa hakimləri, tamaşaçılar və b.) aqressiv hərəkətlər, təhqir, söyüş söymək, zor tətbiq etmək yolverilməzdir.

**9.2.2.** ABL iştirakçılarına aqressiv hərəkətlər, xuliqanlıq, təhqiredici əl hərəkətləri, hədə-qorxu gəlmə, nifrət və zorakılığı təbliğ etmək (psixoloji və fiziki zor işlətmək), senzuradan kənar hərəkətlərdən istifadəsi yolverilməzdir.

**9.3.** ABL iştirakçıları ABF-nin "Təhlükəsiz idman" haqqında qəbul edilmiş normativ sənədinin tələblərinə qeyd şərtsiz əməl etməlidirlər.

**10. ABL çempionatının keçirilmə sistemi (çempionat 3 (üç) mərhələdə keçirilir)**

**10.1.** I mərhələ (müntəzəm birincilikdə bütün komandalar iştirak edir). ABL 2024-2025 mövsüm sonu sıralama sisteminə əsasən (1-6 yerləri tutmuş komandalar "A" qrupunda, 7-12 yerləri tutmuş komandalar "B" qrupunda) birincilikdə komandalar iki yarımqrupa bölünür:

**A qrupu**
"Sabah" BK
"Neftçi" İK
"Şəki" BK
"Abşeron" BK
"NTD" BK
"Gəncə" BK

**B qrupu**
"Ordu" İK
"Naxçıvan" BK
"Sumqayıt" BK
"Sərhədçi" BK
"Quba" BK
"Lənkəran" BK

2025-2026

*Qeyd: Komandaların qruplardakı yerləşməsi ABL-nin 2024–2025 mövsümünün sonunda tətbiq olunan sıralama sisteminə əsaslanır.*

Birincilik 4 (dörd) dövrədə cəmi 20 turda keçirilir.

**10.2.** II mərhələ (keçid mərhələsi)

**10.2.1.** Müntəzəm birinciliyin nəticələrinə görə A qrupundan ilk 3 yeri tutmuş, B qrupunda isə qrup qalibi birbaşa pley-off mərhələsinə vəsiqə qazanırlar.

**10.2.2.** Müntəzəm birincilikdə A qrupunda 4-6 yerləri tutmuş komandalar və B qrupunda 2-6 yerləri tutmuş komandalar keçid mərhələsində qarşılaşırlar.

B2 – B3, B4 – A6, A5 – B5 və A4 – B6 cütlərdə qarşılaşırlar. Cütlərin qalibləri pley-off ¼ final mərhələsində oynamağa vəsiqə qazanırlar. Seriya iki qələbəyə qədər davam edir.

**10.3.** III mərhələ (pley-off mərhələsi)

**10.3.1.** Pley-off mərhələsi – 1/4 finala keçid mərhələsində B2 – B3 cütünün qalibi müntəzəm birincilikdə A qrupunun qalibi ilə, B4 – A6 cütünün qalibi isə müntəzəm birincilikdə A qrupunun ikincisi ilə, A5 – B5 cütünün qalibi müntəzəm birincilikdə A qrupunda üçüncü yeri tutmuş komanda ilə, A4 – B6 cütünün qalibi müntəzəm birincilikdə B qrupunun qalibi ilə qarşılaşacaqlar. Seriya iki qələbəyə qədər davam edəcək. Seriyada qalib gəlmiş komandalar yarımfinalda qarşılaşacaqlar.

**10.3.2.** Pley-off (1/2 final mərhələsi)

A1 - (B2 – B3) cütünün qalibi ilə B1 - (A4 – B6) cütünün qalibi qarşılaşacaq;

A2 - (B4 – A6) cütünün qalibi ilə A3 - (A5 – B5) cütünün qalibi qarşılaşacaq;

Yarımfinal seriyası iki qələbəyədək davam edəcək. Yarımfinal seriyasında qalib gəlmiş komandalar finala yüksəlir, məğlub komandalar isə mübarizəni dayandırır.

## PLAY - OFF MƏRHƏLƏSİ



**10.3.3.** Final seriyasında qalibi müəyyən etmək üçün seriya 3 qələbəyədək davam edəcək.
**10.4.** Mövsümün yekununda Liqada yerlərin bölüşdürülməsi.
**10.4.1.** Mövsüm sonu Azərbaycan Basketbol Liqasında sıralanma sistemi:
(1) Pley-off mərhələsinin qalibi
(2) Pley-off finalçısı
(3) Yarımfinal da oynayan komandalardan pley-off mərhələsinin qalibinə məğlub olan komanda
(4) Yarımfinal da oynayan komandalardan pley-off finalçısına məğlub olan komanda
(5) Ölkə kubokunun qalibi
(6) III mərhələdə (pley-off mərhələsində) məğlub olan komandalardan pley-off mərhələsinin qalibinə məğlub olan komanda
(7) III mərhələdə (pley-off mərhələsi) məğlub olan komandalardan pley-off finalçısına məğlub olan komanda
(8) III mərhələdə (pley-off mərhələsi) məğlub olan komandalardan birinciliyi üçüncü bitirmiş komandaya məğlub olan komanda
(9) III mərhələdə (pley-off mərhələsi) məğlub olan komandalardan birinciliyi dördüncü bitirmiş komandaya məğlub olan komanda
(10) II mərhələdə (keçid mərhələsində) məğlub olan komandalardan müntəzəm birinciliyi ən çox xalla bitirmiş komanda
(11) II mərhələdə (keçid mərhələsində) məğlub olan komandalardan müntəzəm birinciliyi ikinci ən çox xalla bitirmiş komanda
(12) II mərhələdə (keçid mərhələsində) məğlub olan komandalardan müntəzəm birinciliyi üçüncü ən çox xalla bitirmiş komanda
(13) II mərhələdə (keçid mərhələsində) məğlub olan komandalardan müntəzəm birinciliyi dördüncü ən çox xalla bitirmiş komanda
**10.4.2.** Liqa sıralaması bu meyarlar üzərindən ABF idman direktoru tərəfindən təsdiq edildikdən sonra növbəti mövsümdə sıralamada ilk (1) – (8) yeri tutmuş komandalar I liqada (ABL), (9) – (12) yeri tutmuş komandalar II liqada (ABL2L) yer alacaqlar.

**11. Turnir cədvəlində yerlərin müəyyən edilməsi**
**11.1.** Turnir cədvəlində yerlər qazanılan xallar əsasında müəyyən edilir. Qələbəyə görə 2 (iki) xal, məğlubiyyətə görə 1 (bir) xal və oyunda iştirak etməməyə (iştirak hüququnu itirməyə) görə 0 (sıfır) xal.

2025-2026

**11.1.2.** FIBA rəsmi qaydalarına əsasən ən çox xal toplamış komandalar turnir cədvəlinin üst pillələrində qərarlaşırlar.
**11.1.3.** Bir neçə komandanın xalları bərabər olarsa, o zaman yerləri müəyyən etmək üçün xalları eyni olan komandaların aralarında keçirilən oyunlardakı nəticələrə əsasən yerlər müəyyənləşdirilir.
**11.1.4.** Bir neçə komandanın xalları eyni olarsa, o zaman yerlər xalları bərabər olan komandaların öz aralarında keçirilmiş oyunların nəticələrinə uyğun müəyyənləşdirilir. Əgər öz aralarındakı oyunların nəticələrinə görə də bərabərlik olarsa, o zaman komandaların liqada keçirdiyi bütün oyunların nəticələrinə görə yerlər müəyyənləşdirilir.
**11.1.5**. Əgər komandalardan hər hansı birinə (0-20) hesabı ilə texniki məğlubiyyət hesablanmışsa, o zaman o komanda xalları eyni olan komandalar sırasında sonuncu yerdə müəyyənləşir.

## 12. Mükafatlandırma

**12.1.** Final seriyasında qalib gələn komanda ABL cari mövsümünün çempionu elan olunur. Qalib komanda final seriyasının sonuncu oyunu başa çatan kimi ABL kuboku ilə təltif olunur.
**12.2.** ABL çempionu liqanın kuboku ilə təltif olunur. Çempion komandanın üzvləri medal və hədiyyələrlə təltif olunurlar.
**12.3.** ABL çempionatında II yeri tutmuş komanda müvafiq dərəcəli medallarla təltif olunur.

## 13. ABL çempionatında iştirak edən klubların idman, kommersiya prinsipləri

**13.1.** ABL çempionatında iştirak edən və ya iştirak etmək istəyən klublar idman, kommersiya və ya inkişafetmə prinsiplərinə, çempionatın reqlamentinə uyğun olaraq inzibati kadr hüquqi və maliyyə tələblərinə riayət etməlidir. ABL çempionatında iştirak etmək istəyən klublar sabit maliyyə mənbəyinə sahib olmalıdır.
**13.1.1.** Çempionatda iştirak edən komandalar inkişafetmə prinsiplərinə uyğun olaraq aşağı yaş qruplarında ABF-nin təşkil etdiyi Azərbaycan Basketbol Liqasında U11 və U13 kateqoriyalarında mütləq olaraq komanda ilə təmsil olunmalıdır.
**13.1.2.** Bu məqsədlə ABL iştirakçı klublarının hər biri U11 və U13 liqalarında iştirak etmək üçün öz büdcələrindən müvafiq olaraq A qrupu klubları 30 000 AZN, B qrupu klubları 20 000 AZN vəsait ayırmalıdırlar.

## 14. Çempionat oyunlarının təqvimi. Oyunların başlama tarixi və saatı

**14.1.** ABL çempionatının mövsüm üçün təqvimi ABL idman direktoru tərəfindən hazırlanır və təsdiq olunması üçün ABL idarə heyətinin iclasına təqdim olunur.

2025 - 2026

**14.2.** Müntəzəm çempionat oyunları həftənin bütün günlərində oynanıla bilər. Oyunların keçirilməsi üçün üstünlük əksər hallarda cümə axşamı, cümə, şənbə və bazar günlərinə verilir.
**14.3.** Üzrlü səbəblərə görə çempionat oyunlarının tarixi, yeri və vaxtı dəyişdirilə bilər.
**14.4.** ABL çempionatı oyunlarının vaxtı ABL-in direktoru tərəfindən müəyyən edilir və təsdiqlənir.
**14.4.1.** ABL müntəzəm çempionat oyunlarının başlama vaxtları iş günlərində 17:00 – 21:00, qeyri-iş günlərində isə 12:00 – 22:00 saatlarına təyin oluna bilər.
**14.4.2.** Oyunların dəqiq tarixi və vaxtı ABL direktoru tərəfindən ABL idarə heyətinə təqdim olunur və təsdiq olunduqdan sonra ictimaiyyətə elan edilir.
**14.4.3.** ABL iştirakçısı: beynəlxalq yarışlarda iştirak edən komandanın beynəlxalq oyunu səfər oyunudursa, ABL çempionatında oyunlarının vaxtları ev oyunlarında 48 saat, səfər oyunlarında 72 saat intervalla təyin oluna bilər. Yəni klubun beynəlxalq oyunundan 48 saat sonra ev oyunu, səfər oyununa çıxarsa 72 saat sonra səfər oyunu təyin oluna bilər. Beynəlxalq yarışlarda iştirak edən komandanın beynəlxalq oyunu ev oyunudursa, ABL çempionatında ev və səfər oyunları 48 saat sonra təyin oluna bilər.
**14.5.** Çempionat oyunlarının təqvimi təsdiq olunmazdan əvvəl ABL çempionatının iştirakçı klublarının nümayəndələri ilə razılaşdırılmalıdır.
**14.6.** Oyunların tarixi, başlama vaxtı və ya keçirilmə yeri dəyişdirilə bilər.
**14.6.1.** Oyun televiziya vasitəsilə yayımlanarsa, bu halda bütün iştirakçılar məlumatlandırılır.
**14.6.2.** Çempionatın təşkilatçısı çempionat iştirakçılarını öncədən məlumatlandırmaqla oyunun keçirilmə yerini, tarixini və vaxtını dəyişdirə bilər.
**14.6.3.** Hava şəraiti ilə və ya hər hansı bir gözlənilməz halın baş verməsi nəticəsində komanda təyin olunan vaxtda oyuna çıxa bilmirsə, o zaman klub təcili surətdə ABL idman direktoruna bu barədə məlumat verməlidir. ABL idarə heyətinin qərarı ilə oyun təyin olunduğu gündən növbəti günə keçirilə bilər, o halda ki digər komandaların mənafeyinə zərər vurulmadan və rəqib komandanın razılığı alınmaqla oyunun vaxtı dəyişdirilə bilər.
**14.6.4.** ABL idman direktoru klubların beynəlxalq oyunlarda iştirakını və yarış keçiriləcək idman qurğularının məşğul olmasını əsas gətirərək oyunun vaxtını dəyişə bilər.
**14.6.5.** Klubun təşəbbüsü ilə aşağıda göstərilən səbəblərə görə oyunun keçirilmə tarixi və vaxtı dəyişdirilə bilər.
a) Xəstəlik səbəbindən klub oyuna 8 (səkkiz) oyunçunu sifariş edə bilmir.
**14.6.6.** maddəsinə əsasən cərimə tətbiq olunmur:
a) təşkilatçılar tərəfindən oyunun tarixi və vaxtı dəyişdirildiyinə görə;
b) oyun keçirilən yerin digər tədbirlər ilə əlaqəli bağlı olduğuna görə;
c) beynəlxalq klub yarışlarına görə.



2025 - 2026

**14.6.7.** Klub oyunun tarixinin və vaxtının dəyişdirilməsi təşəbbüsü ilə ABL idman direktoruna yazılı müraciət edir. Öncədən rəqib komanda ilə razılaşaraq və ABL hesabına məbləğ ödəməklə:

a) Əgər klub oyun tarixinin və vaxtının dəyişdirilməsi üçün oyuna 30 (otuz) gün öncədən müraciət edərsə, ödəniş tələb olunmur.

b) Əgər klub oyun tarixinin və vaxtının dəyişdirilməsi üçün oyuna 30 (otuz) gündən az, lakin 7 (yeddi) gündən çox müddət qalmış müraciət edərsə, klub ABL hesabına 500 (beş yüz) AZN ödəniş etməlidir.

c) Əgər klub oyun tarixinin və vaxtının dəyişdirilməsi üçün oyuna 7 (yeddi) gündən az müddət qalmış müraciət edərsə, o zaman klub ABL hesabına 1000 (bir min) AZN ödəniş etməlidir.

d) Klub tarixi dəyişdirilən oyuna oyun vaxtının dəyişdirilməsi üçün müraciət etdiyi tarixə mövcud olan heyəti ilə çıxmalıdır. Müraciətdən sonra komandaya cəlb olunmuş yeni oyunçular təxirə salınmış oyunda iştirak edə bilməzlər.

**14.7**. ABL təşkilatçısı oyun vaxtının dəyişdirilməsinə icazə verməyə bilər. O halda ki dəyişiklik digər çempionat iştirakçılarının mənafeyinə ziddir.

**14.8.** ABL direktoru əgər Azərbaycan Respublikasının səlahiyyətli orqanlarında (polisdə, mərc oyunlarına dövlət nəzarəti komissiyasında və mərc oyunlarının monitorinqini aparan təşkilatlarda) oyunun yekun nəticəsi barədə şübhəli məlumatlar olduğu halda oyunun keçirilmə vaxtını ləğv edə və ya dəyişə bilər.

**14.9.** Bu sənəddə əksini tapmayan səbəblərə görə ABL direktoru idarə heyətinin üzvlərini məlumatlandırmaqla oyunun keçirilmə tarixini və vaxtını dəyişə bilər.

## IV FƏSİL. OYUN

### 15. Oyun qaydaları

**15.1.** ABL çempionatı və ölkədə keçirilən digər yarışlar FIBA-nın mövcud oyun qaydaları əsasında keçirilir.

**15.2.** ABL çempionat oyunu heç-heçə başa çata bilməz. Əgər oyunun əsas vaxtında hesab bərabərdirsə, qalibi müəyyən etmək üçün əlavə hissə(lər) oynanılır. Azərbaycan kuboku oyunları əgər ev-səfər prinsipi ilə keçirilərsə, kubok oyunlarında heç-heçə qeydə alına bilər.

### 16. Rəsmi top

**16.1.** ABL bütün oyunlarında ABL-in rəsmi topundan istifadə olunur.

**16.2.** ABL rəsmi topu – “Molten-4500”

**16.3.** Meydan sahibi komanda oyundan əvvəlki isinmə hərəkətləri zamanı meydançanı 12 ədəd basketbol topu ilə təmin etməlidir.

### 17. Oyunçuların geyimi

**17.1.** Oyun vaxtı oyunçular vahid idman geyimində olmalıdırlar.

2025-2026

**17.2.** Oyun forması aşağıdakılardan ibarətdir:
**17.2.1.** Üst geyim (mayka) həm arxadan, həm öndən bir rəngdə olmalıdır. Aşağı hissə (tuman), idman geyiminin aşağı hissəsi də üst hissə ilə eyni rəngdə olmalıdır. Üst hissədə oyunçular formanın altından köynək geyinərsə, köynəyin qolları dirsəkdən uzun olmamalıdır, həmçinin köynək oyunçunun bədəninə sıx oturmalıdır. Formanın altından dirsəkdən uzun qollu olan köynəklərin geyilməsi qadağandır. Komanda üzvlərinin formanın altından geyilən geyimləri eyni rəngdə olmalıdır və rəqib komandanın oyun formasının rəngindən fərqlənməlidir.
**17.2.2.** Aşağı hissə şort (tuman) həm arxadan, həm də öndən bir rəngdə olmalıdır. Şortlar maykalar ilə eyni rəngdə olmalıdır. Şortlar dizdən aşağı olmamalıdır.
**17.3.** Komandalar basketbol geyimlərinin və aksesuarlarının tələblərinə riayət etməlidir. Oyunçulara oyun vaxtı qolçaqlar, retuzlar, dizliklər və dirsəkliklər geyinməyə icazə verilir. O halda ki bütün komanda üzvlərinin aksesuarları eyni, vahid rəngdə olsun. Bir komandanın oyunçularının fərqli-fərqli rənglərdə olan aksesuarlardan istifadə etməsi qəti qadağandır. Oyun formasının altından oyun vaxtı qollu və ya qolsuz maykaların (futbolkaların) geyilməsi qadağan olunur.
**17.4.** Hər bir komanda mütləq 2 dəst fərqli rəngdə geyimə malik olmalıdır. Geyimlərdən biri tünd rəngdə, digəri isə açıq rəngdə olmalıdır. Geyimlərdə üst hissədə (mayka) arxa tərəfdə oyunçunun soyadı düzgün formada (şəxsiyyəti təsdiq edən sənədə uyğun) yazılmalıdır.
**17.5.** Komandalar eksklüziv dizayna malik üçüncü dəst geyimə sahib ola bilər.
**17.6.** Çempionat oyunlarında komandalar yalnız ABL ilə razılaşdırılmış geyimlərdən istifadə edə bilərlər.
**17.7.** 01 sentyabr 2025-ci il tarixindən gec olmayaraq komandalar ABL rəyasət heyətinə oyun formaları haqqında elektron məlumatı ötürməlidirlər.
**17.8.** 12 sentyabr 2025-ci il tarixinədək klublar əsas, ehtiyat və eksklüziv (olarsa) geyimləri haqqında ABL idman direktoruna məlumat verməlidirlər.
**17.9.** 10 sentyabr 2025-ci il tarixinədək klublar rəsmi geyimlərin əldə olunması prosedurlarını yekunlaşdırmalıdırlar.
**17.10.** Meydan sahibi komanda əsas (ev) geyimi formasını (rəngindən asılı olmayaraq) geyinməlidir. Qonaq komanda ev sahibi komandasının rənglərinin əksi olan formanı (fərqi yoxdur, əsas və ya ehtiyat geyimdir) geyinməlidir.
**17.11.** 17.10 maddəsinin tələblərinə uyğun gəlməyən geyimdə meydana çıxmaq istəyən komanda bu barədə planlaşdırılan oyunun başlamasına ən azı 3 (üç) gün qalmış ABL idman direktoruna yazılı müraciət etməlidir. Müraciətə rəsmi cavab veriləndən sonra klub oyun geyimini dəyişə bilər.
**17.12.** Eksklüziv geyimdə meydana çıxmaq istəyən komanda bu barədə planlaşdırılan oyunun başlamasına ən azı 3 (üç) gün qalmış ABL idman direktoruna yazılı müraciət etməlidir. Müraciətə rəsmi cavab veriləndən sonra klub oyun geyimini dəyişə bilər.
**17.13.** Rəqib komandanın geyimi mütləq fərqlənməlidir.

**17.14.** Komandaların eyni formada meydana çıxması baş verərsə, məsuliyyət qaydaları pozan komandanın üzərinə düşür (qonaq komandanın).
**17.15**. Oyundan əvvəlki oyuna hazırlıq hərəkətləri zamanı oyunçular vahid geyimdə olmalıdırlar. Fərqi yoxdur, geyim rəsmi oyun geyimidir və ya oyundan əvvəlki hazırlıq üçün nəzərdə tutulmuş geyimdir. Bu maddədə oyun geyimi üçün nəzərdə tutulmuş tələblərə qeyd-şərtsiz riayət olunmalıdır.
**17.16.** Oyunçulara qolçaqlardan, retuzlardan, dizliklərdən istifadə etməyə icazə verilir, bir halda ki aksesuarlar bir komandanın bütün oyunçularında eyni. rəngdə olmalıdır. Eyni komandanın oyunçularının fərqli rənglərdə aksesuarlardan istifadə etmələri qadağandır.
**17.17.** Oyundan əvvəl oyun hazırlıqları zamanı (isinmə hərəkətləri) oyunçular meydançada vahid rəsmi geyimdə olmalıdırlar. Yəni eyni rəngdə olan klubun idman kostyumları, eyni rəngdə olan klubun futbolkaları və ya rəsmi oyun geyimində olmalıdırlar. Fərqli-fərqli rənglərdə və dizaynda olan, kluba aidiyyəti olmayan digər geyimlərdən oyundan əvvəlki isinmə hərəkətləri zamanı istifadə edilməsi qadağandır.
**17.18.** Çempionat oyunlarında oyunçuların köynəklərində oyun nömrələri əks olunmalıdır. Əgər oyunçuların nömrələri dəyişərsə və nömrənin dəyişməsi barədə əvvəlcədən çempionat təşkilatçılarına məlumat verilməzsə, bu halda klub inzibati qaydada cəzalandırılır.
**17.19.** Komandanın oyunçuları eyni rənglərdə corablardan istifadə etməlidirlər.
**17.20.** Oyunçu oyun vaxtı istədiyi rəngdə idman ayaqqabısından istifadə edə bilər.
**17.21.** Oyunçuların oyun geyimlərinin (köynəklərə, şalvarlara, idman kostyumlarına və oyundan əvvəlki hazırlıq geyimləri) sayına məhdudiyyət qoyulmur.
**17.22.** Oyunçuların geyimində pozuntu sayıla biləcək digər hallar FIBA oyun qaydalarının tələblərinə uyğun həll olunur.

**18. Oyun geyiminin nişanlanması**
**18.1**. Oyun forması üzərində istənilən qədər reklam xarakterli nişanlar ola bilər. Bir şərtlə ki oyunçunun nömrəsi aydın görünsün.

2025-2026




**18.2.** Reklam yazıları və ya reklam nişanları oyunçu nömrəsinə 5 sm-dən yaxın yerləşdirilə bilməz.

**18.3.** Köynəyin ön hissəsinin nişanlanması:

a) köynəyin ön hissəsinin mərkəzində aydın görünən rəngdə 10 sm hündürlükdə və ətrafında 5 sm boş sahə olmaqla nömrə yerləşdirilir.

b) ABL-in loqosu ön hissədə sol tərəfdə yuxarıda 37,5 sm2 (7,5x5 sm) ətrafında 5 sm boş sahə olmaqla yerləşdirilir.

c) çempionatdan əvvəl ABL öz loqotipini hazırlayaraq çempionat iştirakçılarına təqdim edir.

d) geyim istehsalçısının loqotipi köynəyin ön tərəfində, yuxarı sağ tərəfdə 12 sm-dən böyük olmamaqla yerləşdirilə bilər. Köynəyin ön tərəfində qalan boş sahələrdə komandanın adı və / və ya reklam yerləşdirilə bilər.

**18.4.** Köynəyin arxa tərəfi (kürəyi)

a) yuxarı hissənin mərkəzində oyunçunun soyadı yazılmalıdır. Soyad yazılarkən hərflərin ölçüsü (hündürlüyü) 6 sm-dən 8 sm-dək olmalıdır. Soyad yazılarkən 5 sm-lik boş sahə mütləq gözlənilməlidir.

b) köynəyin mərkəzində ətrafında 5 sm-lik sahə gözlənilməklə hündürlüyü 20 sm az olmamaqla aydın rənglə seçilən oyunçu nömrəsi yerləşdirilir. Bu zaman 5 sm-lik boş sahə mütləq gözlənilməlidir.
c) köynəyin arxasında əlavə boş yerlər qalarsa, reklam üçün istifadə oluna bilər.
**18.5.** İdman tumanında (şort) oyun nömrəsinin yazılması mütləq deyil.

## 19. Məşqçilərin və komandanın digər nümayəndələrinin geyimləri

**19.1.** Baş məşqçilər və onların köməkçiləri oyun vaxtı və oyundan sonra mətbuat konfrasında kostyumda olmalıdırlar.
**19.2.** Komandaya xidmət edən digər şəxslər: fiziki hazırlıq üzrə məşqçilər, həkim, masajçı oyun vaxtı klubun onlar üçün nəzərdə tutulmuş geyimlərində olmalıdırlar.
**19.3.** Komandanı müşayiət edən və il ərzində ehtiyat oyunçular skamyasında yer tutan digər rəsmi şəxslər mövsüm boyu komandanın rəsmi idman kostyumlarında və ya klubun atributları olan köynəklərdə olmalıdırlar.
**19.4.** Zədəli və ya oyuna sifariş olunmayan, lakin ehtiyat oyunçular skamyasında olan oyunçular klubun rəsmi geyimində – idman kostyumu, idman ayaqqabısı və uniforma geyimində olmalıdırlar.

## 20. Oyunun başlaması

**20.1.** Oyunun keçirildiyi yerdə, oyunun başlamasına 1,5 saat (saat yarım) qalmış meydançada yalnız oyun iştirakçıları oyuna hazırlıq hərəkətləri yerinə yetirə bilərlər. Təqvimdə göstərilən oyunu vaxtından 1,5 saat əvvələ qədər meydançada oyun iştirakçılarından başqa heç kim tədbir keçirə bilməz.
**20.2.** Oyunun başlamasına 40 dəqiqədən az olmayaraq qalmış klub nümayəndəsi komandanın rəhbərini oyunun katibinə təqdim etməlidir. Klub rəhbəri oyunun iştirakçılarının (oyunçuların, məşqçilərin, xidməti personalın və digər rəsmi şəxslərin) siyahısını və lisenziyalarını, ABL idman direktorunun təsdiqlədiyi digər sənədləri təqdim edir.
**20.3**. Oyunun başlanmasına 15 dəqiqə qalmış komandaların məşqçiləri oyunun müvafiq qrafasında start heyətini X işarəsi ilə nişanlamalı və protokolda qeyd olunmuş komanda üzvlərinin adlarını və oyun nömrələrini yoxlayaraq düzgünlüyünü öz imzası ilə təsdiq etməlidir.
**20.4.** Oyunun başlamasına 8 dəqiqə qalmış, yəni təqvimdə göstərilən oyunun vaxtından 8 dəqiqə əvvəl oyunda iştirak edən komandaların heyətləri elan edilir.
**20.5.** Oyunun başlanmasına 24 saat qalmış ABL rəhbərliyinin qərarı ilə təqdimetmə mərasimində dəyişiklik edilə bilər.
**20.6.** Oyun vaxtı, oyundan əvvəl və oyunun gedişatında yarış məkanında pirotexniki vasitələrdən istifadə qadağan edilir.
**20.7.** Komandalar oyuna hakimin işarəsi ilə dərhal başlayırlar.

2025-2026

**20.8.** Meydançaya çıxmaqdan imtina və ya oyunun başlanmasını ləngitmə oyuna çıxmamaq kimi qiymətləndirilir və oyuna gəlməməyə görə nəzərdə tutulmuş cəzalar tətbiq olunur.

| Oyunun başlanmasına qalan vaxt | Fəaliyyət |
|---|---|
| 60 dəqiqə | Meydança komandaların hazırlıq hərəkətləri etməsi üçün hazırdır. Vaxt qoşulub. |
| 8 dəqiqə | Hakimin fiti səslənir, komandalar öz yerinə çəkilir. |
| 7:30 dəqiqə | Qonaq komandanın təqdimatı. |
| 6:30 dəqiqə | Meydan sahibi komandanın təqdimatı. |
| 5:00 dəqiqə | Hakimlərin təqdimatı. |
| 3:00 dəqiqə | Hakimin fiti səslənir. |
| 1:30 dəqiqə | İlk beşliklər meydançaya daxil olur. |
| 0:00 dəqiqə | Oyun başlanır. |

**21. Himn və rəqslər, əyləncə qrupları**

**21.1.** Liqanın himni mütləq şəkildə hər oyundan əvvəl səsləndirilir.

**21.2.** Hər oyunda komandalar təqdim olunduqdan sonra liqanın himni səsləndirilir.

**21.3.** Oyunun bitməsi barədə final fitindən sonra arenada ABL və ya ev sahibi klubunun himni səsləndirilə bilər.

**22. Oyunlara rəhbərlik və səlahiyyətli şəxslər**

**22.1.** Oyun vaxtı komandaların ehtiyat oyunçular skamyasında ABL lisenziyası olan 21 nəfər otura bilər. Onlardan 12 nəfər oyuna sifariş olunan oyunçular, digər 9 nəfər isə məşqçilər, masajçı, xidmətçilər, zədəli oyunçular və digər rəsmi şəxslərdən ibarət ola bilər.

**22.2.** ABL lisenziyası olmayan şəxslər ehtiyat oyunçular zonasını tərk etməlidirlər. ABL lisenziyası olmayan şəxslər yalnız hakimin və ya oyunun inspektorunun icazəsi ilə ehtiyat oyunçular skamyasında əyləşə bilərlər.

**22.3.** Bu Əsasnamənin 6.7.4. bəndinin tələblərini yerinə yetirmiş və ABL lisenziyası almış şəxslər məşqçi və məşqçi köməkçiləri hesab olunur.

**22.4.** Komandanın kapitanı FIBA qaydalarına uyğun olaraq komandaya rəhbərlik edə bilər. Yəni məşqçi və məşqçi köməkçisi olmadıqda kapitan onların vəzifələrini

icra edir. Ehtiyat oyunçular skamyasında əyləşən digər şəxslər (kapitan xaricində) komandaya rəhbərlik edə bilməz.
**22.5.** ABL klubunun meneceri, məşqçisi və məşqçi köməkçisi məşqçilər üçün ABL tərəfindən təşkil olunmuş mövsüm öncəsi toplantılarda iştirak etməlidirlər.

## 23. Oyunda fasilələr: birdəqiqəlik fasilələr, televiziya reklam fasilələri

**23.1.** Oyun hər biri 10 dəqiqə olmaqla 4 hissədən ibarətdir.
**23.2.** Birinci və ikinci hissələr və eləcə də üçüncü və dördüncü hissələr arasında fasilə 2 dəqiqə təşkil edir.
**23.3.** Oyunun ilk yarısından sonra, yəni ikinci və üçüncü hissələr arasında fasilə 15 dəqiqədir.
**23.4.** Birdəqiqəlik fasilənin müddəti 60 saniyədir.
**23.5.** Oyun ərzində hər bir komandanın 5 dəfə birdəqiqəlik fasilədən istifadə etmək hüququ var. Bunlardan iki birdəqiqəlik fasilə oyunun ilk yarısında, qalan üç fasilə isə ikinci yarısında istifadə edilə bilər. Əgər komanda ilk yarıda fasilədən istifadə etməmişsə, o zaman ilk yarıda istifadə olunmamış fasilə ikinci yarıya keçmir. Əgər ikinci yarıda oyunun son iki dəqiqəsinə qədər komanda fasilələrdən istifadə etməyibsə, bu zaman oyunun son iki dəqiqəsində komanda qalan üç fasilənin yalnız ikisindən istifadə edə bilər. Əlavə hissədə komandaların hər birinə bir fasilə hüququ verilir.
**23.6.** İstifadə olunmamış birdəqiqəlik fasilə ikinci yarıya və ya əlavə hissəyə daşına bilməz.
**23.7.** Oyun televiziya vasitəsilə yayımlanırsa, o zaman ikinci və üçüncü hissələr arasında fasilə ABL idman direktorunun icazəsi ilə 15 dəqiqədən artıq ola bilər.
**23.8.** Birdəqiqəlik fasilə elan edilərkən oyunun informatoru fasilənin hansı komanda tərəfindən götürüldüyünü elan etməlidir.
**23.9.** Əgər oyun televiziya vasitəsilə yayımlanırsa, o zaman oyun ərzində 2 və ya 4 reklam fasiləsi ola bilər.
**23.10.** Televiziya reklam fasilələri 60 saniyədən 100 saniyəyə qədər davam edə bilər.
**23.11.** Televiziya reklam fasilələrinin dəqiq sayı barədə oyundan əvvəl ABL idman direktoru tərəfindən oyunun baş hakiminə məlumat verilir.
**23.12.** Televiziya reklam fasilələri oyunda fasilə yarandıqda oyunun katibi tərəfindən elan edilir.
**23.13.** Əgər oyunda 2 reklam fasiləsi olarsa, o zaman onlardan biri 1-ci hissənin 6-cı dəqiqəsində, digəri isə oyunun 4-cü hissəsində elan edilir.
**23.14.** Əgər reklam fasilələrinin sayı dörddürsə, o zaman reklam fasilələri hər hissənin 6-cı dəqiqəsində elan olunur.
**23.15.** Oyundan öncə oyunun baş hakimi hər iki komandaya oyunda olacaq reklam fasilələrinin sayı və davamiyyəti barədə məlumat verməlidir.
**23.16.** Reklam fasiləsindən sonra oyun hakimin işarəsi ilə davam etdirilir.

2025-2026

**24. ABL oyunundan əvvəl meydançanın rəqib komandanın istifadəsinə verilməsi**

**24.1.** Meydan sahibi komanda oyun keçiriləcək məkanı oyundan əvvəl məşq etmək üçün 1,5 saatlıq qonaq komandanın istifadəsinə verməlidir.

**24.2.** Qonaq komanda məşq etmək istədiyi ilə bağlı ev sahibi komandanı oyunun başlamasına ən azı 72 saat qalmış xəbərdar etməlidir.

**25. Su və buz verilməsi**

**25.1.** Oyundan öncə ev sahibi komanda hər bir komandanı 24 litr qazsız su ilə təmin etməlidir.

**25.2.** Oyundan öncə hakimlər briqadası və masa hakimləri ev sahibi komanda tərəfindən içməli su ilə təmin olunmalıdır.

**25.3.** Oyun vaxtı təşkilatçılar ehtiyac yaranarsa, yarış iştirakçılarını buz ilə təmin etməlidirlər. Bunun üçün yarış məkanında saxlanclarda buz ehtiyatı olmalıdır.

**26. Oyunların videoçəkilişi**

**26.1.** ABL məsul əməkdaşları və ya oyunun çəkilişini müqavilə əsasında təşkil edən təşkilatın nümayəndəsi oyun bitdikdən 16 saatdan gec olmayaraq oyunun videoyazısını ABL serverinə yerləşdirməlidir.

## V FƏSİL. YARIŞ MƏKANI

**27. Yarış məkanının uyğunluğu**

**27.1.** ABL oyunları Azərbaycan Respublikasının tikinti haqqında Qanununun texniki təhlükəsizlik tələblərinə cavab verən idman qurğularında keçirilir. Oyunun keçirildiyi meydança FIBA tələblərinə uyğun təchiz edilməlidir.

**27.2.** ABF rəhbərliyi yarış yerlərinin yoxlanılması və qiymətləndirilməsi səlahiyyətinə malikdir.

**27.3.** Əgər yarış məkanı mövcud tələblərə uyğun deyilsə, ABF rəhbərliyi oyunun keçirilməsini qadağan edə və təxirə sala bilər.

**27.4.** Yarış yerlərində meydançanın oyuna hazırlanması, nişanlanması, texniki vasitələrin quraşdırılması və yarışın keçirilməsi üçün lazım olan digər vasitələr Beynəlxalq Basketbol Federasiyasının (FIBA), eləcə də bu Əsasnamənin tələblərinə uyğun təşkil olunmalıdır.

**27.5.** Yarış məkanında hər hansı dəyişiklik ABF-nin rəhbərliyi ilə razılaşdırılmalıdır.

**27.6.** Hər hansı bir dəyişiklik bu Əsasnamədə göstərilməyibsə, o zaman təşkilatçılar FIBA qaydalarına əsaslanırlar.

**28. Yarış məkanına məsul şəxsin təyin olunması**

**28.1.** ABL oyunları təşkil edən qurum (meydan sahibi komanda) meydançanın hazırlanmasına məsul şəxsi təyin etməlidir. Məsul şəxs oyundan 2 saat əvvəl yarış keçirilən yerə gəlməli, oyun vaxtı, oyun sonu və fasilələr zamanı yarış keçirilən məkanda bütün texniki vasitələrin sazlığına, işlək olmasına və quraşdırılmasına cavabdehdir.

**28.1.1.** Məsul şəxs oyundan əvvəl paltardəyişmə otaqlarını komanda nümayəndələrinə təhvil verməli və oyundan sonra təhvil almalıdır. Təhvil alınan zaman məsul şəxs otaqdakı ləvazimatların yararlı olmasına fikir verməlidir. Məsul şəxs öz vəzifə səlahiyyətlərinə məsuliyyətsiz yanaşarsa, işində nöqsanlara yer verərsə barəsində intizam tənbehi görüləcəkdir.

**29. Basketbol meydançasına qoyulan tələblər**

**29.1.** Basketbol meydançasının döşəməsi taxtadan olmalıdır. Döşəmə möhkəm, hamar (sürüşkən olmamalıdır) olmalıdır. Döşəmədə maneələr və ya yamaqlar olmamalıdır. Meydançanın döşəməsi daimi və daşınan ola bilər.

**29.2.** Meydançanın ölçüləri FIBA tələblərinə uyğun olaraq uzunluğu 28 metr, eni 15 metr olmalıdır.

**29.3.** Meydançadakı bütün xətlər 5 sm enində aydın görünən parlaq boya ilə rənglənməlidir və ya yapışqan kağız vasitəsilə təmin olunmalıdır.

**29.4.** Bütün maneələr (tamaşaçılar, reklam lövhələri və başqa vasitələr), eləcə də ehtiyat oyunçular skamyası, hakimlər masası meydançadan ən azı 2 metr aralıda yerləşməlidir.

**29.5.** Mərkəz dairə (əgər reklam yerləşdirilməyibsə) meydanın digər sahələrindən fərqli rəngdə olmalıdır.

**29.6**. Meydanın bütün ətrafı boyu 2 metr məsafədə ərazinin mərkəzi dairə ilə eyni rəngdə rənglənməsi məqsədəuyğundur.

**29.7.** Meydança mümkün qədər yalnız basketbol üçün xətlənməlidir. Bu mümkün olmadıqda meydança hazırlanarkən digər idman növlərinə aid xətlər yapışqan kağız ilə örtülməlidir.

**29.8.** Döşəmədən yeddi metr hündürlükdən az olmamaqla meydança üzərində heç bir şey asıla bilməz. Əgər belə bir şey varsa, məsafə ən azı 7 metr olmalıdır.

**30. Basketbol səbətinə qoyulan tələblər.**

**30.1.** ABL çempionatında yalnız döşəmə üzərində hərəkət edən mobil səbət dirəklərindən istifadə edilir.

**30.2.** Bütün hallarda təşkilatçılar dirəklərin yarış iştirakçıları üçün təhlükəsiz olduğunu təyin etməlidirlər.

**30.3.** Mobil basketbol dirəyi meydançanın ön xəttindən 2 metr məsafədə bərkidilməlidir. Dirəyin ön hissəsi 2 metr 15 santimetr hündürlükdə 10 sm qalınlıqda yumşaq materialla üzlənməlidir.

2025-2026

**30.4.** Dirəyin konstruksiyasının yan tərəfləri də yumşaq qoruyucu materialla üzlənməlidir. Materialın qalınlığı 2,5 sm olmalıdır.
**30.5.** Yarış keçirilən yerdə ən azı bir ehtiyat səbət dirəyi konstruksiyası olmalıdır.

## 31. Basketbol lövhəsinə qoyulan tələblər

**31.1.** Basketbol lövhələri FIBA-nın rəsmi qaydalarının tələblərinə cavab verməlidir. Lövhələr möhkəm, şəffaf şüşə materialdan hazırlanmalıdır. Elə material olmalıdır ki, zədələnən zaman qırıntılar sıçramamalıdır. Lövhələr 180 sm endə, 105 sm hündürlükdə olmalıdır. Lövhənin aşağı hissəsi ilə döşəmə arasında məsafə 290 sm olmalıdır.
**31.2.** Lövhələr təmiz olmalı və dirəklərə möhkəm bərkidilməlidir.
**31.3.** Lövhədəki xətlər ağ rəngdə olmalıdır.
**31.4.** Lövhələrin kənar hissələri xüsusi qoruyucu materialla üzlənməlidir. Lövhənin aşağı hissəsində qoruyucu material 5 sm qalınlıqda, yan tərəflərdən yuxarıya 35 sm ölçüdə olmalıdır. Digər hissələrdə qoruyucunun qalınlığı 2 sm olmalıdır.
**31.5.** Lövhənin sol tərəfində, aşağı küncdə ABL loqotipinin yapışdırılması mütləqdir.
**31.6.** Lövhədə hər hansı istehsalçının reklamı qadağandır.
**31.7.** Yarış keçirilən yerdə ən azı bir ehtiyat lövhə və səbət olmalıdır.
**31.8.** Təşkilatçı yarış məkanında hər hansı bir texniki qəzanın aradan qaldırılması üçün xidməti personala (işçi qrupa) malik olmalıdır.
**31.9.** Səbət lövhəsində işıqlandırma zolaqları
**31.9.1.** Səbət lövhəsinin arxa tərəfində bütün perimetr üzrə diod işıqlandırıcı zolaq bərkidilir. Həmin zolaq oyunun saatı ilə hissə bitən zaman sinxron şəkildə qırmızı rəngdə işıqlanmaqla hissənin bitməsi barədə siqnal verir. Həmin qırmızı işıqlı zolaq hücuma verilmiş 24 saniyə bitdikdə heç bir halda işıqlanmamalıdır.
**31.9.2.** Əlavə olaraq səbət lövhəsinin arxasında bütün perimetr üzrə ikinci sarı işıqlı diod zolaq yerləşdirilir. Sarı zolaq hücuma ayrılmış vaxtın bitdiyi an işıqlanaraq siqnal verməlidir.

## 32. Səbət və tor

**32.1.** FIBA tələblərinə uyğun olaraq ABL çempionatında yaylı səbətlərdən istifadə edilir.
**32.2.** Narıncı rənglə rənglənmiş halqalar qatlanma yerindən dirəklərə elə bərkidilir ki, lövhəyə təzyiq etməsin. Halqanın diametral ölçüsü 45,0-45,9 sm olmalıdır.
**32.3.** Halqanın toru FIBA rəsmi qaydalarının tələblərinə cavab verməlidir.
**32.4.** Tor yumşaq ağ kətandan ibarət iplərdən toxunmalıdır. Tor elə düzəldilməlidir ki, səbətə daxil olan top orada ilişib qalmasın. Torun uzunluğu 40-45 sm olmalıdır. Tor səbətin üst hissəsinə dolaşmamalıdır.
**32.5.** Yarış məkanında ən azı 2 ehtiyat səbət və tor olmalıdır.

2025-2026

## 33. Elektron və səsgücləndirici vasitələr

**33.1.** Yarış məkanı FIBA qaydaları tələblərinə uyğun olaraq və bu Əsasnamədə göstərildiyi kimi yüksək səviyyədə elektron vasitələrlə təchiz olunmalıdır. Vasitələr elə quraşdırılmalıdır ki, hakimlər, tamaşaçılar və digər yarış iştirakçıları onları yaxşı görə bilsinlər.

**33.2.** ABL çempionatı oyunlarında istifadə olunan texniki qurğular FIBA tələblərinə tam cavab verməlidir. Yarışların yüksək səviyyədə keçirilməsini təmin etmək üçün yüksək keyfiyyətə malik olmalıdır.

**33.**3. Oyun üçün ləvazimatlar:

1) hesab lövhəsi (tablo);

2) 24 saniyə ölçən monitorlar (hər bir dirəyin yuxarı hissəsinə bərkidilir);

3) 2 fərqli yüksək səsli siqnal (bunlardan biri oyun saatını ölçmək üçün, daha bir siqnal isə 24 saniyə ölçən operator üçün nəzərdə tutulur);

4) oyunda işləyən bütün saatlar sinxronlaşdırılmalıdır.

**33.4.** Təkrarın baxılması sistemi (TBS)

**33.4.1.** Təkrarın baxılması sistemi mübahisəli vəziyyətlərdə qərar qəbul edilməsi üçün istifadə olunur. (Əlavə №1)

**33.4.2.** TBS-ni yalnız oyunun hakimləri istifadə edə bilərlər. Təkrar baxış zamanı monitorun arxasında və ya yaxınlığında sistemə qulluq edən personaldan və hakimlərdən başqa heç kim ola bilməz.

**33.4.3.** Baş hakimin tələbi ilə TBS-yə aidiyyəti olmayan şəxslər TBS zonasını tərk etməlidirlər.

**33.5.** Audiosistem

**33.5.1.** Yarış məkanında meydanda baş verən hadisələr barədə məlumat verilməsi üçün audiosistem (səs sistemi) quraşdırılmalıdır.

**33.5.2.** Yarış məkanında mikrofonlar və səsgücləndirici qurğular quraşdırılır.

**33.5.3.** Səsgücləndiricilər komandaların ehtiyat oyunçular skamyasından ən azı 5 metr aralı məsafədə quraşdırılır.

**33.5.4**. Diktor mikrofon vasitəsilə yalnız oyuna aid məlumatları səsləndirə bilər. Təlimat ABL idman direktoru tərəfindən təsdiq olunur.

**33.5.5.** Oyun vaxtı səsgücləndirici vasitələrdən komandalara dəstək üçün istifadə edilməsi qadağandır.

**33.5.6.** Səsgücləndirici vasitələrlə musiqi səsləndirilməsi fasilələrdə və oyun vaxtında yaranan pauzalar zamanı mümkündür.

**33.6.** Video (videoekranlar)

**33.6.1.** Yarış məkanında yerləşdirilmiş videomonitorlarda oyunun maraqlı epizodlarının təkrarını göstərmək olar. Lakin təkrarı göstərilən epizodlar yalnız bir komandanın xeyrinə olmamalı və tamaşaçılarda aqressiya yaratmamalıdır. Fasilələr zamanı komandaların ehtiyat oyunçular skamyasını videomonitorlarda yayımlamaq qadağandır.

**33.6.1.1.** Yayım zamanı bu bənddə göstərilən tələblər pozularsa, o zaman arenada monitorlarda yayım dayandırılır.

## 34. Masa hakimliyi

**34.1.** Hakim masası meydançanın mərkəz xətti ilə paralel yan xətdən 2 metr aralıda yerləşdirilir.
**34.2.** Masa arxasında ən azı 7 nəfərlik iş yeri yaradılmalıdır.
Masa hakimləri: katib, katib köməkçisi, saniyəölçən, 24 saniyə operatoru, diktor və 2 nəfər statistika operatoru.
**34.3.** Masa arxasında hakimlər
**34.3.1.** Masa rəsmilərinin sıralanması

| Basketbol meydançası | | | | | |
|---|---|---|---|---|---|
| **Diktor** | **24 saniyə ölçən operator** | **Əsas oyunun vaxtını ölçən** | **Katib (protokol yazan)** | **Katib köməkçisi** | **Statistika operatoru** |
| 1 nəfər | 1 nəfər | 1 nəfər | 1 nəfər | 1 nəfər | 2 nəfər |

**34.3.2.** Hakimlər masasında yalnız katiblik hakimləri əyləşə bilərlər. Komandanın nümayəndələri masa arxasında əyləşə bilməzlər.
**34.3.3.** Katiblik masasında komanda follarını aydın göstərən lövhə, oyunçu follarını göstərəcək lövhəciklər və hücum istiqamətini göstərəcək ox işarəsi olmalıdır.
**34.3.4.** Katiblər masasında kompüter və yüksək keyfiyyətli printer olmalıdır. Printer daim kompüterə qoşulu olmalıdır.
**34.3.5.** Yarış təşkilatçısı yarış məkanını yüksəksürətli internet ilə təmin etməlidir.
**34.3.6.** Gözlənilməz hallarda (bax: 52.3.) oyunun inspektoru katib və vaxt operatorunun arasında əyləşməlidir.
**34.4.** Statistika operatorlarının iş yerinin hazırlanması.
**34.4.1.** Statistika operatorlarının iş yeri yüksək keyfiyyətli kompüter və printerlə təchiz olunmalıdır.
**34.4.2.** Kompüter yüksəksürətli internet şəbəkəsinə qoşulmalıdır (mobil və ya stasionar).
**34.4.3.** Statistika operatorlarının iş yerində ehtiyat ikinci internet şəbəkəsi əlçatan olmalıdır; şəbəkədən hər hansı qopma olarsa, kəsintisiz qoşulma imkanı əldə etmək mümkün olsun.
**34.4.4.** Statistika kompüteri internet şəbəkəsinə qoşulu vəziyyətdə olmalıdır.
34.4.5. Yarış təşkilatçıları dərhal internet qoşulma problemləri barədə oyundan əvvəl, oyun zamanı və oyundan sonra internet provayderlərini məlumatlandırmalıdırlar.

2025-26

**34.4.6.** Masa hakimlərinin iş yerini düzgün təşkil etməyən ev sahibi klub barədə 34.4.2. və 34.4.3. maddələrinin tələblərinin pozulmasına görə inzibati ölçülər götürülür.
**34.5.** Oyunun katibləri və statistika operatorları ehtiyat kompüterlərlə təmin olunmalıdırlar; işlək kompüterlərdə problem yaranarsa, tez bir zamanda dəyişmək mümkün olsun (maksimum 5 dəqiqə ərzində).
**34.6.** Hakim masasının hər iki tərəfində oyunçu dəyişikliyi edilməsi üçün hər tərəfdə (sağ və sol) iki oturacaq qoyulur.

**35. Oyunun ABF nümayəndəsinin iş yeri**
**35.1.** Yarış keçirilən məkan ABF nümayəndəsi iş yeri hesab olunur. Yarış təşkilatçısı yarış məkanında ABF nümayəndəsinin iş yerini təyin etməlidir.

**36. ABL əməkdaşlarının iş yeri**
**36.1.** Bakı İdman Sarayı
**36.2.** Azərbaycan Basketbol Federasiyası

**37. Komandaların oturacaq yerləri**
**37.1.** Komandalar hakimlər masasının sağ və sol tərəflərində yerləşirlər.
**37.2.** Ehtiyat oyunçular zonasında 16, bəzi hallarda 19 oturacaq yerləşdirilir.
**37.3.** Ehtiyat oyunçular skamyası tamaşaçılardan ən azı 2 metr aralıda yerləşdirilməlidir.
**37.4.** Qonaq komandanın ehtiyat oyunçular skamyasında ən azı 1 mühafizəçinin olması mütləqdir.

**38. İşıqlandırma**
**38.1.** İşıqlandırma hakimlərə və oyunçulara mane olmamalıdır.
**38.2.** Oyunun başlanma vaxtına 30 dəqiqə qalmış meydança tam işıqlandırılmalıdır. İşıqlar oyun başa çatdıqdan 30 dəqiqə sonra və ya televiziya yayımı bitdikdən sonra söndürülür.
**38.3.** Oyunçuların təqdimetmə vaxtı işıq effektləri üçün işıqlar qısa zaman üçün söndürülə bilər. Lakin oyunun başlanmasına 3 dəqiqə qalmış tam gücü ilə işıqlandırılmalıdır.

**39. Yarış məkanının hərarəti (temperaturu)**
**39.1.** Yarış məkanında paltardəyişmə otaqları daxil olmaqla minimum temperatur 16 dərəcə, maksimum 25 dərəcə təşkil etməlidir.
**39.2.** İdman sarayının digər yerlərində də temperatur 16-25 dərəcə təşkil etməlidir.
**39.3.** Yarış məkanında temperatur az dəyişkən olmalıdır.
**39.4.** Yarış məkanı standartlara uyğun istilik və havalandırma sistemi ilə təmin olunmalıdır.

2025-2026

**40. Paltardəyişmə otaqları**

**40.1.** Komandalar üçün dolablar

**40.1.1.** Yarış məkanında komandalar üçün ayrı-ayrı paltardəyişmə otaqları olmalıdır.

**40.1.2.** Paltardəyişmə otaqlarının sahəsinin 50 m2 olması tövsiyə edilir.

**40.1.3.** Paltardəyişmə otağında 15-20 adamın oturması üçün oturacaqlar olmalıdır.

**40.1.4.** Paltardəyişmə otaqları isti və soyuq su ilə təmin olunmalıdır.

**40.1.5.** Paltardəyişmə otağında sanitar-gigiyenik tələblər gözlənilməlidir.

**40.1.6.** Komandaların paltardəyişmə otaqları mühafizə olunmalıdır.

**40.2.** Hakimlər üçün paltardəyişmə otağı

**40.2.1.** Yarış məkanında hakimlər üçün ayrılmış paltardəyişmə otağı olmalıdır.

**40.2.2.** Hakimlər otağının sahəsinin 15 m2 olması tövsiyə edilir. Otağın duş və sanitar otağı olmalıdır.

**40.2.3.** Hakimlər otağında 4 oturacaq, paltar dolabı və asılqanlar olmalıdır.

**40.2.4.** Hakimlər otağına yalnız hakimlər, oyunun inspektoru, liqanın rəhbərliyi daxil ola bilər.

**40.2.5.** Yarış məkanında masa hakimləri üçün otaq hazırlanmalıdır.

**40.2.6.** Hakimlərin və masa hakimlərinin otaqları mühafizə olunmalıdır.

**41. Tibb otağı, dopinq nəzarəti və həkim personalı**

**41.1.** Oyundan əvvəl, oyun vaxtı və oyundan sonra tibbi personal oyun iştirakçılarına və tamaşaçılara tibbi xidmət göstərmək üçün növbədə olurlar.

**41.2.** Yarış məkanında tibbi avadanlıq və dərman preparatları ilə təmin olunmuş otaq olmalıdır.

**41.3.** Yarış məkanında dopinq testlərinin götürülməsi üçün otağın olması tövsiyə olunur.

**41.4.** Əgər yarış məkanında dopinq nəzarəti otağı yoxdursa, tibb otağı dopinq nəzarəti üçün istifadə edilə bilər.

**42. KİV və KİV fəaliyyəti üçün zonalar**

**42.1.** Yarış məkanında KİV nümayəndələrinin fəaliyyəti üçün yer ayrılmalıdır.

**42.1.1.** Yarış məkanında tribunada və meydançanın arxa tərəfində KİV nümayəndələri üçün yer ayrılmalıdır. Bu yerdə ən azı 10 nəfər nümayəndənin işləməsi üçün şərait yaradılmalıdır. Onlar üçün elektrik və internet şəbəkəsinə qoşulmaq üçün şərait yaradılmalıdır.

**42.1.2.** Təşkilatçılar mətbuat konfranslarının keçirilməsi üçün yer hazırlamalıdırlar və konfrans yerində internet əlçatan olmalıdır.

**42.1.3.** Əgər mətbuat konfransı təşkil etmək mümkün deyilsə, o zaman jurnalistlərə oyunçu və məşqçilər ilə ünsiyyət qurmaq üçün imkanlar yaradılmalıdır.

**42.1.4.** Mətbuat nümayəndələrinə oyunların rəsmi statistikası verilməməlidir.

2025-2026

**42.2.** Yarış keçirilən yer mətbuat nümayəndələrinin fəaliyyəti üçün ən azı 40 mbit sürətdə internet şəbəkəsi ilə təmin olunmalıdır.

**43. Təhlükəsizlik tələbləri**

**43.1.** Əsas tələblər

**43.1.1.** Meydan sahibi komanda (yarış təşkilatçısı) oyundan 1 saat əvvəl, oyun vaxtı və oyundan 1 saat sonra yarış iştirakçılarının təhlükəsizliyinə məsuliyyət daşıyır.

**43.1.2.** Yarış təşkilatçısı yarış məkanında təhlükəsizliyi təmin etmək üçün hüquq mühafizə orqanları ilə sıx əlaqədə olmalıdır.

**43.1.3.** Klublar (yarış təşkilatçısı) nəzarət etməlidir ki, tamaşaçılar yarış məkanına alkoqollu içkilər, narkotik və silah kimi istifadə oluna biləcək alətləri yarış məkanına keçirməsinlər.

**43.1.4.** Yarış məkanında hər hansı xoşagəlməz hadisənin baş verməsində meydan sahibi məsuliyyət daşıyır. Baş vermiş hadisəyə görə meydan sahibi kluba qarşı maliyyə və digər sanksiyalar tətbiq olunur.

**43.1.5.** Tribunalarda azarkeşlər arasında baş verə biləcək hər hansı bir insidentə görə hər iki klub (istər ev sahibi, istər qonaq) məsuliyyət daşıyır.

**43.2.** Hakimlərin təhlükəsizliyinin təmin edilməsi.

**43.2.1.** Yarış məkanına hakimlərin və oyunçuların daxil olması üçün ayrıca giriş və çıxış olmalıdır.

**43.2.2.** Mühafizəçilər komandaların və hakimlərin paltardəyişmə otaqlarını mühafizə etməlidirlər.

**43.2.3.** Mühafizəçilər oyun meydançasına azarkeşlərin və kənar şəxslərin daxil olmasının qarşısını almalıdırlar.

**43.2.4.** Çempionatın Əsasnaməsinin pozulması hallarında yarış iştirakçıları bu barədə ABL rəhbərliyinə məlumat verməlidir. ABL rəhbəri pozuntunu qeydə alır və müvafiq qərar verilməsi üçün müzakirələr aparır.

**43.3.** Oyun vaxtı istifadə olunan qurğu və kontruksiyaların qorunması və mühafizəsi

**43.3.1.** Oyunda istifadə olunan qurğular: dirəklər, 24 saniyə ölçən monitorlar, lövhələr, reklam lövhələri Əsasnamənin və FIBA qaydalarının tələblərinə uyğun qorunur və mühafizə olunur.

**43.4.** Tamaşaçıların təhlükəsizliyi ictimai yerlərdə təhlükəsizliyin qorunması, insanların çox toplaşdığı yerlərdə ictimai asayışı pozma və ya davranış qaydalarının pozulması hallarında görülən tədbirlər

**43.4.1.** Yarış təşkilatçısı oyun iştirakçılarının, hakimlərin və tamaşaçıların təhlükəsizliyini təmin etməlidir.

**43.4.2.** Klub (təşkilatçı) nəzarət etməlidir ki, azarkeşlər yarış məkanına qadağan olunmuş vasitələr keçirməsinlər.

**43.4.3.** Klub azarkeşlərin qeyri-adekvat davranışlarına görə məsuliyyət daşıyır.

**44. ABL klublarının təşkil etdiyi fan-klublar**

2025 - 2026

**44.1.** Təhlükəsizlik qaydaları və təşkilatlanmış azarkeş qruplarının davranış qaydaları. Klublar mövsüm öncəsi təşkil etdikləri fan klubların tərkibi haqqında məlumat verməlidirlər.
**44.1.1.** Təşkilatlanmış azarkeş qruplarının özlərini nümunəvi aparmaları üçün klublar azarkeş qrupları ilə maarifləndirici görüşlər keçirməlidirlər.
**44.1.2.** Azarkeşlərə oyunlar keçirilən məkanlara pirotexniki vasitələrin keçirilməsi qadağan edilir.
**44.1.3.** Meydan sahibi komanda oyundan 1 saat əvvəl, oyun vaxtı və oyundan 1 saat sonra yarış məkanında azarkeşlərin və digər yarış iştirakçılarının təhlükəsizliyinə məsuliyyət daşıyır.
**44.1.4.** Oyun vaxtı qəbul edən və qonaq komanda öz azarkeşlərinin qaydalara zidd davranışlarına görə məsuliyyət daşıyır. Fərqi yoxdur, azarkeşlər qonaq komandanın və ya ev sahibi komandanın azarkeşləridir.
**44.1.5.** Azarkeşlərə oyun vaxtı senzuradankənar ifadələrdən, şüarlardan, plakatlardan, mahnılardan istifadə etmək qadağan edilir. Maddənin tələbi pozularsa, kluba azarkeşlərinin davranışına görə intizam sanksiyaları tətbiq edilir.
**44.1.6.** Klub öz azarkeş qrupunun oyundan əvvəl, oyun vaxtı və oyundan sonra davranışına, onlar tərəfindən meydançaya qadağan edilmiş əşyaların atılmasına görə, tribunalarda pirotexniki vasitələrin istifadəsinə görə inzibati sanksiyalara cəlb ediləcəkdir.
**44.2.** Təşkilatlanmış fan-klublara pulsuz biletlərin verilməsi
**44.2.1.** Meydan sahibi komanda qonaq komandanın təşkilatlanmış azarkeş qrupuna tribunada xüsusi yerlər ayırmalı və onların təhlükəsizliyinə təminat verməlidir.
**44.2.2.** Qonaq komanda oyunun başlamasına 48 saat qalmış ev sahibi komandaya onları dəstəkləyəcək qruplarının sayı və siyahısı barədə dolğun məlumat verməlidir. Əgər siyahı göstərilən vaxta təqdim edilməyibsə, ev sahibi komanda qonaq azarkeşləri yarış məkanına buraxmaya bilər.
**44.2.3.** 44.2.1 və 44.2.2. maddələrinin tələbləri yerinə yetirildikdən sonra yarış məkanına buraxılmış və tribunada onlar üçün ayrılmış yerlərdə yerləşmiş qonaq komanda azarkeşlərinin tələblərə zidd davranışlarına və hərəkətlərinə görə məsuliyyət qonaq komandanın üzərindədir.
**44.2.4.** Azərkəş qrupu mövsüm öncəsi klub tərəfindən bəyam edilməyibsə, onların klub mənsubluğu geyimləri və səsləndirdikləri şüarlarla müəyyən olunacaqdır.

## VI FƏSİL. ABL-İN İMİCİ

### 45. Əsas müddəalar

**45.1.** ABL klubları reytinqlərini, peşakar nüfuzlarını, işgüzar əlaqələrini inkişaf etdirməyə çalışmalıdırlar. Klublar öz sponsorları və liqanın sponsorları ilə qarşılıqlı hörmət əsasında səmərəli, işgüzar fəaliyyət yaratmalıdırlar. Klublar öz imiclərinə, liqanın imicinə daim hörmətlə yanaşmalı və imici möhkəmləndirməlidirlər.

2025-2026

**45.1.1.** ABL iştirakçıları öz davranışlarında etik normalara riayət etməli və liqanın nüfuzuna xələl gətirə biləcək hərəkətlərə yol verməməlidirlər.
**45.1.2.** Liqanın bütün iştirakçıları ölkə qanunlarının pozulmasına, idman etik norma və qaydalarının pozulmasına göz yummamalı, bu hərəkətlərə yol verməməlidirlər. Eləcə də Azərbaycan Basketbol Federasiyasının nizam-intizam və etika tələblərinə riayət etməlidirlər.
**45.2.** ABL və klublar arasında qarşılıqlı işgüzar münasibətlərin qurulması
**45.2.1.** Liqa və klublar arasında qarşılıqlı işgüzar əlaqələrin qurulması və vaxtlı-vaxtında informasiya mübadiləsinin aparılması, yaranmış sualların 24 saat ərzində qarşılıqlı cavablandırılması vacibdir.
**45.2.2.** Liqa və klublar arasında informasiya mübadiləsi, rəsmi yazışmalar tərəflər arasında öncədən təsdiqlənmiş ünvanlar üzrə aparılır.
**45.3.** ABL, ABL klublarının və ABL iştirakçılarının loqotiplərindən istifadə
**45.3.1.** Özünüreklam məqsədilə ABL ABL klublarının loqotiplərindən və adlarından məhdudiyyətsiz istifadə edə bilər.
**45.3.2.** ABL həmçinin öz tərəfdaşlarına klubların loqotipləri və başqa atributlarından istifadə etməsinə icazə verə bilər.
**45.3.3.** ABL-in təşkil etdiyi tədbirlərdə, reklam tədbirlərində və kampaniyalarda liqanın bütün klubları iştirak etməli və liqanı təbliğ etməlidirlər.
**45.3.4.** Klublar özlərinin reklam çarxlarında, eləcə də digər təbliğat vasitələrində ABL loqotipindən mütləq istifadə etməlidirlər.
**45.4.** ABL tərəfindən təşkil olunmuş sosial reklam xarakterli layihələrdə iştirak
**45.4.1.** ABL klub məşqçiləri il ərzində liqa tərəfindən təşkil olunan toplantı, iclas və tədbirlərdə (dəvət olunduqları hallarda) mütləq iştirak etməlidirlər.
**45.4.2.** ABL iştirakçıları, klub nümayəndələri liqa tərəfindən təşkil olunan müxtəlif lahiyələrdə, tədbirlərdə, reklam çəkilişlərində, mətbuat konfranslarında, foto və videoçəkilişlərdə, rəsmi qəbullarda və digər tədbirlərdə (dəvət olunarlarsa) iştirak etməlidirlər.
**45.4.3.** ABL klubları 01 oktyabr 2024-cü il tarixindən gec olmayaraq komanda üzvlərinin (oyunçular, məşqçilər, digər rəsmi şəxslər) fotoşəkillərinin çəkilməsi məqsədilə ABL nümayəndələri və KİV üçün lazımı şərait yaratmalıdır. Foto və videoçəkilişlər və eləcə də müsahibələrin verilməsi klubun oyun formalarında və ya rəsmi geyimində keçirilməlidir.
**45.4.4.** Klublar və onların üzvləri ABL baş sponsorunun və ya sponsorların təşkil etdiyi özünüreklam və digər tədbirlərində iştirak etməyə borcludurlar; o halda ki bu tədbirlər baş sponsorun və sponsorların mənafeyinə uyğun olsun. Tədbirlərin sayı və keçirilmə vaxtı əvvəlcədən klubla qarşılıqlı razılıq əsasında müəyyən edilir.
**45.4.5.** Klub ABL təşkil etdiyi bütün layihə və tədbirlərdə iştirak etməlidir. Bunun üçün klub 01 oktyabr 2024-cü il tarixinədək bu istiqamətdə fəaliyyət göstərəcək məsul şəxs təyin etməli, məsul şəxs haqqında şəxsi məlumatları 01 oktyabr 2024-cü il tarixinədək ABL-ə təqdim etməlidir.

2025-2026

**45.4.6.** Əgər klub üzrlü səbəblər göstərmədən öz nümayəndələrinin ABL və baş sponsorlar tərəfindən təşkil olunmuş tədbirlərə qatılmasını təmin etmirsə, o zaman klub mövcud Əsasnamənin tələblərinə uyğun intizam cəzalarına cəlb olunur.

**45.5.** Sayt və sosial şəbəkələr

**45.5.1.** Klublar özləri haqqında aktual informasiyanın verilməsi, çempionat və klub haqqında xəbərlərin çatdırılması üçün daimi fəaliyyət göstərən veb və sosial (feysbuk, instaqram və s.) səhifəyə malik olmalıdır. Klub və liqa haqqında məlumatları paylaşmaq üçün klublar ən azı bir sosial şəbəkə səhifəsinə sahib olmalıdırlar.

**45.5.2.** Klublar öz internet və ya sosial media səhifələrində ABF və ABL haqqında informasiyalar yerləşdirərkən mütləq şəkildə liqanın adını düzgün işıqlandırmalıdırlar.

**45.5.3.** ABF və ABL kommersiya maraqları güdmədən klubların səhifələrindəki informasiyalardan istifadə edə bilər.

## 46. İctimaiyyətlə əlaqələr

**46.1.** Əsas müddəalar

**46.1.1.** Liqa iştirakçıları: informasiya yaradıcıları, onu yayanlar, jurnalistlər, ictimai informasiya daşıyıcıları və onu yayanlar Azərbaycan Respublikası Qanunlarına, Konstusiyasına, humanizim prinsiplərinə, söz və fikir azadlığına, etik davranış qaydalarına, yaradıcılıq və vicdan azadlığı haqqında qanunun tələblərinə riayət etməlidirlər.

**46.1.2.** ABL iştirakçıları etik normalar çərçivəsində davranmalı, informasiya verərkən həmin informasiyanın doğruluğuna əmin olmalıdır. ABL iştirakçılarına, liqanın digər iştirakçılarına, hakimlərinə, klub nümayəndələrinə, mətbuat nümayəndələrinə, azarkeşlərə, ABF və ABL nümayəndələrinə açıq şəkildə və mətbuat vasitəsilə (il ərzində mətbuat konfranslarında, sosial şəbəkələrdə, müsahibələrdə, məqalələrdə, çıxışlarda və s.) hədə-qorxu gəlmək, təhqir etmək, hörmətsizlik etmək qəti qadağandır. ABL iştirakçıları ictimai yerlərdə, KİV-də, sosial şəbəkələrdə liqanın və klubların imicinə, nüfuzuna, maraqlarına və mənafeyinə xələl gətirəcək çıxışlardan çəkinməlidirlər.

**46.1.3.** ABL iştirakçısına açıq şəkildə hədə-qorxu gəlmək, təhqir etmək, dəqiq olmayan informasiyanı yaymaq, fiziki və hüquqi şəxslərin nüfuzuna xələl gətirəcək məlumatları, xəbərləri ictimaiyələşdirmək qadağan edilir. ABL iştirakçılarına digər iştirakçılara qarşı şəxsiyyəti alçaldan hərəkətlərə yol vermək qadağandır.

**46.1.4.** ABL iştirakçıların vəzifə səlahiyyətləri: ABL iştirakçısı vəzifə borcunu yerinə yetirmədikdə, səhlənkarlıq etdikdə, vəzifə səlahiyyətlərinə uyğun olmayan hərəkətlərə yol verdikdə, ilk növbədə, yuxarıda göstərilən ziddiyyətli hərəkətlərə yol verən iştirakçılar və ya əməkdaşlar bu Əsasnamənin tələblərinə uyğun olaraq araşdırmalara cəlb olunmalı və barələrində intizam tədbirləri haqqında qərarlar qəbul olunmalıdır.

2025-2026

**46.1.5.** Əsasnamədə göstərilən tələbləri pozan və bu tələblərə riayət etməyən (etməkdən boyun qaçıran) liqa iştirakçıları Əsasnamədə nəzərdə tutulmuş intizam cəzalarına cəlb olunurlar.

**46.2.** ABL klubunun səlahiyyətli nümayəndəsi

**46.2.1.** KİV, ABF və ABL idarə heyəti ilə effektiv informasiya mübadiləsi və əməkdaşlıq etmək üçün klubların mətbuat katibi olmalıdır. Mətbuat katibi kluba (komandaya) aid yazışmaları, foto və videoçəkilişləri, digər yazışmaları (elektron formada) ABL və KİV nümayəndələrinə vaxtında ötürməlidir.

**46.2.2.** Mətbuat katibi vəzifəsinə klubda başqa fəaliyyət ilə məşğul olan digər əməkdaşlardan biri də təyin oluna bilər.

**46.2.3.** Klubun mətbuat katibi oyundan sonrakı mətbuat konfransını idarə etməli, əlaqələndirməlidir.

**46.3.** Mətbuat konfransı, KİV nümayəndələrinin, komandanın məşqlərinə və paltardəyişmə otaqlarına daxil olma qaydaları

**46.3.1.** Komandalar oyundan əvvəl, böyük fasilə zamanı və oyun başa çatdıqdan sonra məşqçilərin, lider oyunçuların və rəsmi şəxslərin ABL-in yaradıcı heyətinə müsahibənin verilməsi, foto və videoçəkilişlərin aparılması üçün yarış məkanında xüsusi ayrılmış yerlərə gəlmələrini təmin etməlidirlər.

**46.3.2.** Mətbuat konfransı oyun başa çatdıqdan sonra 15 dəqiqədən gec olmayaraq mətbuat katiblərinin moderatorluğunda başlamalıdır. Komandaların məşqçiləri və hər komandadan (əgər dəvət olunublarsa) bir oyunçu olmaqla mətbuat konfransında iştirak etməlidirlər.

**46.3.3.** Mətbuat konfransına ilk olaraq nominal qonaq komandanın məşqçisi və dəvət olunubsa, bir oyunçusu çıxır. Nominal meydan sahibi komandanın məşqçisi və oyunçusu qonaq komandanın nümayəndələri sualları cavablandırıb mətbuat konfransını bitirdikdən sonra konfrans yerinə daxil olurlar.

**46.3.4.** Əgər hər hansı bir komandanın məşqçisi və oyunçusu başqa dildə danışırsa, o zaman klub nümayəndəsi (tərcüməçisi) içəridə olmalı, danışılanları Azərbaycan dilinə tərcümə etməlidir.

**46.3.5.** Mətbuat konfransında əvvəlcə mətbuat katibi çıxış edir, ardınca oyunçu (əgər dəvət olunubsa), daha sonra məşqçi çıxış edir. Çıxışlar bitdikdən sonra KİV nümayəndələrinin sualları cavablandırılır.

**46.3.6.** Mətbuat konfransı keçirilən yerə birinci nominal qonaq komandanın nümayəndələri daxil olur. Qonaq komandanın mətbuat konfransı bitdikdən sonra nominal meydan sahibinin nümayəndələri məkana daxil olurlar.

**46.3.7.** Mətbuat konfransının Əsasnaməsi 46.3.5. bəndində olduğu ardıcıllıqla keçirilir.

**46.3.8.** Planlaşdırılan təqvim oyundan bir gün əvvəl ABL klubu liqanın operatoru və jurnalistinə komandanın məşqində çəkiliş etməyə, müxbiri maraqlandıran suallara oyunçulardan cavab almağa icazə verməlidir. Klub operatora məşqin başlanğıc hissəsində və ya tamamlanma hissəsində 15 dəqiqəlik videoçəkiliş etməsi üçün

2025-2026

imkan yaratmalıdır. Bu bəndin tələbləri çempionatın bütün mərhələlərində keçərlidir.

**46.3.9.** Pley-off mərhələsində klublar akkreditasiya vərəqələri olan KİV nümayəndələri üçün komandaların paltardəyişmə otaqlarına 5-10 dəqiqə müddətinə daxil olmaları və oyunçulardan müsahibə almaları üçün imkan yaratmalıdırlar. KİV nümayəndələri paltardəyişmə otaqlarına yalnız oyun bitdikdən sonra komandaların nümayəndələrinin icazəsi ilə daxil ola bilərlər. Bu bəndin tələbləri yalnız pley-off mərhələsi oyunları üçün nəzərdə tutulmuşdur. Adi çempionat oyunlarında mətbuat nümayəndələrinin paltardəyişmə otaqlarına daxil olması üçün ABF rəhbərliyi klublara oyun gününə ən azı üç gün qalmış yazılı məlumat verməlidir ki, bu bəndin tələbləri yerinə yetirilsin.

**46.4.** Reklam və xəbərlərin dərc edilməsi

**46.4.1.** Klub nümayəndələri (mətbuat katibləri) ABL dərc etdiyi xəbərləri klublara və liqaya aid olan tədbirlər haqqında məlumatları (xəbər, videoçəkiliş, müsahibə, sorğu və s.) öz səhifələrində (feysbuk, tvitter, instaqram) işıqlandırmalıdırlar.

**46.4.2.** Yeni oyunçu və ya məşqçi ilə müqaviləyə imza atmış klub bu hadisənin ictimaiyyətə çatdırılmasından əvvəl ABF rəhbərliyinə bu barədə dərhal məlumat verməlidir. Oyunçunun və ya məşqçinin adını soyadını yazılı formada ABF idman direktoruna təqdim etməlidir.

**47. Televiziya. Televiziya yayımları ilə ABL klublarının öhdəlikləri**

**47.1.** Televiziya vasitəsilə yayımlanması nəzərdə tutulan oyunların ABF rəhbərliyi ilə yayımçı TV nümayəndəsi arasında razılaşdırılır.

**47.2.** TV vasitəsilə yayımlanan oyun vaxtı hər bir komandaya sponsorlarını reklam etmək üçün 30 (otuz) saniyə vaxt verilir. (Telekanalın razılığı ilə)

**47.3.** TV yayımı üçün şəraitin yaradılması

**47.4.** Təşkilatçı canlı yayım vaxtı çəkiliş məkanında maneəsiz davamlı internetə çıxışı təmin etməlidir.

**47.5.** Klub nümayəndələrinin canlı yayım vaxtı müsahibələri

**47.5.1.** Oyun canlı yayımlanarsa, oyundan əvvəl, oyun vaxtı, oyundan sonra iştirakçılar, məşqçilər, məşqçi köməkçiləri, oyunçular və komandanın digər rəsmi nümayəndələri reportajın şərhçisinə və müxbirinə müsahibə verməlidirlər.

**47.5.2.** Canlı yayımdan əvvəl klublar ABL operatorunu və müxbirini bir dəqiqə müddətinə paltardəyişmə otaqlarına daxil olmalarına icazə verməlidirlər.

**47.5.3.** TV vasitəsilə canlı yayım başa çatdıqdan sonra klublar ABL operatorunu və müxbirini paltardəyişmə otaqlarına daxil olmalarına icazə verməlidirlər.

**47.5.4.** ABF rəhbərliyi bu Əsasnamənin 47.5.3. bəndinin tələblərini yerinə yetirilməsinin məcburi olduğu barədə klublara əvvəlcədən məlumat verməlidir.

**47.6.** Oyunun başlanmasına 2-3 saat qalmış klub nümayəndələri məşqçilər və oyunçular KİV nümayəndələrinə müsahibə verməlidirlər.

2025 - 2026

**48. Reklam**

**48.1.** Basketbol meydançasında və meydançanın girişində ABL reklamları və eləcə də sponsorların reklamları yerləşdirilir.

**48.2.** ABL çempionatının oyunları keçirildiyi yerdə meydançada başqa liqaların reklam lövhələri, banerləri, eləcə də reklam yazıları olmamalıdır.

**48.3.** ABL ilə əməkdaşlıq edən TV şirkəti ilə rəqabətdə olan digər TV-lərin reklamının yarış məkanında olması qadağandır.

**48.4.** Oyun meydançası və meydançaya keçidlərdə reklam yerləşdirilməsi

**48.4.1.** Meydançada yerləşdirilən reklamlar məhdudiyyət xətlərindən ən azı 20 sm aralıda yerləşdirilməlidir. Meydançada məhdudiyyət xətləri bütün. istiqamətlərdən aydın görünməlidir.

**48.4.2.** Basketbol meydançasında reklamların sayına məhdudiyyət qoyulmur. Lakin reklam elə yerləşdirilməlidir ki, ABL reklamı ilə klub reklamı arasında 2 metr enində boş sahə qalsın.

**48.4.3.** Reklamların meydançanın yan və ön xətləri kənarında yerləşdirilməsi tövsiyə olunur. Belə olarsa, oyun meydançasında yapışqan materiallardan az istifadə olunar.

**48.4.4.** Klubların sponsorlarına meydançaya yapışdırılan reklam vasitələrinin fonsuz şəkildə hazırlanması tövsiyə olunur. Belə olarsa, meydanın döşəməsi görünüşünü qoruyub-saxlayar.

**48.4.5.** Meydanda yerləşdirilən digər reklamlar hesab lövhəsinin, oyun saatının və 24 saniyəlik monitorun görüntüsünə manеə yaratmamalıdır.

**48.4.6.** Meydanın mərkəz dairəsi və hər iki yarım hissəsinin ön tərəfində diaqonal olaraq reklam yerləşdirmək olar. Reklamın yerləşdirilməsinə ABL idarə heyəti qərar verir.

**48.4.7.** Cərimə xətti üzərindəki yarımdairə və digər sahələrdə sponsorların reklamları yerləşdirilə bilər. Reklamın yerləşdirilməsinə ABL idarə heyəti qərar verir.

**48.4.8.** ABL çempionatın və liqanın baş sponsorlarının reklamları televiziya yayımı zamanı kameraların önündə meydançanın hər iki yarım hissəsində yan xəttin yaxınlığında yapışdırılır.

**48.4.9.** ABL bayrağı yarış keçirilən məkanda dövlət bayrağının yanında qaldırılır.

**48.4.10.** Klublar ABL sponsorlarının reklamlarının qorunmasına onlara texniki xidmətin göstərilməsinə məsuliyyət daşıyırlar.

**48.5.** Meydançanın texniki hazırlığı

**48.5.1.** Səbət bərkidilən lövhələrin üzərində hər hansı bir reklam vasitəsinin yerləşdirilməsi və ya yapışdırılması qadağandır.

**48.5.2.** ABL loqotipi olan yapışqan kağızdan hazırlanmış reklam vasitələri səbətin göyərtəsinin hər iki tərəfinə yapışdırılır.

**48.5.3.** Liqanın baş sponsorunun loqotipi olan yapışqan kağızdan hazırlanmış reklam vasitəsi hər iki lövhənin aşağı sağ hissəsində səbətin göyərtəsinə paralel yapışdırılır.

2025-2026

**48.5.4.** Başqa liqaların reklam vasitələrinin lövhəyə və səbətin göyərtəsinə yapışdırılması qadağandır.
**48.5.5.** Dirək konstruksiyalarının yumşaq qoruyucu hissələrində yalnız iki sponsorun reklamları yerləşdirilə bilər. Klubun loqotipi 30x30 sm ölçüdə hər iki dirəkdə qoruyucu vasitənin yuxarı tərəfində – sahənin ortasında yerləşdirilə bilər.
**48.5.6.** Dirək konstruksiyasının yuxarı hissəsində – lövhə bərkidilən hissədə bir reklam yerləşdirilə bilər. Reklamın hündürlüyü 40 , uzunluğu 100 sm-dən çox olmamalıdır.
**48.5.7.** Səbətin bərkidildiyi yerdə və lövhənin aşağı hissəsindəki qoruyucu yumşaq hissədə hər hansı bir reklamın yerləşdirilməsi qadağandır.
**48.5.8.** Hesab lövhəsi və 24 saniyəlik monitor üzərində reklamlar yerləşdirilə bilər. Bir şərtlə ki bu lövhənin və 24 saniyəlik monitorun görüntüsünə və təhlükəsizlik qaydalarına maneə yaratmasın.
**48.5.9.** Liqanın bütün oyunlarında rəsmi toplardan istifadə olunmalıdır.
**48.5.10.** Mövsüm ərzində topların saxlanılması və daşınması üçün torbalardan istifadə olunur.
**48.5.11.** Yarış məkanında oturacaqlarda və masalarda reklam yerləri ABL məxsusdur.
**48.6.** ABL, ABL sponsorlarının, ABL klublarının və ABL klublarının sponsorlarının işıqlı reklam lövhələrinin yerləşdirilməsi
**48.6.1.** Yarış məkanında standartlara uyğun diodlu işiq reklam lövhələrindən istifadə olunmalıdır. Lövhələrin hündürlüyü 80-90 sm olmalıdır. Seqmentin ümumi minimal uzunluğu 32 m təşkil edir.
**48.6.2.** ABL reklamları, ABL sponsorlarının reklamları, klubların reklamları, klub sponsorlarının reklamları standart diodlu işiq reklam lövhələrində yerləşdirilməlidir. Reklam lövhələri oyun meydançasının ətrafında quraşdırılmalıdır. ABL və ABL sponsorunun reklamları mütləq şəkildə meydançanın uzunluğu istiqamətində yerləşdirilməlidir.
**48.6.3.** Standartlara uyğun olmayan lövhələrdə və ya monitorlarda reklam yerləşdirmək mütləq şəkildə ABL rəhbərliyi ilə razılaşdırılmalıdır.
**48.7.** ABL-in, ABL sponsorunun, klubların və klub sponsorlarının suvenirləri, reklam materialları
**48.7.1.** ABL məhsullarının istehsalı və satışına yeganə məsul təşkilat ABL-dir.
**48.7.2.** Klublar, ABL məhsullarının təbliğ edilməsi və satışı üçün ABL ilə əməkdaşlıq edirlər.
**48.7.3.** ABL klub atributlarının təbliği, istehsalı və satış hüququnu özündə saxlayır.
**48.7.4.** Klublar ABL və ABL sponsorlarının təbliğ edilməsi və məhsulların satışı üçün onlara aid məkanlardan istifadə edilməsi üçün ABL və ABL sponsorları ilə təmanasız əməkdaşlıq etməlidirlər.
**48.8.** Oyunlara biletlərin və dəvətnamələrin verilməsi qaydaları

**48.8.1.** ABL çempionat oyunlarına tamaşaçılar üçün biletlərin və dəvətnamələrin verilməsi qaydalarını ABL idarə heyəti müəyyən edir.
**48.8.2.** ABL klubları ev oyunları zamanı hakimlərin, masa hakimlərinin və inspektorun vəzifələrini icra etmələri üçün lazımı iş şəraiti yaratmalıdırlar.
**48.9.** Mətbuat konfransı üçün yerin hazırlanması
**48.9.1.** Mətbuat konfransı üçün otaq keyfiyyətli səs izolyasiyasına malik olmalıdır.
**48.9.2.** Mətbuat konfransı zamanı konfrans otağında ABL və klub sponsorlarının adları həkk olunmuş möhkəm materialdan hazırlanmış pərdə banner olmalıdır. Həmin banner ABL-in marketinq üzrə meneceri ilə razılaşdırılaraq hazırlanır.
**48.9.3.** ABL və ABL klublarının sponsorlarının loqotipləri həkk olunmuş daşınan reklam lövhəsi meydançanın girişində quraşdırılır. Daşınan reklam lövhəsi bütün TV yayımları və müsahibələr zamanı istifadə olunmalıdır.
**48.10.** ABL rəqs qruplarının geyimləri üzərində reklam mövqeyinə malikdir (əgər qrupların geyimləri ABL vəsaiti hesabına əldə olunarsa).

## VII FƏSİL. HAKİMLƏR

### 49. ABL hakimlər xidmətinin rəhbəri

**49.1.** Oyunlarda hakimlərin işinin təşkili və onların oyunlara təyinatı liqanın hakimlər xidmətinin rəhbəri tərəfindən həyata keçirilir.
**49.2.** Hakimlər xidmətinin rəhbəri hakimlərin, inspektorların və eləcə də masa hakimlərinin mövsümdən əvvəl və mövsüm ərzində hazırlıqları ilə məşğul olur.
**49.3.** Hakimlər xidmətinin rəhbəri liqanın bütün çempionat oyunlarına baxış keçirir.
49.4. Hakimlər xidmətinin rəhbəri ABL direktoru və ABL idman direktorunun iştirakı ilə hakimlərin, inspektorların və masa hakimlərinin işini dəyərləndirir.
**49.5.** Hakimlər xidmətinin rəhbəri inspektorların hesabatını aşağıdakı ardıcıllıqla klublara təqdim etməlidir.
a) müntəzəm çempionat oyunlarında 72 saatdan gec olmayaraq;
b) pley-off mərhələsində əgər klublar hər hansı bir epizodun və vəziyyətin izahını tələb edərsə, xidmət rəhbəri 24 saatdan gec olmayaraq epizodu və vəziyyəti araşdıraraq araşdırmanın nəticəsi barədə məlumat verməlidir.
**49.6.** Hakimlər xidmətinin rəhbəri hakimlərə, inspektorlara və masa hakimlərinə keyfiyyətsiz idarəçiliyə görə inzibati cəzalar tətbiq edə bilər. Bunun üçün ABL idman direktoru xidmət rəhbərliyinə təqdimat verməlidir.

### 50. Hakimlərə qoyulan tələblər

**50.1.** ABL çempionatında xidmət göstərən hakimlər mütləq şəkildə ABF hakimlər kollegiyasının üzvü olmalı, fiziki, texniki və nəzəri hazırlıq kurslarını tam keçmiş və ABF hakimlər kollegiyasının müvafiq lisenziyasına malik olmalıdırlar.
**50.2**. Oyunu üç hakim idarə edir; onlardan biri oyunun baş hakimi hesab olunur.

2025-2026

**50.3.** Hakimlər, masa hakimləri və inspektorlar oyunları FIBA-nın rəsmi oyun qaydalarının və FIBA-nın rəsmi oyun interpretasiyasının tələblərinə uyğun təşkil etməli və idarə etməlidirlər. Hakimlər briqadası FIBA qaydaları, interpretasiyası və bu Əsasnamənin tələblərindən kənara çıxa bilməzlər.
**50.4.** ABL-də xidmət göstərən hakimlər liqada iştirak edən klublarla hər hansı bir əməkdaşlıq edə bilməzlər.
**50.5.** Hakimlərə oyundan əvvəl və sonra klub nümayəndələri ilə hər hansı bir tədbirdə iştirak etmək qadağandır.
**50.6.** Hakimlər liqanın tələblərinə uyğun müvafiq geyimdə olmalıdırlar.
**50.7.** Hakimlər onlara ABL tərəfindən təqdim olunmuş geyimləri geyinməlidirlər. Onlar o geyimlərdən başqa tədbirlərdə də istifadə edə bilərlər. Bunun üçün ABL idman direktorunun və ABL direktorunun icazəsi olmalıdır.
**50.8.** Əgər ABL rəhbərliyinin razılığı yoxdursa, hakimlərin geyimində hər hansı bir reklam yerləşdirilə bilməz.
**50.9.** Hakimlərə klub nümayəndələrindən hədiyyə qismində hər hansı bir şeyi qəbul etmək və ya tələb etmək qadağandır. Klub atributları olan suvenirlər hədiyyə hesab olunmur.
**50.10.** Oyun günü hakimlərə, masa hakimlərinə və inspektorlara alkoqollu içkilər qəbul etmək qadağandır.
**50.11.** Hakimlər, masa hakimləri və inspektorlar ABL Əsasnaməsinin və FIBA oyun qaydalarının tələblərinə riayət etmədikdə onlara qarşı inzibati cəza və cərimələr tətbiq olunur.

**51. Hakimlərin vəzifələri**
**51.1.** Baş hakimin və köməkçi hakimlərin hüquq və vəzifələri FIBA-nın rəsmi oyun qaydalarının tələblərinə uyğun nizamlanır.
**51.2.** Yarış yerinə oyunun başlanmasına ən azı 60 dəqiqə qalmış gəlməlidir. Oyunun başlanmasına ən azı 20 dəqiqə qalmış oyunun bütün hakimləri meydançada öz yerlərini tutmalıdırlar.
**51.3.** Oyunun protokoluna yalnız oyun üçün sifariş olunmuş, qeydiyyatdan keçmiş, oyuna hazır oyunçuların adları daxil edilməlidir.
**51.4.** Oyun vaxtı komandanın ehtiyat oyunçular zonasında 24 (iyirmi dörd) nəfərdən çox olmamaqla ABL lisenziyası olan klub nümayəndəsi yerləşə bilər – adları oyun protokoluna daxil edilmiş 12 (on iki) oyunçu, iki məşqçi və on nəfər komandanı müşayiət edən digər rəsmi şəxslər (həkimlər, masajçılar, xidmətçilər, klub rəsmiləri və başqaları).
**51.5.** Oyunun baş hakimi ehtiyat oyunçular zonasında yerləşənlərin şəxsiyyətini, sayını və lisenziyalarını yoxlamaq hüququna malikdir. Adları ABL idman direktoru tərəfindən təsdiq edilmiş adlı siyahıda olmayan şəxslər ehtiyat oyunçular zonasından kənarlaşdırılır.

2025-2026

**51.6.** Baş hakim tərəfindən aşkar edilən pozuntular oyunun protokolunun arxa tərəfində qeyd olunur.
**51.7.** Oyun başa çatdıqdan sonra 48 saatdan gec olmayaraq hakimlər briqadası öz işlərinin yekunu barədə hesabatı hakimlər xidmətinin rəhbərinə təqdim etməlidirlər.
**51.8.** ABL idman direktorunun tələbi ilə oyunun baş hakimi və hakimlər xidmətinin rəhbəri oyunda baş verən mübahisəli hallar və Əsasnamə pozuntuları barədə liqa rəhbərliyinə 24 saat ərzində yazılı məlumat (izahat) verməlidirlər.

**52. ABF nümayəndəsi**
**52.1.** ABF nümayəndəsi oyun vaxtı ABL rəsmi nümayəndəsi hesab olunur. ABF nümayəndəsi oyun meydan hakimləri, masa hakimləri və komanda nümayəndələri ilə ABL Əsasnamənin və FIBA oyun qaydalarının tələblərinə riayət olunması üçün əməkdaşlıq edir.
**52.2.** Yarış təşkilatçısı ABF nümayəndəsinin iş yerini elə təşkil etməlidir ki, oyunun görüntüsü hakimlərin, masa hakimlərinin fəaliyyətini, eləcə də hesab lövhəsi vaxt və 24 saniyə ölçən monitoru aydın izləyə bilsin.
**52.3.** Oyun zamanı, məsələn, masa hakimlərinin səhlənkarlığı ucbatından hər hansı qaydadankənar hal baş verərsə (hesab lövhəsində, oyun vaxtında, 24 saniyə ölçən cihazda) və bu hal aradan qaldırılmazsa, o zaman ABF nümayəndəsi masa hakimlərinin yanında oturmaq və onların işinə nəzarət etmək hüququna malikdir (bax: FIBA rəsmi qaydaları komissarı).
**52.4.** ABF nümayəndəsi oyundan əvvəl və oyundan sonra iştirakçı komandaların təşkil etdiyi hər hansı bir tədbirdə iştirak etmək qadağandır.
**52.5.** Əgər oyuna ABF nümayəndəsi təyin olunmayıbsa və ya təyin olunubsa, müəyyən səbəblərdən oyunda iştirak etmirsə, o zaman ABF nümayəndəsi səlahiyyətlərini oyunun baş hakimi icra edir.
**52.6.** Oyun vaxtı komandanın ehtiyat oyunçular zonasında 24 (iyirmi dörd) nəfər yerləşə bilər. Onlardan oyun protokoluna adları daxil edilmiş 12 (on iki) oyunçu və iki məşqçi digər 10 nəfər isə protokola adları yazılmayan klub nümayəndələridir.
**52.7.** Komandaların ehtiyat oyunçular zonasında yerləşən şəxslərin şəxsiyyətini və lisenziyalarını, say tərkibini yoxlamaq ABF nümayəndəsinin birbaşa vəzifə borcudur. Əgər yoxlama zamanı hər hansı bir pozuntu aşkar edilərsə, ABF nümayəndəsi ehtiyat oyunçular zonasında yerləşmə hüququ olmayan şəxsləri dərhal həmin zonadan kənarlaşdırmalıdır.
**52.8.** Oyunun ilk yarısı başa çatdıqdan sonra ABF nümayəndəsi yarış məkanında iştirak edən tamaşaçıların sayını dəqiqləşdirməlidir.
**52.9.** Oyun başa çatdıqdan sonra ABF nümayəndəsi oyun protokolunun və oyunun statistik nəticələri olan protokolun şəklini çəkərək ABL idman direktoruna 24 (iyirmi dörd) saat ərzində göndərməlidir. Oyunun protokollarının əsli isə 3 (üç) gün ərzində ABL ofisinə çatdırılmalıdır.

2025-2026

**52.10.** Oyun iştirakçısı olan komandalardan hər hansı birinin oyunun nəticəsinə etirazı olarsa, komandalardan hər hansı birinin özünü adekvat aparmaması nəticəsində Əsasnamə kobud şəkildə pozularsa, o zaman oyunun ABF nümayəndəsi və ya baş hakim (əgər o ABF nümayəndəsi vəzifəsini icra edirsə) baş verən hadisə barədə ABL idman direktoruna telefon vasitəsilə məlumat verməlidir (məlumat oyun başa çatdıqdan sonra 1 (bir) saat ərzində verilməlidir).
**52.11.** Əgər oyun vaxtı dopinq yoxlaması aparılarsa, bu barədə ABF nümayəndəsi oyun protokolunun arxa tərəfində qeyd aparmalıdır.
**52.12.** Oyun bitdikdən sonra ABF nümayəndəsi əmin olmalıdır ki, oyun iştirakçısı komandalar oyun protokollarının surətlərini almışlar.
**52.13.** Müntəzəm çempionat oyunudursa, oyun başa çatdıqdan sonra 48 (qırx səkkiz) saat ərzində, pley-off oyunudursa, 24 (iyirmi dörd) saatdan gec olmayaraq ABF nümayəndəsi elektron poçt vasitəsilə oyunda baş vermiş pozuntular haqqında ABL idman direktoruna yazılı məlumat göndərməlidir.
**52.14.** Oyun başa çatdıqdan sonra 72 (yetmiş iki) saat ərzində ABF nümayəndəsi oyun haqqında hesabatı hakimlər xidmətinin rəhbərinə təqdim etməlidir.
**52.14.1.** Hesabatda edilən qeydlər dəqiq və qərəzsiz olmalıdır.
**52.14.2.** Hakimlərin işi mövsümdən əvvəl müəyyən olunmuş istiqamətlər üzrə qiymətləndirilir.
**52.14.3.** Oyunun ABF nümayəndəsi hakimlərin işini qiymətləndirərkən qısa və konkret qeydlər etməlidir (yaxşı və ya pis). Hakim işinin keyfiyyəti verilmiş qərar (konkret vəziyyətlərdə və epizodlarda) hissələr üzrə və oyun vaxtı göstərilməklə qeyd edilir.
**52.14.4.** Əgər oyun vaxtı ABL Əsasnaməsi və FIBA qaydalarının tələbləri kobud şəkildə pozularsa, ABF nümayəndəsi öz hesabatında pozuntular barədə geniş məlumat (izah) verməlidir.
**52.15.** Oyunun ABF nümayəndəsi ABL Əsasnaməsinə və FIBA qaydalarının tələblərinə riayət etməzsə, onun barəsində inzibati ölçülər götürüləcəkdir.

## 53. Masa hakimləri

**53.1.** ABL hakimlər xidməti ABL oyunlarını tələb olunan sayda masa hakimləri ilə təmin etməlidir.
**53.2.** Masa hakimləri heyəti bu şəxslərdən ibarətdir: katib, katib köməkçisi (tablo operatoru), saniyəölçən, hücum operatoru (24 / 14 saniyə), informasiya katibi (diktor, informator) və 3 nəfər statistika operatoru.
**53.3.** Masa hakimləri: katib, katib köməkçisi, hücum operatoru, informator, saniyəölçən və statistika operatorları ABF tərəfindən təşkil olunmuş mövsümdən əvvəlki seminarlarda iştirak etməlidirlər və seminarda "A" kateqoriyası alan şəxslər ABL-də masa rəsmisi kimi işləyə bilərlər (istisna hallar ola bilər ki, B və C kateqoriyası olanlar işləyə bilər). Masa hakimlərinin iş yeri meydanın mərkəzinə paralel yan xətt arxasında yerləşir.

**53.4.** Oyunun başlamasına ən geci 40 dəqiqə qalmış klub nümayəndələri yarış iştirakçılarının, oyunçuların, məşqçilərin və digər rəsmi şəxslərin ABL idman direktoru tərəfindən təsdiq olunmuş siyahısını və lisenziyaları masa hakimlərinə təqdim etməlidirlər.
**53.5.** Oyun vaxtı masa hakimləri tam heyətlə ABL tərəfindən onlara təqdim olunmuş xüsusi geyimlərdə olmalıdırlar.
**53.6.** ABL Əsasnaməsi və FIBA rəsmi qaydalarının tələbləri pozularsa, masa hakimləri və oyunu idarə edən digər şəxslər barədə inzibati cəzalar qəbul edilə bilər.

### 54. Statistika operatorları

**54.1.** ABL oyunlarında statistikanın aparılması üçün yüksək səviyyəli mütəxəssislərdən istifadə edilir.
**54.2.** Statistika operatorları üçün seminar və kurslar ABL hakimlər xidməti tərəfindən təşkil edilir. Bütün statistika operatorlarının seminar və kurslarda iştirakı mütləqdir.
**54.3.** Statistika operatorları hər bir hissədən sonra və oyun başa çatdıqdan sonra oyunun statistik nəticələrini çap edərək protokolları oyun iştirakçılarına və inspektora təqdim etməlidirlər.
**54.4.** Statistika operatorları statistika protokollarını dolduraraq xüsusi təqdimata uyğun ABL-in internet səhifəsinə yerləşdirməlidirlər.
**54.5.** Statistika operatorları intizamsız davranış, vəzifələrini səhlənkar yerinə yetirmə, natamam hesabat və qeyri-dəqiq statistik qeydlərə yol verərlərsə, onların bu hərəkətləri inzibati cəzalara səbəb ola bilər.

## VIII FƏSİL. ETİRAZETMƏ QAYDALARI

### 55. Etirazetmə proseduru

**55.1.** ABL çempionatında etirazetmə prosedurları FIBA rəsmi qaydalarının tələblərinə uyğun həyata keçirilir.
**55.2.** Komandanın (klubun) mənafeyinə və maraqlarına toxunularsa, komandanın (klubun) etirazetmə hüququ var. Aşağıdakı hallar baş verərsə, komanda (klub) etiraz edə bilər:
a) katib, katib köməkçisi, hücum operatoru səhv edərsə, bu səhv hakimlər tərəfindən aradan qaldırılmazsa;
b) oynamaq hüququnun itirilməsi, səhv qərarın ləvğ edilməməsi, oyunun bərpa olunmaması və oyunun oynanılmaması hallarında;
c) oyunçuların, məşqçilərin və komandanın digər üzvlərinin qeydiyyata alınmasında prosedur pozuntuları olduqda.
**55.3.** Etiraz ərizəsinə baxılması üçün etiraz ərizəsinin düzgün tərtib edilməsi, prosedur qaydaları:

2025-2026

a) Oyun başa çatandan sonra 15 dəqiqə (gec olmayaraq) ərzində komandanın kapitanı görüşün baş hakiminə oyunun nəticəsi ilə razı olmadıqları barədə məlumat verməli və oyun protokolunda "etiraz olduğu halda kapitanın imzası" qrafasını imzalamalıdır.
b) Etiraz edən komanda 1 saat ərzində etirazın səbəblərini yazılı formada açıqlamaqla etiraz məktubunu ABL idman direktoruna təqdim etməlidir. Məktubda etiraza səbəb olan hallar və epizodlar geniş izah olunmalıdır.
c) Etirazın qüvvəyə minməsi və baxılması üçün etiraz edən komanda oyunun inspektoruna 1000 (bir min manat) AZN vəsaitin köçürülməsi barədə bank qəbzini təqdim etməlidir və ya nağd ödəniş etməlidirlər. Əgər klubun etirazı haqlı sayılarsa (təmin edilərsə), o zaman girov geri qaytarılır.
**55.4.** Oyunun inspektoru və baş hakim etiraza səbəb olan epizod və ya hadisələr haqqında liqanın idman direktoruna 1 saat ərzində geniş məlumat (izahat) verməlidirlər.
**55.5.** Etirazın təmin edilməsi və ya geri qaytarılması (təmin edilməməsi) haqqında qərarın verilməsi ABL Nizam-intizam Komissiyasının səlahiyyətindədir.
**55.6.** ABL Nizam-intizam Komissiyası birinci instansiya olaraq etirazların verildiyi andan etibarən 3 (üç) təqvim günü ərzində araşdırma aparıb qərar verməlidir.
**55.7.** Əgər etiraz edən komanda NİK-in verdiyi qərar ilə razılaşmazsa, o zaman komanda (klub) ABF-nin Etika, Nizam-intizam və Apellyasiya Komissiyasına apellyasiya şikayəti verə bilər (bax: bu Əsasnamənin 56.15. və 56.16. bəndləri).
**55.8.** Kluba təyin olunmuş cəriməyə etiraz olarsa, klub cərimə olunması haqqında bildirişi aldıqdan sonra 48 saat ərzində etirazını yazılı formada ABL idarə heyətinə təqdim etməlidir. Etiraz etmək üçün nəzərdə tutulmuş vaxt bitdikdən sonra etirazlar qəbul olunmur.

## IX FƏSİL. NİZAM-İNTİZAM BÖLMƏSİ: ƏSASNAMƏ TƏLƏBLƏRİNİN POZULMASINA GÖRƏ NİZAM-İNTİZAM SANKSİYALARI, CƏZALAR VƏ CƏRİMƏLƏR

### 56. Nizam-intizam bölməsi

**56.1.** Nizam-intizam bölməsinin fəaliyyəti ədalət prinsipləri, düzgünlük, etik normaların və bərabərliyin qorunması, bu Əsasnamənin tələbləri ABF İcraiyyə Komitəsinin qəbul etdiyi sənədlər və FIBA rəsmi oyun qaydalarının tələbləri əsasında qurulmuşdur.
**56.2.** Liqanın bütün iştirakçıları ABF İcraiyyə Komitəsinin və ABL etik normalarının, ədalətli oyun prinsiplərinin pozulması hallarından çəkinməlidirlər.
**56.3.** ABL Nizam-intizam Komissiyası və ABF idman direktoru nizam-intizam orqanları hesab olunur.
**56.3.1.** ABL Nizam-intizam Komissiyası 5 (beş) nəfər üzvdən ibarətdir. NİK üzvləri mövsüm öncəsi ABL idarə heyətinin iclasında bir mövsüm müddətinə seçilirlər.

2025-2026

NİK üzvü növbəti mövsümlərdə də komissiyanın üzvü seçilə bilər. Seçkilərdə iştirak sayına məhdudiyyət qoyulmur.
**56.4.** Birinci instansiyada ABL idman direktoru Əsasnamənin tələblərini, digər tələb və razılaşmaların pozulması hallarını araşdıraraq bu Əsasnamədə nəzərdə tutulmuş cəza, sanksiya və cərimələr təyin olunmasına qərar verir.
**56.5.** ABL direktorunun qərarları (56.12. maddənin tələblərinə aid qərar istisna olmaqla) Nizam-intizam Komissiyasının iclaslarında yenidən müzakirə oluna və qərar dəyişdirilə bilər.
**56.6.** Adətən NİK Əsasnamə pozuntularını (56.13. maddəsi istisna olmaqla) ikinci instansiyada müzakirə edir.
**56.7.** Birinci instansiya araşdırmasında hər hansı şübhə yarandığı halda, ABL direktoru ikinci instansiya araşdırması başladılması təşəbbüsü ilə NİK-ə müraciət edə bilər.
**56.8.** ABL Nizam-intizam Komissiyası şübhə yaranarsa, birinci instansiya qərarlarını araşdırılması üçün təşəbbüs göstərə bilər. Araşdırma nəticəsində NİK birinci instansiya qərarını ləvğ edə və pozuntu haqqında qərarı dəyişə bilər. Birinci instansiya ikinci instansiyanın verdiyi qərar ilə razılaşmazsa, o zaman üçüncü instansiyaya ABF-nin Etika Nizam-intizam və Apellyasiya Komissiyasına (ENİAK) qərarın araşdırılması üçün müraciət edə bilər. ABF-nin ENİAK-ı apellyasiya şikayəti daxil olduğu andan 7 (yeddi) təqvim günü ərzində araşdırma aparmalı və yekun qərar verməlidir.
**56.9.** ABL nizam-intizam orqanları ABF təşkilatçılığı ilə keçirilən yarışlarda ədalətli oyun prinsiplərinə, yarış iştirakçılarının, məşqçilərin və oyunçuların təmiz oyun prinsiplərinə riayət etmələrinə, nəzarət edir və Əsasnamə pozuntularının qarşısını almaq üçün fəaliyyət göstərir.
**56.10.** Nizam-intizam orqanlarının qəbul etdiyi qərarlar sənədləşdirilərək liqanın bütün iştirakçılarına təqdim olunur.
**56.11.** Əgər ABL iştirakçısı ABL direktoru qəbul etdiyi qərarla razılaşmırsa, o zaman o, ABL NİK-ə qərar qəbul olunduğu andan 3 (üç) gün ərzində apellyasiya şikayəti verə bilər. Bunun üçün şikayətçi (klub) 500 (beş yüz) AZN vəsaiti ABL hesabına köçürməli, köçürmə haqqında qəbzi şikayət ərizəsi ilə birlikdə təqdim etməlidir. Apellyasiya şikayəti daxil olduğu andan birinci instansiyanın qəbul etdiyi qərar müvəqqəti dondurulur. Əgər NİK şikayətçinin iddiasını təmin edərsə, girov geri qaytarılır.
**56.12.** ABL Əsasnaməsi tələblərinin pozulması hallarında ABL direktoru göstərilən maddələr üzrə sanksiya və cərimə cəzaları tətbiq edə bilər. Maddə 60.1., 60.2., 60.3., 60.4., 60.5., 60.6. (FIBA rəsmi qaydalarının tələblərinin pozulmasına görə cərimələr), 61.1., 61.2., 61.3., 61.4. (oyunçu üçün cərimələr və məşqçinin qeydiyyatı prosedurunda pozuntu), 62.1., 62.2., 62.3., 62.4., 62.5., 62.6., 62.7., 62.13., 62.14, 62.15, 62.16., 62.17., 62.18, 62.19., 62.20., 62.21., 62.22., 62.23 (ABL liqa oyunlarının keçirilməsi zamanı baş verən. pozuntulara görə cərimələr), 63.3 (oyun

yerində nöqsanlara görə), 66.1., 66.2., 66.3., (kommunikasiya nöqsanlarına görə cərimələr), 67.1 (ABL tədbirlərində iştirak etməmələrinə görə cərimələr) bu maddə üzrə cərimələrə görə apellyasiya şikayəti verilə bilməz.

**56.13.** Oyunun nəticəsinə etiraz olduğu halda etiraz ərizəsi verilərsə, ABL nizam-intizam orqanları etiraz ərizəsini birinci instansiyada müzakirə etməli və qısa zamanda qərar çıxarmalıdır.

**56.14.** Nizam-intizam Komissiyası tərəfindən tətbiq olunmuş cərimələr qəbul edilmiş hədləri keçməməlidir.

**56.15.** Nizam-intizam Komissiyasının qərarı, həmçinin təmin edilmiş və geri çevrilmiş iddialar üzrə şikayətlərə apellyasiya komissiyasında şikayətlər daxil olduğu andan 7 (yeddi) təqvim günü ərzində baxılmalıdır.

**56.16.** ABL iştirakçısı NİK-in qəbul etdiyi qərara etiraz edərsə, o zaman qərarın qəbul olunduğu andan etibarən 7 (yeddi) təqvim günü ərzində ABF-nin ENİAK-a apellyasiya şikayəti verə bilər. Bunun üçün şikayətçi tərəf ENİAK-ın hesabına 1000 (bir min) AZN zəmanət ödənişi etməlidir. Ödəniş haqqında qəbz ABF-nin ENİAK komissiyasına təqdim olunduqdan sonra NİK-in çıxardığı qərar müvəqqəti olaraq dayandırılır. Əgər ENİAK şikayətçinin apellyasiya şikayətini təmin edərsə, o zaman zəmanət girovu geri qaytarılır.

**56.17.** ABF-nin ENİAK-ı sonuncu instansiyada baş vermiş pozuntuların araşdırılması məsələlərinə baxır.

**56.18.** ABL NİK-i ABF-nin ENİAK-a birinci və ikinci instansiyalarda pozuntuların olması şübhəsi ilə araşdırma aparılması üçün müraciət edə bilər. ABF-nin, ENİAK-ın qəbul etdiyi qərarlar apellyasiya şikayətinə və yenidən araşdırmaya məruz qala bilməz.

**56.19**. Hər ayın əvvəlində ABL idman direktoru ötən ay ərzində yaranmış cərimə borcları haqqında klub rəhbərlərinə məlumat verməlidir.

## 57. Sanksiyalar (cəzalar və maliyyə cərimələri)

**57.1.** Nizam-intizam sanksiyaları ABL Əsasnaməsinin tələblərinin, başqa tələb və razılaşmalarının, ABF idarə heyəti tərəfindən təsdiq olunmuş sənədlərin, ABF-nin Nizamnaməsinin, ABF-nin nizam-intizam və etik normaların tələblərinin və eləcə də ABF tərəfindən təsdiq olunmuş tələb və qaydaların pozulması zamanı tətbiq olunur.

**57.2.** Normativ tələblərini pozan bütün ABL iştirakçılarına qarşı nizam-intizam cəzaları (sanksiyalar) tətbiq oluna bilər. Sanksiyalara məruz qalmış ABL iştirakçıları onlar barəsində çıxarılan qərarlara hörmətlə yanaşmalıdırlar.

**57.3.** Klublar (komandalar) üzvləri – oyunçular, məşqçilər, xidməti personal, həkimlər, masajçılar, inzibati personal və klubun fəaliyyətində iştirak edən klub prezidenti, vitse-prezidenti, fəxri prezidenti və ya idarə heyətinin üzvləri, klub sahibləri və b. davranışlarına görə məsuliyyət daşıyırlar. Klub və ya hər hansı

2025-2026

münasibətdə olan şəxs (klub inkar etmirsə) klubun üzvü və ya nümayəndəsi hesab olunur və ona qarşı sanksiya və cərimələrə məruz qala bilər.
**57.4.** Klublar onları dəstəkləyən azarkeşlərinə idman prinsiplərinə zidd hərəkətlərə yol verməməyə çağırışlar etməlidir. Kluba azarkeşlərinin qeyri-adekvat davranışlarına görə maliyyə sanksiyaları tətbiq edilə bilər.
**57.5.** Azarkeşlər tərəfindən baş vermiş xoşagəlməz hallara, azarkeşlərin davranışlarına məsuliyyət onları təmsil edən klubların üzərinə düşür.
**57.6.** Qayda pozuntusunun xarakterindən asılı olaraq pozuntunu araşdıran orqan məsuliyyətə cəlb olunmuş obyektə qarşı müxtəlif sanksiyalar tətbiq edə bilər.
**57.6.1.** ABL idman direktoru pozuntuya yol vermiş ABL iştirakçısına ilk dəfə pozuntu etdiyinə görə xəbərdarlıq edir (bu maddə Əsasnamənin 60 və 61-ci maddələrinə tətbiq olunmur).
**57.6.2.** ABL iştirakçısına qayda pozuntusuna görə maliyyə cəzası tətbiq olunur.
**57.6.3.** ABL iştirakçısı qayda pozuntusuna görə diskvalifikasiyaya məruz qala bilər.
**57.6.4.** ABL iştirakçısı pozuntuya görə həm maliyyə sanksiyasına, həm də diskvalifikasiyaya məruz qala bilər.
**57.6.5.** ABL iştirakçısı digər iştirakçıya dəymiş ziyanın ödənilməsinə məcbur edilə bilər.
**57.7.** ABL idman direktoru qayda pozuntusuna görə cəzalar tətbiq edərkən qayda pozuntusunun yüngülləşdirici və ağırlaşdırıcı hallarını liqanın, liqanın tərəfdaşlarının və basketbolun imicinə dəyən zərəri, pozuntunun neçənci dəfə təkrarlanmasını nəzərə alaraq qayda pozuntusuna yol vermiş ABL iştirakçısı barədə qərar verməlidir.
**57.8.** Sanksiyalar tətbiq edərkən ABL-in idman direktoru oyunun videoyazısına, digər iştirakçıların məlumatlarına, mətbuatda və internet resurslarında dərc edilən materiallara, teleradio çıxışlarına və başqa informasiyalara istinad edə bilər.
**57.9.** ABL idman direktorunun təyin etdiyi nizam-intizam və maliyyə sanksiyaları Əsasnamədə göstərilən hədləri keçməməlidir.

**58. Cərimələrin ödənilməsi şərtləri**
**58.1.** 500 (beş yüz) AZN-ə qədər cərimələr onların təyin olunduğu gündən (əgər cəza tətbiq edilən şəxs NİK-ə və ENİAK-a apellyasiya şikayəti verməyibsə) 10 (on) gün ərzində ödənilməlidir.
**58.2.** 500 (beş yüz) AZN-dən yuxarı cərimələr onların təyin olunduğu gündən (əgər cəza tətbiq edilən şəxs NİK-ə və ENİAK-a apellyasiya şikayəti verməyibsə) 30 (otuz) gün ərzində ödənilməlidir.

**59. Qayda pozuntuları**
**59.1.** ABL Əsasnaməsində aşağıdakı qayda pozuntularına görə cəza tətbiq edilir:
- FIBA rəsmi qaydalarının pozulması;
- oyunçuların, məşqçilərin qeydiyyata alınması zamanı pozuntular;

- oyunların keçirilməsi ilə əlaqədar pozuntular;
- oyun keçirilən yerin hazırlıq vəziyyətindəki çatışmazlıqlara görə;
- təhlükəsizlik qaydalarının və mühafizənin zəif təşkilinə görə;
- reklam və marketinq tələblərinin pozuntusuna görə;
- ABL tərəfindən təşkil olunmuş tədbirlərdə iştirak etməməyə görə;
- nizam-intizam qaydalarının pozuntusuna görə;
- danışılmış oyunlarda iştiraka görə;
- oyun geyiminin tələblərinin pozuntusuna görə.

**60. FIBA rəsmi oyun qaydalarının pozulmasına görə cərimələr**

**60.1.** Texniki fol cəriməsi – 100 (bir yüz) AZN

**60.1.1.** Hakimi aldatmağa görə texniki fol cəriməsi – 100 (bir yüz) AZN

**60.1.2.** Hakimlə mübahisəyə görə texniki fol cəriməsi – 150 (bir yüz əlli) AZN

**60.1.3.** Hakimi təhqir etdiyinə görə texniki fol cəriməsi – 300 (üç yüz) AZN.

**60.1.4.** Hakimlərə və digər yarış iştirakçılarına qarşı qeyri-idman hərəkətlərinə, hədə-qorxu, təhqirə görə texniki fol cəriməsi – 400 (dörd yüz) AZN.

**60.1.5.** Meydançada qeyri-etik hərəkətlərə, idmançıya yaraşmayan hərəkətlərə, digər yarış iştirakçılarına qarşı əl hərəkətlərinə, tamaşaçılara qarşı qeyri-etik hərəkətlərə görə texniki fol cəriməsi – 200 (iki yüz) AZN (NİK cəlb olunur).

**60.2.** Əgər texniki fol oyunçuya hakimlə mübahisəyə görə verilibsə, nəticə etibarilə hakimin verdiyi texniki folun səhv qərar olması aydınlaşarsa, o zaman liqanın idman direktoru və hakimlər xidmətinin rəhbəri məsləhətləşərək maliyyə cərimısini ləvğ edə bilərlər.

**60.3.** Oyunçuya diskvalifikasiya folu verilərsə (bu onun ikinci idmançıya yaraşmayan hərəkəti və ya ikinci texniki folu deyilsə), bu zaman cərimə 500 (beş yüz) AZN təşkil edir. Diskvalifikasiya folu ilə cəzalandırılan oyunçu (iki idmançıya yaraşmayan hərəkət və ya iki texniki fol ilə cəzalanan oyunçular xaric) növbəti çempionat oyununda iştirak edib etməməsi barədə qərarı ABL İdarə heyəti verir.

**60.4.** Baş məşqçinin idmandankənar (ona qarşı iki texniki xəbərdarlıq “C” (coach), ehtiyat zonada idmandankənar davranışa görə üç texniki cəza “B” (bench) verilməyibsə) birbaşa meydandan xaric olunubsa, 500 AZN cərimə təyin olunur və növbəti çempionat oyununda iştirak edib etməməsi barədə qərarı ABL İdarə heyəti verir.

**60.5.** İki texniki cəzaya görə meydanı tərk edən oyunçunun cəriməsi texniki xəbərdarlıqların cərimələrindən əlavə meydandan kənarlaşdırıldığına görə 200 (iki yüz) AZN təşkil edir. İki texniki cəzaya görə meydanı tərk edən oyunçu növbəti çempionat oynunda iştirak edə bilər.

**60.6.** Məşqçinin və ya komandanın müşayiət edən şəxsin texniki xəbərdarlığının cəriməsi 300 (üç yüz) AZN təşkil edir. Məşqçi və ya komandanın müşayiət edən şəxs: iki texniki xəbərdarlıq “C” (coach), ehtiyat zonada idmandan kənar davranışa görə üç texniki cəza “B” (bench) baş məşqçiyə təyin edilmiş iki dəfə idmandan kənar

2025-2026

davranışına görə “C” (coach), – 600 (altı yüz) AZN cərimə təyin olunur və növbəti çempionat oynuna sifariş oluna bilər.

**60.6.1.** Ehtiyat oyunçular skamyasına “B” (bench) – hər texniki xəbərdarlığın cəriməsi 200 (iki yüz) AZN.

**60.7.** Oyunda yaranmış qarışıqlıq zamanı ehtiyat oyunçular zonasını tərk edərək meydana çıxan məşqçinin, məşqçi köməkçisinin və digər komanda üzvlərinin diskvalifikasiya cəzaları: oyunda yaranan qarışıqlıq zamanı icazəsiz olaraq ehtiyat oyunçular zonasını tərk edib meydana çıxan komanda üzvlərinə (məşqçi, məşqçi köməkçisi, oyunçular və s.) hər biri 250 (iki yüz əlli) AZN cərimə olunurlar. Cərimə olunmuş diskvalifikasiya edilən (məşqçi, məşqçi. köməkçisi, oyunçular və s.) növbəti çempionat oynuna sifariş oluna bilər (NİK cəlb olunur).

**61. Oyunçuların və ya məşqçilərin qeydiyyat zamanı prosedur pozuntularına görə cərimələr**

**61.1.** Klub ABL-əsənədlərin təqdim edilməsini gecikdirir və ya saxta sənədlər təqdim edir; ABL çempionatının iştirakçısının lisenziyalaşdırma qaydaları maddə 5.6. tələbləri kobud şəkildə pozulur, bu hallarda klub 300 (üç yüz) AZN cərimə olunur.

**61.1.1.** Sənədlərin saxtalaşdırılmasına görə klub 5000 (beş min) AZN cərimə olunur.

**62. ABL oyunlarının təşkili və keçirilməsində baş verən pozuntulara görə cərimələr (prosedurlar).**

**62.1.** Komanda nümayəndəsi oyunun başlama vaxtına 40 dəqiqə qalmış lazım olan sənədləri masa hakimlərinə təqdim etmir: cərimə 200 (iki yüz) AZN təşkil edir.

**62.2.** Oyunçular sifariş ərizəsində göstərilmiş nömrələrdən fərqli nömrələri olan idman köynəklərində meydana çıxmışlar: cərimə 300 (üç yüz) AZN təşkil edir.

**62.3.** Oyunçuların geyimləri ABL Əsasnaməsinin 17.3. maddəsinin tələblərinə ziddir: cərimə 200 (iki yüz) AZN.

**62.4.** Məşqçi və oyunçu mətbuat konfransına gecikir, Əsasnamənin 46.3.2. maddəsinin tələbləri pozulur: cərimə 200 (iki yüz) AZN.

**62.5.** Məşqçi və oyunçu mətbuat konfransına gəlməkdən və canlı yayımdan müsahibə verməkdən imtina edirsə, cərimə 500 (beş yüz) AZN.

**62.6.** Komanda üzrlü səbəb olmadan oyun keçirilən məkana gəlmir: rəqibə 20:0 hesabı ilə qələbə yazılır, oyuna gəlməyən komandaya 5000 (beş min) AZN cərimə təyin edilir.

**62.7.** Komanda oyunun başa çatmasından əvvəl meydanı tərk edir və oyunu davam etdirməkdən imtina edir: rəqibə 20:0 hesabı ilə qələbə verilir, meydanı tərk edən komandaya isə 5000 (beş min) AZN cərimə təyin edilir (NİK cəlb olunur). Əgər eyni komanda eyni halı ikinci dəfə təkrar edərsə, rəqibə 20:0 hesabı ilə qələbə verilir, meydanı tərk edən komandaya isə 10000 (on min) AZN cərimə təyin edilir, komanda çempionatdan xaric edilir.

2025 - 2026

**62.8.** Klub oyunun tarixinin və vaxtının dəyişdirilməsini istəyir: bunun üçün klub oyun tarixindən ən azı 7 (yeddi) gün əvvəl ABL idarə heyətinə yazılı müraciət etməli və ABL hesabına 500 (beş yüz) AZN vəsait ödəməlidir.
**62.9.** Klub oyunun tarixinə 7 (yeddi) gündən az müddət qalmış oyun tarixini və vaxtının dəyişdirilməsini istəyir: bu zaman klub ABL hesabına 1000 (bir min) AZN vəsait ödəməli və yazılı müraciət etməlidir.
**62.10.** Komanda oyun geyiminin ev və səfər tələblərinə riayət etmir: cərimə 300 (üç yüz) AZN.
**62.11.** Oyunçuların geyimləri ABL Əsasnaməsinin tələblərinə cavab vermir və ya təqdimat zamanı oyunçular fərqli geyimlərdə meydana çıxırlar: cərimə 250 (iki yüz əlli) AZN.
**62.12.** Oyunçuların geyim nömrəsi sifariş olunma nömrəsi ilə uyğun olmadıqda Əsasnamənin 17.18. maddəsinin tələblərinə ziddir: cərimə 300 (üç yüz) AZN
**62.13.** Məşqçilərin, məşqçi köməkçilərinin və digər personalın geyimləri Əsasnamənin tələblərinə uyğun olmadıqda: cərimə 150 (yüz əlli) AZN.
**62.14.** ABL loqotipi geyimlər üzərində olmadıqda: cərimə 150 (yüz əlli) AZN.
**62.15.** Oyunun diktoru öz işini qeyri-peşəkar yerinə yetirir, komandalardan hər hansının həvəsləndirilməsi üçün azarkeşlərə müraciət edir: cərimə 150 (yüz əlli) AZN.
**62.16.** Təyin olunmuş məsul şəxs vəzifə səlahiyyətlərini yerinə yetirmir: birinci halda 150 AZN, təkrar 300 AZN cərimə tətbiq olunur.

**63. Mühafizə və təhlükəsizlik qaydalarının pozulması hallarında cərimələr**
**63.1.** Meydan sahibi komandanın nümayəndəsi, hansı ki qonaq komandanın və hakimlərin yarış məkanına gəlib getmələrinə məsuliyyət daşıyır, vəzifə səlahiyyətlərini yerinə yetirmədiyinə görə 300 (üç yüz) AZN cərimə.
**63.2.** Meydan sahibi komanda yarış məkanında təhlükəsizliyi təmin etmir: cərimə 500 (beş yüz) AZN.
**63.3.** Oyun yerində mühafizə xidməti əməkdaşlarının azlığı və ya heç olmamasına görə cərimə 300 (üç yüz) AZN.
**63.4**. Yarış məkanında pirotexniki vasitələrin istifadəsi, meydançaya kənar əşyaların atılması, azarkeşlərin meydançaya çıxması, yarış iştirakçıları üçün digər təhlükəli halların baş verməsinə görə cərimə 1000 (bir min) AZN.
**63.5.** Təhlükəsizlik qaydalarının pozulmasına görə yarış məkanına sanksiyalar tətbiq oluna bilər.
**63.6.** Azarkeşlərinin qeyri-adekvat davranışlarına görə klub 500 (beş yüz) AZN-dən 1500 (bir min beş yüz) AZN-ə qədər cərimə oluna bilər.
**63.7.** Hakimlərin təhlükəsizliyini təmin etmədiyinə görə meydan sahibi kluba 1000 (bir min) AZN cərimə tətbiq olunur.

**63.8.** Azarkeşlər tərəfindən meydançaya zərər vurmasa da, oynamağa məneə törədən vasitələrin atılmasına görə kluba 300 (üç yüz) AZN-dən 1500 (bir min beş yüz) AZN-dək cərimə tətbiq edilir.

**63.9.** Müxtəlif sərt tərkibli zədə yetirə biləcək və oyuna maneə törədən əşyaların meydançaya atılmasına görə klub 1500 (bir min beş yüz) AZN-dən 3000 (üç min) AZN-dək cərimə oluna bilər. Təkrar törədildikdə arenada növbəti oyunlar tamaşaçılarsız keçirilə bilər.

**63.10**. Azarkeşlərin aqressiv hərəkətləri, hədə-qorxu gəlmə, təhqir, zorakılıq tətbiq etmə, hakimlərə, katiblərə qarşı zor işlətmə və ya zor işlətməyə cəhdə görə klub 1500 (bir min beş yüz) AZN-dən 3000 (üç min) AZN-dək cərimə olunur.

**63.11.** Azarkeşlərin meydana çıxması nəticəsində oyunun davam etdirilməsi mümkün olmadıqda kluba texniki məğlubiyyət verilir və klub 5000 (beş min) AZN cərimə olunur.

**63.12.** Klublar öz azarkeş dəstələrinə və onların davranışına görə oyundan əvvəl, oyun vaxtı və oyundan sonra məsuliyyət daşıyırlar.

**64. ABL tərəfindən təşkil edilən layihələrdə, tədbirlərdə, görüşlərdə və seminarlarda iştirak etməkdən imtina**

**64.1.** ABL klubunun məşqçisi, ABL məşqçilərinin mövsüm öncəsi, mövsüm ərzində, təşkil edilən toplantılarında, eləcə də digər tədbir və görüşlərdə iştirakdan imtina edir: cərimə 300 (üç yüz) AZN təşkil edir.

**64.2.** Klub öz nümayəndələrini ABF və ABL tərəfindən təşkil olunmuş layihə və tədbirlərdə iştirak etməyə icazə vermir: cərimə 1000 (bir min) AZN təşkil edir.

a) Klub öz oyunçusunu milli yığma komandanın toplantılarına və rəsmi oyunlarına buraxmaqdan imtina edir: oyunçu 3 aydan 6 ayadək ABF bayrağı altında təşkil olunan yarışlardan kənarlaşdırılmaqla, kluba 5 000 AZN dən 10 000 AZN dək cərimə tətbiq olunur.

**64.3.** ABL iştirakçıları və komandaların nümayəndələri ABL tərəfindən və ABL baş sponsoru tərəfindən təşkil olunmuş reklam çəkilişlərində, videoçəkilişlərdə, sosial layihələrdə iştirak etməkdən imtina edir: 2000 (iki min) AZN təşkil edir.

**65. Nizam-intizam qaydalarının pozulmalarına görə cərimələr**

**65.1.** Hakimin, oyunun inspektorunun, ABL və ABF-nin nümayəndəsinin qanuni tələblərini yerinə yetirməkdən imtina etmək: 300 (üç yüz) AZN-dən 600 (altı yüz) AZN-dək cərimə və bir oyun diskvalifikasiya cəzası təyin edilir.

**65.2.** ABL idarə heyətinin, ABL idman direktorunun qərarlarının yerinə yetirilməsindən imtina etmək, əgər qərarlar bilavasitə ABL iştirakçısına və ya iştirakçılarına (klublar və onların üzvləri) aiddirsə, iştirakçı bu qərarın qəbul edilməsində iştirak etmişdirsə (icrasından imtina edərsə), 1000 (bir min) AZN cərimə, diskvalifikasiya (müddətini ABL NİK müəyyən edir).

2025-2026

**65.3.** ABL-in Nizamnamə və Əsasnaməsinin, qəbul edilmiş sənədlərin tələblərini, ABF-nin Nizamnaməsinin tələblərini, qəbul edilmiş sənədlərin tələblərini yerinə yetirməkdən imtina edilərsə, 1500 (bir min beş yüz) AZN cərimə təyin edilir.

**65.4.** ABL-in idman ləvazimatlarının reklam lövhələrinə və digər inventarlarına bilərəkdən zərər vurmaq, onları sıradan çıxarmaq: mütləq zərər vurmuş şəxs tərəfindən dəymiş ziyan hesaba görə 200 AZN – 10 000 AZN qədər məbləğ ödənilməlidir.

**65.5.** ABL iştirakçılarının etik normalar xaricində davranışı, aşkar formada hədə-qorxu gəlmə, təhqir, dəqiq olmayan məlumatları yayma, şərəf və layaqəti alçaltma, fiziki və hüquqi şəxslərin işgüzar nüfuzuna şər-böhtan atma. ABL, ABF və liqa klublarının imicinə, nüfuzuna zərər vurmaq hallarına ilk dəfə yol verilərsə, 1000 (bir min) AZN cərimə, həmin hal ikinci dəfə təkrarlanarsa, 2000 (iki min) AZN cərimə təyin olunur. Üçüncü dəfə təkrar olunarsa, ABF bayrağı altında keçirilən bütün yarışlardan kənarlaşdırılır.

**65.6.** ABL iştirakçılarına, klublara, oyunçulara, azarkeşlərə, hakimlərə, mətbuat nümayəndələrinə qarşı aşkar şəkildə böhtan və təhqiredici fikirlər səsləndirməyə görə 1000 (bir min) AZN cərimə, ikinci dəfə təkrarlanarsa, 3000 (üç min) AZN cərimə təyin olunur.

**65.7.** ABL iştirakçıları etik normalardan kənar hərəkətlərinə görə şəxsi sosial mənşəyinə, irqinə, milliyətinə, dininə, dilinə, cinsinə və başqa şəxsi vəziyyətlərinə görə alçaltmaq, diskriminasiyaya məruz qoymaq: 1000 (bir min) AZN cərimə təyin olunur.

**65.8.** Yarış məkanına yarış iştirakçıları tərəfindən (oyunçular) oyundan əvvəl və oyun vaxtı alkoqollu içkilərin gətirilməsi və qəbul edilməsinə görə 1000 (bir min) AZN cərimə, diskvalifikasiya təyin olunur (ABL NİK tərəfindən diskvalifikasiyanın müddəti təyin edilir).

**65.9.** Nifrətin və zorakılığın (psixoloji və fiziki) təbliğ edilməsinə çağırışa görə 1000 (bir min) AZN cərimə təyin olunur.

**65.10.** Hər hansı psixoloji zorakılığın tətbiqinə görə 1000 (bir min) AZN cərimə təyin olunur.

**65.11.** Şəxsiyyəti alçaldan, təhqiredici və hədə-qorxu gəlici əl hərəkətlərindən istifadə etməyə görə (xuliqanlıq) 1500 (bir min beş yüz) AZN cərimə təyin olunur və bir oyundan beş oyunadək diskvalifikasiya, ikinci dəfə həmin hal təkrarlanarsa, 5000 (beş min) AZN cərimə təyin olunur və beş oyundan on oyunadək diskvalifikasiya, üçüncü dəfə təkrar olunarsa, ABF bayrağı altında keçirilən bütün yarışlardan kənarlaşdırılır.

**65.12.** Hər hansı fiziki gücün tətbiq edilməsinə görə (özünü və digərlərini müdafiə məqsədi istisna edilir) 1500 (bir min beş yüz) AZN cərimə təyin olunur, üç oyundan beş oyunadək diskvalifikasiya tətbiq edilir.

**65.13.** Oyun vaxtı hakimin aldadılmasına yönəlmiş idmandankənar hərəkətlər, imitasiyalar nəticəsində rəqib üzərində üstünlüyü əldə etməyə ABL direktoru

2025-2026

oyunun videoyazısına baxış keçirməklə imitasiya edən verərsə, oyunçuya 300 (üç yüz) AZN cərimə təyin edilir, bu hal növbəti oyunda təkrarlanarsa, hər dəfə cərimə iki qat artırılır.

**65.14**. ABL iştirakçısı qadağan olunmuş hərəkətlərə, digər iştirakçının sağlamlığı üçün təhlükəli hərəkətlərə, hədə-qorxu gəlmə, rəqibə qarşı təhqir və zorakılıq hərəkətlərinə (oyunçulara, məşqçilərə, nümayəndələrə, hakimlərə, liqa əməkdaşlarına, tamaşaçılara və b.) yol verərsə, 1000 (bir min) AZN cərimə təyin olunur. Bir oyundan beş oyunadək diskvalifikasiya edilir; cəza oyunun görüntüsünə baxış keçirdikdən sonra ABL NİK tərəfindən təyin edilir.

## 66. Oyunun nəticəsinə təsir edəcək işbirliyi və mərc oyunlarında iştiraka görə cəzalar

**66.1.** Birbaşa və ya dolayı yolla oyunun nəticəsinə təsir edəcək işbirliyinə razılaşmaq, kömək etmək, mərc oyunlarında iştirak etmək, oyunun nəticəsinə təsir edəcək sövdələşmələrə getmək, öz xidmətini təklif etmək, xidmətinə görə hər hansı bir şirnikləndirici vəsait tələb etmək: ədalətli oyun prinsiplərinə müdaxilə etməyə görə 10000 (on min) AZN cərimə, diskvalifikasiya təyin olunur (ABL və ABF-nin rəyasət heyətləri tərəfindən diskvalifikasiyanın müddəti təyin edilir).

**66.2.** Birbaşa və ya dolayı yolla ABL iştirakçısına öz adından və ya başqa şəxs adından maddi mənfəət təklif etmək, ABF, ABL və FIBA-nın qəbul etdiyi sənədlərə zidd olaraq hər hansı bir maddi maraq müqabilində ədalətli oyun prinsiplərinə zidd hərəkətlərə yol verilərsə, 10000 (on min) AZN cərimə və diskvalifikasiya təyin olunur (ABF-nin rəyasət heyətləri tərəfindən diskvalifikasiyanın müddəti təyin edilir).

**66.3.** Birbaşa və ya dolayı yolla ABF ərazisində keçirilən çempionat və turnir oyunlarında, eləcə də beynəlxalq yarışlarda (əgər beynəlxalq oyunda komandalardan biri ABF-nin üzvüdürsə) mərc oyunlarında iştirak etməyə görə (mərc oyunlarına pul qoyduğuna görə) 10000 (on min) AZN cərimə, 1 ildən 2 ilədək diskvalifikasiya təyin olunur (ABF-nin rəyasət heyətləri tərəfindən diskvalifikasiyanın müddəti təyin edilir).

**66.4.** Birbaşa və ya dolayı yolla mərc oyunları kontorları nümayəndələri, üçüncü şəxslər, mərc oyunlarının təşkilatçıları ilə ABF ərazisində keçirilən çempionat, turnir və digər təşkil olunmuş oyunların gözlənilən nəticələri barədə məsləhətləşmələr etməyə, nəticələrə təsir edəcək sövdələşmələrə getməyə görə 10000 (on min) AZN cərimə və diskvalifikasiya təyin olunur (ABF-nin rəyasət heyəti tərəfindən diskvalifikasiyanın müddəti təyin edilir).

**66.5.** ABL direktoru əgər Azərbaycan Respublikasının rəsmi orqanları (polis, mərc oyunlarına nəzarət üzrə dövlət idarəsi) tərəfindən oyunun mümkün nəticəsinin öncədən məlum olması barədə məlumatı alarsa, o həmin oyunu ləvğ etməyə və təxirə salmaq hüququna malikdir.

2025-2026

**66.6.** Danışılmış oyuna hazırlıq və ya cəhd etmə hərəkətləri aşkar edilərsə, hər iki tərəfə 5000 (beş min) AZN cərimə təyin olunur.
**66.7.** Bu maddənin bəndləri pozulduqda Azərbaycan Respublikası Hüquq Mühafizə Orqanlarına pozuntunun araşdırılıb hüquqi qiymət verilməsi üçün müraciət olunur.
**66.8.** Əsasnamənin 66-cı maddəsi üzrə şübhəli vəziyyətlərdə FIBA-ya raport verilməsi edilməsi zəruridir. Bu raport ABF-nin idman direktorunun (SPOC) məsuliyyətindədir.

**67. Oyunun hakimlərinə, inspektoruna və masa hakimlərinə sanksiyalar**
**67.1.** Hakimlərə cərimələrin tətbiq edilməsi qərarı hakimlər xidmətinin rəhbəri ilə məsləhətləşmələrdən sonra ABF idman direktoru tərəfindən təyin edilir.
**67.2.** Oyunun hakimləri, inspektoru və masa hakimləri üçün cərimələr
**67.2.1.** Hakim və inspektor FIBA-nın rəsmi oyun qaydalarına və bu Əsasnamənin tələblərinə riayət etmirlər, vəzifə borclarına səhlənkar yanaşırlar, onlardan tələb olunanları yerinə yetirmirlər. Bu halda 2 (iki) həftədən 3 (üç) ayadək müddətə idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.2.** Üzrlü səbəb olmadan təyin olunmuş vaxtda təyinat yerində olmama: 1 (bir) aydan 3 (üç) aya qədər idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.3.** Qeyri-kafi idman görünüşü: artıq çəki, zəif sürət, zəif dözümlülük 1 (bir) ay müddətinə idarəçilikdən kənarlaşdırma.
**67.2.4.** Hakim ABL tərəfindən təqdim olunmayan geyim geyinmişdir və ya geyimində ABL direktoru ilə razılaşdırılmamış reklam mövcud olarsa, 2 (iki) həftədən 3 (üç) ayadək müddətə idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.5.** Hakimlər, inspektor və masa hakimləri oyunu alkoqollu və ya psixotrop maddələr altında idarə edərlərsə, 1 (bir) aydan 3 (üç) aya qədər idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.6.** Oyun haqqında informasiyanı Əsasnamədə təyin olunmuş vaxtda təqdim etmədikdə 2 (iki) həftədən 3 (üç) ayadək müddətə idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.7.** Səhlənkar fəaliyyət, qərəzli hakim, katib işi, oyun protokollarının düzgün doldurulmaması, statistika səhvləri və başqa kobud səhvlərə görə 1 (bir) aydan 3 (üç) aya qədər idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.8.** Basketbolun, ABF-nin, ABL-in, ABL klublarının imicinə zərər vuracaq hərəkətlər, aşkar hədə-qorxu, təhqir, ictimai davranış qaydalarının pozulması, etik normaların pozulmasına görə 2 (iki) həftədən 3 (üç) ayadək müddətə idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.
**67.2.9.** Məşqçilərə, oyunçulara, klub nümayəndələrinə, tamaşaçılara, hakim yoldaşlarına, inspektora, masa hakimlərinə, ABF və ABL nümayəndələrinə qarşı hədə-qorxu gəlmə, təhqir etmə, təxribatçı, qeyri-etik hərəkətlərə və zorakılığa görə 3 (üç) aydan qeyri-müəyyən müddətə kimi idarəçilikdən kənarlaşdırma cəzası təyin olunur.

2025-2026

**68. Dopinq və dopinqə nəzarət prosedurlarının pozulmasına görə məsuliyyət**

**68.1**. Bütün idmançılar ədalətli oyun prinsipinə sadiq olmalıdırlar.

**68.2.** Oyunçulara dopinq məhsullarından və metodlarından istifadə etmək qadağandır.

**68.3.** İdmançının orqanizminə qadağan olunmuş preparatların düşməsi idmançının öz məsuliyyətidir.

**68.4.** Dopinq metodlarının və preparatlarının təbliği və istifadəsi məsuliyyəti komandanın həkimi və masajçının üzərindədir.

**68.5.** Qadağan olunmuş dopinq preparatlarının siyahısı Ümumdünya Antidopinq Agentliyinin veb-saytında hər il yenilənir.

**68.6.** FIBA-nın və ABF-nin rəsmi yarışlarında dopinq nəzarəti prosedurları Ümumdünya Antidopinq Agentliyinin təsdiq olunmuş Əsasnaməsinə uyğun FIBA – WADA və ABF – Azərbaycan Antidopinq Agentliyi birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

**68.7.** Dopinq nəzarəti ABL oyunçularının hər birinə qarşı istənilən vaxtda həyata keçirilə bilər. Dopinq nəzarət proseduru əvvəlcədən xəbərdarlıq edilmədən də həyata keçirilə bilər. Dopinq nəzarət proseduruna cəlb olunmuş oyunçunun təmsil etdiyi klubun nümayəndəsinin prosedurun sonuna qədər idmançının yanında olması mütləqdir.

**68.8.** Beynəlxalq Basketbol Federasiyası (FIBA) dopinq nəzarəti prosedur pozuntularına görə sanksiyalar tətbiq edə bilər.

## Əlavə №1

**Təkrar Baxış Sistemi üzrə təlimat**

1. Təkrar Baxış Sistemində hakimlər masa hakimlərindən dolğun informasiya aldıqdan sonra tez bir zamanda monitorda epizodun təkrarına baxa bilərlər. Yekun qərarı oyunun baş hakimi qəbul edir.

2. Təkrar Baxış Sistemi yalnız hakimlər üçün nəzərdə tutulmuşdur. TBS idarə olunmasına məsul olan xidməti personaldan başqa heç kim TBS monitorunun qarşısında əyləşə bilməz. Baş hakimin göstərişi ilə icazəsi olmayan şəxslər monitor olan ərazini tərk etməlidirlər.

2025-2026

3. Hakim əl hərəkətləri ilə TBS-də epizoda baxılmasını göstərməlidir. TBS baxışına qədərki qərar hakim tərəfindən dəyişdirilə bilər; o halda ki təkrar baxışdan sonra epizod barədə ilkin qərarın səhv olduğu təsdiqlənsin.
4. Təkrar baxışdan istifadə halları
4.1. Oyun başa çatdıqdan sonra oyun vaxtının göstəriciləri: (00:00). TBS-yə baxış aşağıdakı hallarda mümkündür:
4.1.1. Hər bir hissənin sonunda və əlavə hissənin sonunda (00:00) hakimlər aşağıdakı halları müəyyən etməlidirlər:
a) səbətə atış edən oyunçu topu əlindən buraxan zaman vaxt bitmişdir, ya yox.
b) əgər top vaxtında atılmışdırsa, atış iki xallıq və ya üç xallıq zonadan olmuşdur.
c) əgər top vaxtında atılmışdırsa, atış edən oyunçu atışı meydanın daxilindən və ya xaricindən etmişdir.
d) top əldən çıxan zaman hücuma ayrılan vaxt 24/14 bitmişdir, ya bitməmişdir.
e) top səbətə atılan zaman müdafiə zonasında 8 saniyə qaydası pozulmuşdur ya pozulmamışdır.
f) topun əldən çıxdığı zaman hissənin bitməsini bildirən diodlu işıq yanarkən və siqnal səsi səslənərkən, müdafiə olunan oyunçu fol etmişdir, ya etməmişdir; fol atış foludur, ya atış folu deyil.
4.1.2. Hakimlərə aşağıdakı hallarda TBS-dən istifadə etməyə icazə verilir:
a) səbətə atış edən oyunçu yan xətti tapdalamışdır.
b) 24/14 saniyə qaydası pozulmuşdur.
c) 8 saniyə qaydası pozulmuşdur.
d) qayda pozuntusu hissə bitmədən baş vermişdir.
4.1.3. Əgər qayda pozuntusu hissənin sonunda və ya əlavə vaxtda baş veribsə (oyun saatının göstəriciləri: 00:00), hakimlər aşağıdakı halları düzəltmək üçün təkrar baxış keçirirlər:
a) qayda pozuntusunun hissənin bitməsi haqqında işıqlı siqnalın səslənməsindən öncə baş verməsi;
b) əgər hakimlər əmin olsalar ki, qayda pozuntusu oyun başa çatmamış baş vermişdir, onlar nə qədər vaxtın qaldığını müəyyən etməli və oyun saatını düzəltməlidirlər.
4.2. Oyunun dördüncü hissəsində və ya əlavə hissədə son iki dəqiqədə TBS-yə baxış aşağıdakı hallarda keçirilə bilər:
a) hakimlər meydanın cinahında top ilə təmasda olan oyunçunun və ya topun oyun meydançasının xaricində və ya daxilində olmasını müəyyən etmək üçün;
b) başqa bir oyunçunun səbətə atış etdiyi zaman oyun vəziyyətindən kənarda olan oyunçunun fol etməsini müəyyən etmək üçün;
c) səbətə atış zamanı səbətə düşən topun qarşısının qaydalara uyğun alınmasının müəyyən etmək üçün.
d) mərkəz xətti istiqamətində qayda pozuntusunun olub-olmamasını müəyyən etmək üçün.

2025 - 2026

4.3. TBS-nin bütün oyunlarda aşağıdakı hallarda istifadə etmək olar:
a) texniki səbəblərə görə oyunun saatı düzgün işləmədikdə hakimlər TBS-dən istifadə edərək oyun vaxtını dəqiqləşdirirlər.
b) texniki səbəblərə görə hücum vaxtı monitorunda problem yarandığı üçün hakimlər TBS-dən istifadə edərək hücum vaxtını təyin edirlər.
c) oyunda qarışıqlıq yaranarsa, hakimlər TBS vasitəsilə qarışıqlığa səbəb olmuş şəxsləri müəyyən edib cəzalandırırlar.
d) atış zamanı oyunçuya qarşı qayda pozulubsa, hakimlər topun iki və ya üç xallıq zonadan atıldığını müəyyən etmək üçün TBS-dən istifadə edirlər.
e) əgər hakimlər atışın hansı zonadan həyata keçirildiyini və ya atışın hansı zonadan atıldığını müəyyən etməkdə çətinlik çəkirlərsə, o zaman TBS-dən istifadə edirlər.
f) hakimlər hansı oyunçunun cərimə atışını yerinə yetirəcəyinə əmin deyillər, TBS-dən istifadə edərək cərimə atışı edəcək oyunçunu müəyyən edirlər.
g) hakimlər topa sahib olmayan komandanın topun səbətə düşməsindən əvvəl və ya sonra fol etməsindən əmin deyillər, bu halda TBS vasitəsilə atışın foldan əvvəl və ya foldan sonra olduğunu müəyyən edirlər.
h) hakimlər əmin deyillər: topa sahib olan komanda müdafiə olunan rəqibə qarşı qayda pozuntusuna topun səbətə düşdüyü an yol vermişdir, ya yox. TBS vasitəsilə müəyyən olunur ki, fol top səbətə düşməzdən əvvəl, ya sonra edilmişdir;
i) hakimlər əmin deyillər: təyin edilən diskvalifikasiya cəzaları kriteriyalara uyğundur, ya yox, cərimələr artırıla bilər, ya yox, bunları müəyyən etmək üçün TBS baxışı keçirilir.
5. Komandanın lideri – məşqçi oyun ərzində bir dəfə hakimlərdən TBS-dən baxış keçirməyi tələb edə bilər, lakin tələb 4-cü bəndin müddəalarına uyğun olmalıdır. Əgər baxış keçirildikdən sonra məşqçinin haqlı olduğu təsdiqlənərsə, o zaman daha bir təkrar baxış imkanı verilir (maksimum iki təkrar baxış).

## Əlavə № 2

**ABF LİSENZİYASI MÜQAVİLƏSİ VƏ ABL İŞTİRAKÇISININ BƏYANATI**
**Azərbaycan Basketbol Federasiyası (ABF) tərəfindən təşkil edilən oyunlarda ədalətli və məsuliyyətli oyun:**
**Mövsüm 2025 – 2026**

Ad soyad:_______________________________________________
Şəxsiyyəti təsdiq edən sənədin seriya № __________________________
Təmsil etdiyi basketbol klubu:_______________________________
E-poçt:___________________________________________________
Mobil telefon:_____________________________________________

2025-2026

1. Azərbaycan Basketbol Liqasının (ABL) yarış iştirakçısı kimi və bu yarışda iştirakımı qəbul etdiyimi nəzərə alaraq ədalətli oyun, təmiz oyun və zorakılıq etməmə ruhuna hörmətlə yanaşacağımı, idman meydançasından kənarda da müvafiq qaydada davranacağımı bildirirəm.
2. Hazırda qüvvədə olan məxfilik siyasəti, FIBA-nın daxili Əsasnaməsi daxil olmaqla Azərbaycan Basketbol Liqaları Çempionatının Əsasnaməsinin müddəalarını oxuduğumu və tam biliyə malik olduğumu bildirirəm və bütün bu müddəalara əməl etməyə razıyam. Xüsusilə mən hal-hazırda qüvvədə olan antidopinqi tənzimləyən FIBA daxili Əsasnaməsinin müddəalarına əməl etməyə razıyam və bununla da dopinqlə mübarizə ilə bağlı qaydalar və cəzalardan xəbərdar olduğumu təsdiq edirəm.
3. (Yalnız oyunçulara şamil olunur) Mən dopinq-nəzarət testlərini (o cümlədən FIBA, WADA, Azərbaycan Antidopinq Agentliyi və ya FIBA tərəfindən sifariş edilmiş hər hansı təşkilat tərəfindən müsabiqədənkənar testlər) təqdim etməyi, belə testlərin nəticələrini qəbul etməyi və onlara əməl etməyi öhdəmə götürürəm. Milli Federasiyam və klubumun dopinq testləri, nəticələrin idarə edilməsi və mümkün intizam icraatları ilə əlaqədar istifadə etmək üçün şəxsi məlumatımı FIBA-ya göndərdiyinə dair məlumatlandırılmışam və mənim üçün məqbuldur. Mən oyunçuların dopinq nəzarəti ilə bağlı məlumatlarla bağlı məlumat bildirişini oxudum və başa düşdüm (bax: www.fiba.com) və mənim şəxsi məlumatlarımın qüvvədə olan antidopinq qaydalarına uyğun olaraq emal ediləcəyi mənim üçün məqbuldur.
4. Azərbaycan Basketbol Liqası yarışları münasibətilə lentə alına, televiziyaya çəkilə, şəkil çəkdirə, şəxsiyyəti müəyyənləşdirilə və başqa şəkildə qeyd oluna biləcəyim barədə məlumat aldım və mənim üçün məqbuldur. Mənə də məlumat verilir və mənim üçün məqbuldur ki, mənim şəklim (bənzərim, adım, avtoqraf və digər müəyyənedici xüsusiyyətlərim) hər hansı məhsul, xidmət, kommersiya və ya qeyri-kommersiya ilə bağlı istehsal, satış, paylama, inkişaf və reklamla əlaqədar istifadə edilə bilər. Azərbaycan Basketbol Liqası və (və ya) onun səlahiyyətli tərəfdaşları bu məqsədlər üçün mənim imicimdən öz ünsiyyətlərində istifadə etmək hüququna malikdirlər.
5. Mən həmçinin Azərbaycan Basketbol Federasiyasının FIBA etika məcəlləsinə, eləcə də etika və intizam kodeksinə riayət etməyi, xüsusən də Azərbaycan Basketbol Liqasının yarışları ilə bağlı mərc oyunlarında iştirak etməməyi, onları dəstəkləməməyi və ya təşviq etməməyi öhdəmə götürürəm. Mənə məlumat verilir və üçüncü tərəflərin Azərbaycan Basketbol Liqasının (ABL) yarışları ilə bağlı mərc oyunlarına aid məlumatları FIBA-ya və Azərbaycan Basketbol Liqasına ötürə bilməsi mənim üçün məqbuldur. Mənə məlumat verilir ki, Azərbaycan Basketbol Liqası Çempionatının Əsasnaməsi Azərbaycan Basketbol Liqasının rəsmi tərəfdaşlarının və ya sponsorlarının fəaliyyətinin dəstəklənməsi və ya təşviq

2025-2026

edilməsini tələb etdiyi hallarda mərc oyunlarının dəstəklənməsi və ya təşviq edilməsinə qadağa tətbiq edilmir.
6. Azərbaycan Basketbol Federasiyası tərəfindən təşkil edilən oyunlar və / yaxud komandamın iştirak etdiyi digər turnirlərlə bağlı qumar və digər fəaliyyətlərdə birbaşa və ya dolayısı ilə iştirakdan çəkinməyi öhdəmə götürürəm.
7. Mən komanda yoldaşlarımın və ya digər komanda(lar) oyunçusunun sağlamlıq vəziyyəti və ya bilavasitə və ya dolayısı ilə basketbol oyununa və onun nəticələrinə təsir edə biləcək hər hansı digər məsələ ilə bağlı hər hansı məlumatı açıqlamamağı öhdəmə götürürəm.
Mən etiraf edirəm və razıyam:
c) Azərbaycan Basketbol Federasiyasının yarışlarında öz riskimlə iştirak edirəm və özümü iştirak risklərindən qorumaq üçün bütün ağlabatan tədbirləri görəcəyəm.
d) Azərbaycan Basketbol Liqası yarış meydançalarına gətirdiyim bütün əmlaka görə məsuliyyət daşıyıram və Azərbaycan Basketbol Liqası bu əmlakın hər hansı itki və ya zədələnməsinə görə məsuliyyət daşımır.
Mən Azərbaycan Basketbol Federasiyasını (və onların müvafiq üzvlərini, direktorlarını, zabitlərini, işçilərini, könüllülərini, podratçılarını və ya agentlərini) hər hansı itki, zədə və ya zərərə görə (qanunla icazə verilən həddə) məsuliyyətdən dönməz şəkildə azad edirəm. Azərbaycan Basketbol Federasiyasının yarışlarında iştirakımla əlaqədar əziyyət çəkə bilər.
10. Razıyam ki, Azərbaycan Basketbol Federasiyasının və / və ya ümumiyyətlə, ABL Əsasnaməsinin yarışları ilə əlaqədar və ya onunla əlaqədar yaranan və sülh yolu ilə həll edilə bilməyən və qüvvədə olan hər hansı mübahisə və ya iddia ABL qaydaları ilə müəyyən edilmiş hüquqi müdafiə vasitələri tükəndikdən sonra həll olunmamış mübahisələr Azərbaycan Respublikasının istənilən məhkəməsinə və ya Bakı İqtisad Məhkəməsinə və ya İdman Arbitraj Məhkəməsinə (CAS) təqdim edilməlidir.
11. Mən Azərbaycan Basketbol Federasiyasının yarışlarında iştirakımın bu ABF lisenziya müqaviləsi və ABL iştirakçısının bəyannaməsinin hər bir və bütün müddəalarını düzgün qəbul etməyimin və onlara əməl etməyimin şərt olduğunu etiraf edirəm və razıyam.
12. Bu ABF lisenziya müqaviləsi və ABL iştirakçısının bəyannaməsinin müddəalarını pozduğum halda, ABF-nin baş katibinin mənə cərimə tətbiq etmək hüququna malik olduğunu başa düşürəm. Bilirəm ki, ABF yarışlarında oyuna davam etmək qadağası ilə cərimə oluna bilərəm. Bundan əlavə, ABL rəhbərliyi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi yanında Azərbaycan Respublikasının Polis Orqanlarını və / və ya hər hansı digər rəsmi qurumunu (o cümlədən FIBA, Azərbaycan Basketbol Federasiyası, WADA, CAS, Milli Basketbol Federasiyası kimi rəsmi basketbol qurumlarını) bu məsələ ilə bağlı məlumatlandıracaqdır.

2025-2026

13. Pozuntu baş verərsə, ABF-nin texniki komitəsində müəyyən yerdə və vaxtda iştirak etməyi və həqiqətin üzə çıxarılması üçün lazımi addımları atmağı öhdəmə götürürəm.
14. Qanun pozuntusuna yol verildiyi halda, ABF rəhbərliyinin əvvəlcədən razılığı olmadan hər hansı ictimai məlumatı və ya elanı kütləvi informasiya vasitələrinin nümayəndələrinə açıqlamamağı öhdəmə götürürəm.
15. Aşağıda imzalamaqla mən bu ABF lisenziya müqaviləsi və ABL iştirakçısının bəyannaməsini oxuduğumu təsdiq edirəm və bu qaydalara əməl edəcəyəm.
16. Mən öz imzamla ABF fəaliyyətlərinin idarə edilməsi məqsədləri (e-poçt ünvanı və telefon nömrəsi daxil olmaqla) ilə burada göstərilən şəxsi məlumatlarımın işlənməsi ilə razıyam.

Tam adı (böyük hərflərlə), imza:________________________________________
Tarix: ____________________________________________________________
Məkan: ___________________________________________________________

Yetkinlik yaşına çatmayan idmançılarla münasibətdə: mən bununla təsdiq edirəm ki, mən idmançının valideyni / qəyyumu kimi bu müqavilənin və bəyannamənin müddəaları ilə razıyam.

Valideyn / qəyyum:__________________________________________________
Bu bənd valideynlərin / qəyyumların hərflərlə tam adı və imzası:
___________________________________________________________________
Qohumluq əlaqəsi:_________________________________________________
Tarix:______________________________________________________________
Məkan:_____________________________________________________________

## Əlavə № 3

**ABF LİSENZİYASI MÜQAVİLƏSİ VƏ ABL İŞTİRAKÇI BƏYƏNNAMƏSİ ŞƏRƏFLİ VƏ MƏSULİYYƏTLİ OYUN HAQQINDA AZƏRBAYCAN BASKETBOL FEDERASİYASI (ABF) TƏRƏFİNDƏN TƏŞKİL ETDİYİ YARIŞLARDA**
**2025 – 2026 mövsüm**

Ad, soyad:__________________________________________________________
Şəxsiyyətini təsdiq edən sənədin seriya № ______________________________
Təmsil olunduğu basketbol klubu: ____________________________________

2025 - 2026

E-poçt:_____________________________________________________________

Mobil telefon nömrəsi:_____________________________________________

1. Azərbaycan Basketbol Federasiya yarışlarının iştirakçısı kimi ABF yarışlarında iştiraka razılığımı nəzərə alaraq ədalətli oyun, təmiz oyun və zorakılıq olmadan oynamaq prinsiplərinə hörmət edəcəyimi və həm idmanda, həm də digər sahələrdə buna uyğun davranacağımı bildirirəm.

2. Azərbaycan Basketbol Federasiya çempionatının əsasnamələri, o cümlədən məxfilik siyasəti, hazırda qüvvədə olan FIBA-nın daxili qaydaları ilə tanış olduğumu və bütün məlumatlara sahib olduğumu bildirirəm və nəzərdə tutulan bu sənəddəki bütün müddəalara əməl etməyə razıyam. Xüsusilə mən antidopinq siyasətini tənzimləyən hal-hazırda qüvvədə olan FIBA daxili qaydalarına riayət etməyə razıyam və dopinqlə mübarizə ilə bağlı bu qaydalar və cəzalarla tanış olduğumu təsdiq edirəm.

3. (Yalnız oyunçulara şamil olunur) Mən dopinq-nəzarət testləri üçün lazımi nümunələri təqdim etməyi öhdəmə götürürəm (o cümlədən, FIBA, WADA, Litva Antidopinq Agentliyi (LADA) və ya FIBA tərəfindən icazə verilmiş hər hansı təşkilat, rəqabətdənkənar testlər) bu cür sınaqların nəticələrini (qəbul edilsin) və vaxtaşırı müvafiq qaydalara riayət edilməsini. Mən də məlumatlandırılmışam və qəbul edirəm ki, Milli Federasiyam və klubum mənim haqqımda şəxsi məlumatlarımı və məlumatımı Beynəlxalq Basketbol Federasiyasına (FIBA) ötürə bilər ki, bu da sonuncunun dopinq testləri nəticələrinin idarə edilməsi və mümkün intizam prosedurları zamanı istifadə edə bilər. Mən oyunçunun dopinqlə bağlı məlumat bildirişini (bax: www.fiba.com) oxudum və başa düşdüm və şəxsi məlumatlarımın qüvvədə olan antidopinq qaydalarına uyğun olduğunu qəbul edirəm.

4. Azərbaycan Basketbol Federasiyasının təşkil etdiyi yarışlarda, eləcə də ABF tərəfdaşlarının kommersiya və qeyri-kommersiya layihələrində, ABL və onun səlahiyyətli tərəfdaşları tərəfindən videoçəkiliş, şəkil çəkdirmək, şəxsiyyəti müəyyən edən və ya başqa şəkildə (şəkil, ad, şəxsiyyət, avtoqraf və digər şəxsi identifikasiya xüsusiyyətləri) etdirilməsi, təşviqi və reklamlarda əlaqələndirilə biləcəyim barədə məlumat aldım. Mənim üçün məqbuldur, imicimdən öz ünsiyyətlərində istifadə edə bilərlər.

5. Mən həmçinin FIBA Etika Kodeksinə, Azərbaycan Basketbol Federasiyasının Etika və İntizam Kodeksinə riayət etməyi və Azərbaycan Basketbol Liqası yarışları ilə bağlı mərc oyunlarında iştirak etməməyi, onları dəstəkləməməyi və ya reklam etməməyi öhdəmə götürürəm. Mənə həmçinin məlumat verilir və mənim üçün məqbuldur ki, üçüncü tərəflər mənim haqqımda və Azərbaycan Basketbol Liqası yarışlarına mərc oyunları ilə bağlı hərəkətlərimlə bağlı məlumatları Beynəlxalq Basketbol Federasiyasına (FIBA) və Azərbaycan Basketbol Liqasına ötürə bilərlər. Mənə məlumat verilir ki, mərc oyunlarına sponsorluq etməmək və reklam etmək qadağası ABL çempionatının Əsasnaməsinə əsasən ABL iştirakçılarından ABL-in

2025-2026

rəsmi tərəfdaşlarının və / və ya sponsorlarının fəaliyyətini dəstəkləmək və ya reklam etmək tələb olunduğu hallarda tətbiq edilmir.

6. Azərbaycan Basketbol Federasiya tərəfindən təşkil edilən yarışlar və komandamın iştirak etdiyi digər turnirlərlə bağlı birbaşa və dolayı qumar və digər oxşar fəaliyyətlərdən çəkinməyi öhdəmə götürürəm.

7. Komandamın oyunçularının səhhətinə, digər komandaların oyunçularının vəziyyətinə və basketbol matçının nəticəsinə birbaşa və ya dolayısı ilə təsir edə biləcək digər əlaqəli məlumatları təqdim etməməyi öhdəmə götürürəm.

8. Mən bilirəm və razıyam ki:

a) Azərbaycan Basketbol Federasiyası yarışlarında şəxsi məsuliyyət və risk əsasında iştirak edirəm və yarışlarda özümü müxtəlif risklərdən qorumaq üçün bütün lazımı və icazə verilən tədbirləri görəcəyəm.

b) Azərbaycan Basketbol Federasiyasının məkanlarına (arenalarına) gətirdiyim hər hansı əmlaka görə məsuliyyət daşıyıram və Azərbaycan Basketbol Federasiya mənim hər hansı əmlakımın itirilməsinə və ya zədələnməsinə görə məsuliyyət daşımır.

9. Mən Azərbaycan Basketbol Federasiyasının təşkil etdiyi yarışlarda iştirak etdiyim və əməkhaqqı aldığım müddətdə mənim çəkə biləcəyim itki, zədə və ya dönməz zərərə görə Azərbaycan Basketbol Federasiyasını (onun məsul üzvlərini, direktorları, işçiləri, könüllüləri, podratçılar və ya nümayəndələri) hər hansı məsuliyyətdən (qanunla icazə verilən həddə) rəsmi şəkildə azad edirəm.

10. Razıyam ki, ABF yarışlarında iştirakımdan və / və ya ümumiyyətlə, ABL şərtləri ilə bağlı olan və ya onunla bağlı yaranan və sülh yolu ilə həll edilə bilməyən və ABL-də nəzərdə tutulmuş bütün hüquqi müdafiə vasitələri tükəndikdən sonra həll olunmamış qalan hər hansı mübahisələr, fikir ayrılıqları və ya iddialarla bağlı Azərbaycan Respublikasının istənilən məhkəməsində, Bakı İqtisad Məhkəməsində və ya İdman Arbitraj Məhkəməsində (CAS) qərar verilməlidir.

11. Azərbaycan Basketbol Federasiya yarışlarında iştirakımın yalnız bütün "ABF lisenziya müqaviləsi və ABL iştirakçısının Azərbaycan basketbolunun şərəfli və məsuliyyətli oyunu haqqında Bəyannaməsi"ni imzaladığım və razılaşdığım zaman şərt və mümkün olduğunu bilirəm və razıyam.

12. Əgər mən "ABF lisenziya müqaviləsi və ABL iştirakçısının Azərbaycan Basketbol Federasiya tərəfindən təşkil edilən yarışlarda şərəfli və məsuliyyətli oyun haqqında Bəyannaməsi"nin şərtlərini və / yaxud müddəalarını pozaramsa, ABF baş katibinin cərimə tətbiq edə biləcəyini başa düşürəm. Başa düşürəm ki, ABF yarışlarından xaric olunmaqla cəzalandırıla bilərəm. Həmçinin ABF rəhbərliyi insident barədə Daxili İşlər Nazirliyi orqanlarına və / və ya hər hansı digər rəsmi quruma (o cümlədən FIBA, Azərbaycan Basketbol Federasiyası, WADA, CAS, milli müvafiq ölkənin basketbol federasiyası və s.) məlumat verə bilər.

13. Əgər "ABF lisenziya müqaviləsi və ABL iştirakçısının Azərbaycan Basketbol Federasiyası tərəfindən təşkil edilən yarışlarda şərəfli və məsuliyyətli oyun haqqında

2025-2026

Bəyannaməsi"nin şərtlərini və / yaxud müddəalarını pozaramsa, ABL Nizam-intizam Komissiyasının iclasında iştirak etməyi öhdəmə götürürəm. Təyin olunmuş vaxt və yerdə və bütün düzgün məlumatları açıqlamağı öhdəmə götürürəm.

14. Əgər mən "ABF lisenziya müqaviləsi və ABL iştirakçısının Azərbaycan Basketbol Federasiyası tərəfindən təşkil edilən yarışlarda şərəfli və məsuliyyətli oyun haqqında Bəyannaməsi"nin şərtlərini və / yaxud müddəalarını pozaramsa, əvvəlcə ABF rəhbərliyi ilə məsləhətləşmədən mən heç bir məlumat və ictimai bəyanat verməməyi öhdəmə götürürəm.

15. Aşağıda imzalamaqla mən təsdiq edirəm ki, mən bu "ABF lisenziya müqaviləsi və ABL iştirakçısının Azərbaycan Basketbol Federasiyası tərəfindən təşkil edilən yarışlarda şərəfli və məsuliyyətli oyun haqqında Bəyannaməsi" ilə tanış olmuşam və bu qaydada nəzərdə tutulmuş şərtlərə və öhdəliklərə əməl etməyi bu sənədlə öhdəmə götürürəm.

16. İmzalamaqla razılaşıram ki, ABF mənim şəxsi məlumatlarımdan (elektron poçt ünvanı və telefon nömrəsi) ABL-in fəaliyyətinin idarə edilməsi məqsədilə istifadə edə bilər.

Ad, soyad (böyük hərflərlə), imza: ______________________________

Tarix, yer: ________________________________________________

İdmançı yetkinlik yaşına çatmayıbsa: Mən təsdiq edirəm ki, idmançının valideyni / qəyyumu kimi bu razılaşma və bəyannamə ilə razıyam.

Valideynlərin / qəyyumların adı:_______________________________________

Valideynlərin / qəyyumların imzası:___________________________________

Qohumluq əlaqəsi: ________________________________________________

Tarix, yer:__________________

2025-2026